

# Mehriban Əliyevadan ermənilərin təxribatları ilə bağlı azərbaycanlılara müraciət

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələrlə bağlı həmvətənlərimizə müraciət edib. "Unikal" müraciəti təqdim edir.*

Səh.2


UNİKAL

№24 (2019) 25 iyul 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Əbülfəs Qarayevin yol üstündəki kadrları...

## Keçmiş nazirin vəzifəyə gətirdiklərindən kimlər işsiz qalacaq?

*Bir çoxları Mədəniyyət naziri vəzifəsindən uzaqlaşdırılan Əbülfəs Qarayevin səlahiyyətlərinin icrasının birinci müavin postundakı Vaqif Əliyevə tapşırılacağını gözləsə də, ictimaiyyət üçün xeyli gözlənilməz sayıla biləcək qərar verildi. Ölkə başçısı Anar Kərimovun mədəniyyət nazirinin birinci müavini təyin edilməsi haqqında sərəncam imzalayıb. Həmçinin dövlət başçısının digər sərəncamı ilə A.Kərimov Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırıldı.Bundan başqa, "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edildi və Mədəniyyət nazirinin birinci müavinlərinin sayı 2-yə çatdırılıb. Eyni zamanda mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi barədə sərəncam açıqlandı və bu sərəncama görə həmin səlahiyyət A.Kərimova tapşırıldı.*

Səh.5

Səh.6




# Azərbaycana qarşı yeni təxribat oyunu qurulub

## "Qələbə hökmən bu millətin alnına yazılıb"



*İşğalçı Ermənistana məxsus silahlı qüvvələr iyulun 12-dən başlayaraq bir neçə gün ərzində Tovuz rayonu istiqamətində təxribatçılıq əməllərinə yol verdi və Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək, onu geriyə çəkilməyə məcbur etdi. Bu təxribatın nəticəsində yüksək rütbəli zabitlərimiz və hərbi...*

Səh.4

## Ermənistan danışıq prosesinə zərbə vurur



*Tovuz istiqamətindəki təxribatdan sonra Ermənistan rəhbərliyi bütün dünyanın təpkisini alsa da, öz təxribatçı mahiyyətindən əl çəkmir. Belə ki, Ermənistan Baş naziri Nikol Paşinyan hökumətin iclasında Azərbaycan tərəfinə 7 şərt irəli sürüb. Bu şərtlər isə danışıqlar prosesin tam ziddini təqkil edir.*

Səh.13

## Xalq artisti: "Səhnədə səmimi olmamaq şansın yoxdur"



*Böyük tamaşaçı auditoriyası onu "Dolu" filmindəki komandir rolu ilə tanıdı. Amma teatr və kino aktyoru Azərbaycanın xalq artisti Məmməd Səfa Qasımov sənət aləmində öz yeri olan şəxslərdəndir. Və həmin filmə qədər sənətsevərlərin sevimli aktyoru...*

Səh.11

# İlham Əliyevdən 20 milyon manatlıq sərəncam



***Prezident İlham Əliyev kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına verilən güzəştlərin maliyyələşdirilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

Sərəncama əsasən, Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 20,0 (iyirmi) milyon manat ayrılıb.

"Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.65-1-ci bəndində göstərilmiş məbləğdən Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə 20,0 (iyirmi) milyon manat ayrılıb.

# Putindən Azərbaycan-Ermənistan sərhədindəki vəziyyətlə bağlı açıqlama



***Rusiya Prezidenti Vladimir Putin RF-nın Təhlükəsizlik Şurasının daimi üzvləri ilə Azərbaycan və Ermənistan sərhədindəki vəziyyəti müzakirə edib.***

Unikal.org xəbər verir ki, keçirilən operativ iclas barədə dövlət başçısının katibi Dmitri Peskov məlumat verib.

"Azərbaycan və Ermənistan sərhədindəki artmaqda olan gərginliyin fonunda bu iki ölkə də daxil olmaqla, Rusiyanın MDB ölkələri ilə münasibəti müzakirə olunub", -deyə Peskov bildirib.

# Koronavirusa yoluxma sayı azalır

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 332 yeni yoluxma faktı qeydə alınıb, 573 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan Unikal.org-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 9 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 29 min 312 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 21 min 547 nəfər müalicə olunaraq sağalıb, 400 nəfər vəfat edib. Aktiv xəstə sayı 7 365 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 037, ötən müddət ərzində isə 667 819 test aparılıb.

# "ASAN xidmət" bu tarixlərdə işləməyəcək

***Bakı, Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Sumqayıt, Yevlax şəhərlərində və Abşeron, Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Siyəzən və Şəki rayonlarında mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il 5 avqust saat 06:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi davam edəcək.***

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən Unikal.org-a bildirilib ki, sərtləşdirilmiş xüsusi karantin rejimi ilə əlaqədar 25, 26 iyul və 1, 2 avqust tarixlərində Bakı şəhərindəki bütün "ASAN xidmət" və "ASAN Kommunal", Gəncə, Masallı, Sumqayıt, Mingəçevir, Bərdə, Şəki regional "ASAN xidmət" mərkəzlərində qeyri-iş günü olacaq.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Mehriban Əliyevadan ermənilərin təxribatları ilə bağlı azərbaycanlılara müraciət



***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələrlə bağlı həmvətənlərimizə müraciət edib.***

"Unikal" müraciəti təqdim edir. Əziz həmvətənlər! Amerikanın Los-Anceles şəhərində və bəzi Avropa ölkələrinin paytaxtlarında yaxın günlərdə baş vermiş hadisələr milyonlarla azərbaycanlı kimi, məni də dərindən hiddətləndirib. Azərbaycanlıların öz Vətənini dəstəkləmək üçün müvafiq dövlət orqanları ilə əvvəlcədən razılaşdırılmış dinc, vətənpərvərlik aksiyaları erməni diasporunun nümayəndələri tərəfindən fiziki zorakılıq, aqressiya və qeyri-insani nifrət hissi ilə üzləşib.

Yaxşı hazırlıq və təlim keçmiş təhrikçilər sayca xeyli üstün olmalarından istifadə edib dinc nümayişçilərə hücum çəkərək onlara xəsarət yetiriblər. Bir sıra hallarda aqressiv əhval-ruhiyyəli erməni qrupları həmin vaxt azlıqda qaldığına görə azğınlaşmış kütləyə müqavimət göstərə bilməyən azərbaycanlılara hücum ediblər.

Onilliklər boyu aşılanan nifrət və azərbaycanofobiya ideologiyası öz "eybəcər bəhrəsini" verir - ermənilərin bir qismi dinc azərbaycanlı nümayişçilərə dünya paytaxtlarının mərkəzində daş atır, digərləri

Azərbaycan vətəndaşlarının evlərinə ağır artilleriya silahlarından atəş açırlar. Tarixdə Azərbaycan xalqına qarşı bu cür cinayətlər törədilməsi nümunələri çox olub.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinin dinc azərbaycanlı əhalisinin Ermənistan silahlı qüvvələri tərəfindən kütləvi şəkildə məhv edilməsini xatırlamaq kifayətdir. Bu faciəli hadisələr 10-dan çox dövlət tərəfindən soyqırımı kimi tanınıb və beynəlxalq təşkilatlar səviyyəsində pislənib.

O qanlı gecədə təpədən dırnağa qədər silahlanmış erməni döyüşçülər xüsusi qəddarlıqla 613 nəfəri qətlə yetirib, 421 dinc sakin işgəncələrə və təhqirlərə məruz qalıb, 1275 nəfər itkin düşüb və ya girov götürülüb, şəhər özü isə tamamilə yandırılıb.

Mindən çox dinc vətəndaş odlu silah yaraları nəticəsində şikəst olub. Öldürülənlər arasında 106 qadın, 63 uşaq, 70 ahıl şəxs olub.

Səkkiz ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. 56 nəfər diri-diri yandırılıb.

İki yaşlı Zəhra Quliyevanın erməni təcavüzkarlar tərəfindən qətlə yetirilməsini də qeyd etməmək olmaz. Zəhra 2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndinin iriçaplı silahlardan atəşə tutulması nəticəsində nənəsi ilə birlikdə həlak olub. Başqa bir misal. 2020-ci il iyulun 14-də Tovuz rayonunun 76 yaşlı dinc sakini Əziz Əzizov erməni silahlı qüvvələri tərəfindən mülki obyektlərin artilleriya atəşinə tutulması nəticəsində həlak olub.

Erməni təbliğat-təşviqat şəbəkəsi 30 ildən artıqdır ki, bu amansız cinayətlərə haqq qazandırmağa çalışaraq çoxsaylı diasporunun köməyi ilə məkrli anti-Azərbaycan təbliğatı aparır. Sirr deyil ki, ölkəmizə qarşı böhtan kampaniyalarının mütləq əksəriyyəti də məhz erməni diasporu tərəfindən inspirasiya edilir və maliyyələşdirilir.

Nifrət və aqressiya dərəcəsi o qədər artıb ki, bu diasporun bəzi nümayəndələri özlərini demokratiyanın beşiyi hesab edən Qərb ölkələrinin paytaxtlarında qanunsuzluq və hərcmərclik törədirlər.

Avropa siyasətinin mərkəzi sayılan Brüsseldə Azərbaycan Respublikası səfirliyinin daşa basılmasını, dinc nümayişçilərə xəsarət yetirilməsini başqa necə izah etmək olar?

Los-Ancelesdən, Brüsseldən və digər şəhərlərdən çəkilmiş, düşmənlərimizin həqiqi simasını göstərən zorakılıq və vandalizm kadrları həm haqlı olaraq hiddət, həm də əsaslı suallar doğurur.

Həmin ölkələrin hüquq-mühafizə orqanları azğınlaşmış bandit qruplaşmalarının bu cür hərc-mərclik törətməsinə nə üçün imkan verirlər? Bu cinayətlərə necə göz yummaq olar?

Mən bütün dünyada yaşayan milyonlarla azərbaycanlı adından ABŞ-ın, Belçikanın və digər dövlətlərin hüquq-mühafizə orqanlarını bu hadisələri hərtərəfli təhqiq etməyə, onlara müvafiq hüquqi qiymət verməyə və bütün təqsirkarları məsuliyyətə cəlb etməyə çağırıram, çünki qanunsuz əməllər cəzalandırılmalıdır.

Mən, həmçinin çoxsaylı qeyri-hökumət təşkilatlarını, o cümlədən insan haqlarının müdafiəsini özlərinin missiyası elan edən "Freedom House", "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını törədilmiş hadisələrə ədalətli qiymət verməyə çağırıram. Lakin nədənsə biz hələ onların səslərini eşitmirik. Ümidvaram ki, bu qurumlar yetərincə prinsipiallıq nümayiş etdirərək ikili standartlar siyasətindən əl çəkəcək və faktlara əsaslanan bəyanatlarla çıxış edəcəklər.

Əziz qardaşlar və bacılar!

Baş verənlər Ermənistanın işğalçı siyasətinin dinc Azərbaycan əhalisi üçün nə qədər təhlükəli olmasını dünya birliyinə əyani şəkildə nümayiş etdirir.

Belə hallarda bizim borcumuz bu həqiqəti dünya birliyinə çatdırmaqdır.

Bizim vəzifəmiz birləşmək və son zorakılıq aktlarının ədalətlə təhqiq edilməsini, təqsirkarların məsuliyyətə cəlb olunmasını bütün tribunalardan təkidlə tələb etməkdir.

Hər bir səsin əhəmiyyəti var!

Mən bütün dünya azərbaycanlılarını birgə hərəkət etməyə, azğınlaşmış düşmənə layiqli cavab vermək üçün bizim diasporun bütün potensialını birləşdirməyə çağırıram. Bununla belə, unutmamalıyıq ki, qeyri-insani nifrət hissini əsas götürən vəhşilərə və banditlərə bənzəmək olmaz. Bizim mübarizəmiz yalnız hüquq müstəvisi çərçivəsində aparılmalıdır.

Bu günlərdə bütün dünya şəhərlərində öz səsini ucaltmış və Azərbaycan bayrağını qaldırmış hər kəsə təşəkkür edirəm.

Qoy, heç kim şübhə etməsin ki, heç bir provokasiya bizi haqq yolundan dönməyə məcbur edə bilməz. Biz milyonlarlayıq, bizim bir məqsədimiz var - Vətəni müdafiə etmək, onun ərazi bütövlüyünü və tarixi həqiqəti bərpa etmək.

Ona görə ki, Qarabağ Azərbaycandır və nida işarəsi!

# Azərbaycanda vəzifəli şəxslər buna görə cərimələndi

*Daxili İşlər Nazirliyinin (DİN) Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) müvafiq qurumları ilə birgə respublikanın şəhər və rayonlarında, meşə, park, müalicə-sağlamlıq, turizm zonalarının ərazilərində, su mənbələrinin və mineral bulaqların sanitar mühafizə zonalarında, Xəzər dənizinin sahil zolağında, çimərliklərdə məişət tullantılarının tutumundan (urnalardan) kənar yerlərə atılması, sənaye və məişət tullantılarının qalaqlanması, su obyektlərinin çirklənməsi və zibillənməsi hallarının qarşısının alınması məqsədilə tədbirlərini davam etdirir.*



DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, təkcə cari ilin iyun ayında birgə keçirilən tədbirlər zamanı Bakı şəhərində və Abşeron rayonu ərazisində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi), 264-cü (su obyeklərinin mühafizə qaydalarının pozulması) və 233.1-ci (ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının yol verilə bilən normativlərdən artıq olması) maddələrinin tələblərini pozan 6 vəzifəli, 4 fiziki şəxs müəyyən edilərək inzibati məsuliyyətə cəlb olunub.

Onlara tətbiq olunan cərimələr 24 400 manat təşkil edib. Ümumilikdə, cari ilin 6 ayı ərzində bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin 264-cü (su obyeklərinin mühafizə qaydalarının pozulması), 266.3-cü (məişət tullantılarının tutumlardan (urnalardan) kənara atılması), 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) və 233.1-ci (ətraf mühitə atılan, axıdılan və ya basdırılan zərərli maddələrin miqdarının yol verilə bilən normativlərdən artıq olması) maddələrinin tələblərini pozmuş 508 nəfər inzibati məsuliyyətə cəlb olunub. Onlara tətbiq olunan cərimələr 54 080 manat təşkil edib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

**Famil Fərhadoğlu**

# Ədalət Vəliyev Birlik sədri ilə görüşdü

*İyul ayının 24-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və Birlik Partiyasının sədri Xudadat Xudiyev arasında görüş keçirilib.*



Görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi, COVİD-19 pandemiyası, siyasi partiyaların fəaliyyəti, milli həmrəylik və digər məsələlər müzakirə olunub.

Qeyd olunub ki, Ermənistan 30 ilə yaxın təcavüz siyasəti aparır və Azərbaycanın 20% torpaqlarını işğal altında saxlayır. Cari ilin iyul ayının 12-də Ermənistanın Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribat isə onların işğal siyasətinin davamıdır.

Bu hadisələr fonunda 43 siyasi partiyanın birlikdə, 4 siyasi partiyanın isə ayrı-ayrılıqda Ermənistanın hərbi təxribatını pisləməsi, ölkəmizin ərazi bütövlüyü naminə Ali Baş Komandan ətrafında sıx birləşməsini bəyan etməsi çox müsbət addım idi.

Daha sonra dünyanı bürüyən COVİD-19 pandemiyası, ölkəmizin bu sahədə apardığı işlər, ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə bir sıra beynəlxalq təşkilatların videokonfrans vasitəsilə keçirilmiş zirvə görüşləri barəsində fikir mübadiləsi aparılıb.

X.Xudiyev ölkədə sağlam iqtidar-müxalifət münasibətlərinin formalaşması istiqamətində görülən işləri müsbət qiymətləndirib. O, Ermənistanın Azərbaycana qarşı təcavüz siyasətini qətiyyətlə pisləyib və əlavə edib ki, bütün siyasi qüvvələr ümummilli məsələlərdə hər zaman bir yerdə olmalıdır.

# Azərbaycanlı səfir həyəcan təbili çaldı: ""Qana qan!" şüarını..."



*"Srağa gün gecə Almaniyadakı Ermənistan səfirliyinin xidməti avtomobili yandırılıb. Çox güman ki, öz əməlləridir.*

Amma buna sevinmək lazım deyil. Əksinə, Azərbaycan səfirliklərinə və xarici ölkələrdə yaşayan Azərbaycan vətəndaşlarına qarşı iri miqyaslı təxribatların anonsu kimi qəbul etmək lazımdır".

"Unikal" xəbər verir ki, bu fikirləri Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev bildirib.

Səfir deyib ki, sabah onlar eyni asanlıqla bir və ya bir neçə ermənini öldürüb bütün dünyanı üzərimizə qaldıra bilərlər:

"Və bu fonda Los-Anceles, yaxud Brüsseldə baş verən erməni vəhşiliklərini asanlıqla unutdura bilərlər.

Dostlar, ehtiyatlı olun. Təxribata uymayın. Milli davamızı Avropanın, yaxud Rusiyanın küçə və meydanlarına keçirməyin.

Dünya hətta qəbul etməsə də, erməni vəhşiliyini gördü.

Bu vəhşiliyin belə asanlıqla unutdurulmasına imkan verməyin.

Sumqayıtı, Qriqoryanı nə tez unutdunuz?

Ayıq olun!

Bizim "Qana qan!" şüarını səsləndirməli və tətbiq etməli olduğumuz yeganə yer işğal altındakı torpaqlarımızdır!".

# "Kapital Bank" şəhid mayorun 12 min manat borcunu sildi



*Xəbər verdiyimiz kimi, Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən tərəfinin təxribatları nəticəsində Tovuz rayonunda qəhrəmancasına həlak olan 1976-cı il təvəllüdlü, Azərbaycan Silahlı Qüvvələrinin mayoru Novruzov Anar Gülverdi oğlunun "Kapital Bank"a 12 min manat kredit borcu var idi.*

Kapital Bank-ın İctimaiyyətlə Əlaqələr şöbəsinin rəisi Pərviz Sədrəddinov Unikal.org-a açıqlamasında bildirib ki, artıq şəhid mayorun borcu silinib:

"Azərbaycan-Ermənistan dövlət sərhədində düşmən tərəfinin təxribatları nəticəsində Tovuz rayonunda qəhrəmancasına həlak olan 1976-cı il təvəllüdlü, Azərbaycan Silahlı Qüvvələrinin mayoru Novruzov Anar Gülverdi oğlunun həqiqətən "Kapital Bank"-a kredit borcu olduğu müəyyən olunub və bu borc tam olaraq Kapital Bank tərəfindən silinib. Həmçinin bu ilin iyul ayında Tovuz istiqamətində gedən döyüşlər zamanı şəhid olmuş digər hərbçilərin də, nağd pul, avans krediti və "BirKart"-larına borclarının olduğu üzə çıxıb. Saytınız vasitəsilə bildirmək istərdik ki, həmin borclar da "Kapital Bank" tərəfindən tam olaraq silinəcək. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

**Famil Fərhadoğlu**

# "Terrorçuluq və irqçilik Ermənistan üçün yad deyil" – Millət vəkili



*"Ermənistanla sərhəddə baş verən son hadisələrlə bağlı dünyanın bir çox ölkələrində yaşayan soydaşlarımız tərəfindən ordumuza dəstək nümayişləri təşkil olundu və xaricdəki soydaşlarımızın ermənilər tərəfindən hücuma məruz qaldığını bütün dünya gördü!*

Dövlət səviyyəsində terrorçuluq və irqçilik Ermənistan üçün yad deyil, ASALA-dan tutmuş Xocalı soyqırımına qədər minlərlə misal çəkmək mümkündür."

Bu barədə millət vəkili Nurlan Həsənov Unikal.org-a açıqlamasında bildirib: "Bugün Ermənistan hakimiyyəti irqçi dəyərlərə əsaslanan dövlət səviyyəsində terrorçuluq siyasəti yürüdür. Brüsseldə, Los-Ancelesdə onlar necə vəhşilik edə biləcəklərini bütün dünyaya göstərdilər. İndi dünya ictimaiyyəti düşünməlidir, hətta əmin olmalıdır ki, bunların əlində silah olsa və hüquq-mühafizə orqanlarından qorxuları olmasa Xocalıda baş verənlər Brüsseldə təkrar oluna bilərdi.

Bugün artıq soydaşlarımıza hücum edən ermənilər hüquq-mühafizə orqanları tərəfindən saxlanılır. Sosial şəbəkələrdə yayılan videolarda göründüyü kimi, bir neçə erməni bir gəncimizə ağır xəsarət yetirir və açıqca bu hücumun irqçi motivli olması görülür. Bir çox dünya ölkələrində isə irqçi motivli xəsarət yetirmə cinayət hüququnda ağırlaşdırıcı hal kimi nəzərə tutulur. Biz onlara qanun çərçivəsində cavab verməliyik, onlar məsuliyyətə cəlb edilməlidir! Ümidvaram ki, xarici ölkələrin hüquq-mühafizə orqanları bunu nəzərə alacaq və məsələ qanun çərçivəsində öz həllini tapacaq.

Ermənistan dünya ictimaiyyətini aldadır, demokratik, hüquqi dövlət qurduğunu bildirir. Bu, böyük yalandır. Avropa dəyərlərinə söykənən hansı hüquqi dövlət öz qonşusunun və ya başqa dövlətin ərazisini işğal edər? Dünya ictimaiyyəti bu sualı verməlidir. Avropa Parlamenti, Birləşmiş Millətlər, bütün dünya Ermənistanın işğalçı dövlət olduğunu deyir. Lakin, çox təəssüf ki, bəzi qonşu dövlətlər tərəfindən işğalçı rejimlə hərbi əməkdaşlıq edildiyini görürük.

Cənab Prezident son çıxışlarında belə bir söz işlətdi: "Gəl bizimlə təkbətək vuruş, görək bunun axırı nə olacaq". Ermənistanın buna nə cəsarəti, nə də gücü çatar. Qaçaraq tez balaca qorxaq günahkar, lakin masum görünən uşaq kimi ögey atalarının arxasında gizlənirlər! Lakin nə vaxta qədər gizlənə biləcəklər?".

# ABŞ Qarabağ separatçılarına maliyyə yardımı ayırdı

***ABŞ Konqresinin Nümayəndələr palatası işğal altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasına 1,4 milyon ABŞ dollarının ayrılmasını təsdiqləyib.***

Unikal.org xəbər verir ki, məlumatı ABŞ-dakı Erməni Milli Komitəsi (ANCA) yayıb. Bu maliyyə vəsaitinin Qarabağın minalardan təmizlənməsi üçün "HALO Trust" proqramına veriləcəyi iddia olunur.

Həmin proqramın maliyyələşdirilməsi 2020-ci ilin mart ayından dayandırılmışdı.

# “Qələbə hökmən bu millətin alnına yazılıb”

## Zəlimxan Məmmədli: “Xalqımız genetik quruluşunun və tarixi yaddaşının çox unikal olduğunu bir daha ortaya qoydu, 7-dən 77-yə Vətən dedi, ordu dedi”

***İşğalçı Ermənistana məxsus silahlı qüvvələr iyulun 12-dən başlayaraq bir neçə gün ərzində Tovuz rayonu istiqamətində təxribatçılıq əməllərinə yol verdi və Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək, onu geriyə çəkilməyə məcbur etdi. Bu təxribatın nəticəsində yüksək rütbəli zabitlərimiz və hərbi qulluqçularımız şəhid oldu. Azərbaycan tərəfi düşməni layiqli cavabla geri oturtsa da, ermənilər təxribat tədbirlərini davam etdirirlər. Heç kimə sirr deyil ki, erməni işğalçılarının və onların rəhbərlərinin bu dəfə məhz Tovuz rayonu istiqamətindəki cəhdlərinin arxasında Azərbaycanın və Türkiyənin, eləcə də Gürcüstanın yer aldığı enerji layihələrinə zərbə vurmaq istəkləri dayanmışdı. Onlar Ordumuzun nüfuzu ilə yanaşı, enerji siyasətimizə də zərbə vuracaqlarını düşündülər, ancaq göründüyü kimi, köklü şəkildə yanıldılar. Borçalı cəmiyyətinin sədri, siyasi şərhçi Zəlimxan Məmmədli “Unikal” qəzetinə müsahibəsində müxtəlif məqamlara toxunub.***

***-Zəlimxan bəy, öncə Tovuzda baş verən hadisələrə münasibətinizi öyrənmək istədim. Ermənilər növbəti dəfə təxribat törətdilər. Sanki Azərbaycanı hansısa yeni bir gərginlik içinə çəkmək istəyirlər. Çünki budəfəki təxribat Qarabağ cəbhəsində deyil, Tovuzda dövlət sərhəddimizdə törədildi. Bu barədə nə deyə bilərsiniz?***

-Məncə, ifadə doğru seçilməyib. Ermənistan növbəti dəfə Azərbaycana hərbi təcavüz etdi və Dağlıq Qarabağ ərazilərindən kənarda ərazilərimizi işğal etməyə cəhd etdi deyilsə, daha doğru olar. Ermənistanın indiki hakimiyyəti nə qədər tənqid olunsa da, Ermənistanda sonuncu xalq hərəkatının məntiqi nəticəsi olaraq formalaşıb. Legitimliyi Ermənistan daxilində və beynəlxalq arenada şübhə doğurmur. Paşinyan arxasında erməni xalqının iradəsini hiss edir və maksimalist şüarların təsiri altındadır. Ona görə də Dağlıq Qarabağ və işğal etdikləri ətraf rayonlar üzərində işğalı faktiki legitimləşdirmiş kimi davranır. Azərbaycan sərhəddini heç kimə, xüsusilə Azərbaycana məhəl qoymadan ayaq altı edib. Şənliklər keçirir, yeni yaşayış massivləri, müəssisələr açır, hətta Şuşanı paytaxt etməkdən, Dağlıq Qarabağı Ermənistanın tərkibi kimi göstərməkdən çəkinmir. Azərbaycanın siyasi hakimiyyəti isə əlində kifayət qədər hüquqi, mənəvi imkanlar olmasına baxmayaraq susqun, heç nə olmamış kimi, sanki Paşinyanın davranışları bunları qane edir kimi davranırlar. Belə olan halda Ermənistan daha əlavə dividentləri, yaranmış imkandan öz maraqlarına uyğun davranmağı doğru hesab edir. Azərbaycanın Tovuz rayonunun timsalında DQ-dən kənar ərazilərinə iddia edir. Azərbaycanı Türkiyə və

Avropa ilə birləşdirən iri kommunikasiya xətlərini hədəf alaraq şüuraltı layihələrdən pay uman kimi davranır. Türkiyəyə təzyiq, Türkiyənin nəbzini yoxlama da burada rol oynayan amildir.

***-Ermənistanın KTMT üzv olması və bu prosesdə Rusiyanın Azərbaycanla üz-üzə qoyulması məqsədi də ortadadır. Bu prizmadan yanaşanda prosesi necə dəyərləndirirsiniz?***

-Rusiyanın bu planda payı olmamış deyil. Amma Rusiya həm də ikibaşlı oyun oynayaraq Türkiyə və Avropanın təhlükəsizliyinə ciddi təhdid olduğunu bəyan edir, Paşinyanı isə onun (Rusiyanın) sadiq nökərlərini cəzalandırdığı üçün pat vəziyyətində qoyur. Ermənistanda Rusiyanın diqtəsi olmadan hakimiyyət formalaşması Rusiyanı qane edə bilməz. KTMT-nın iclasının təxirə salınması və Ermənistanın xəyal etdiyi qərarın verilməməsi məhz bununla bağlıdır. Rusiya eyni zamanda, Orta Şərqdə Türkiyə ilə rəqabətdə itirilmiş müəyyən mövqelərin kompensasiyasını Qafqazda, konkret halda Ermənistan-Azərbaycan-Gürcüstan sərhəddində- Qədim İpək yolunun qovuşduğu məkanda axtarır.

***-Türkiyənin məsələyə münasibəti ortada oldu. Bəzi ekspertlər də bildirirlər ki, artıq Türkiyə ilə hərbi-strateji müttəfiqliyi daha da dərinləşdirmək istiqamətində ciddi addımlar atılmalıdır. Siz nə düşünürsünüz?***

-Azərbaycan Ermənistanın bu təcavüzünə hazırlıqsız yaxalandı. Hakimiyyət içərisində böhran, korrupsiya təsirsiz ötüşməyib. Üzümüzü ağardan Türkiyə siyasi hakimiyyətinin və cəmiyyətinin vahid mövqeyi oldu. Azərbaycan ordusunun peşəkar hərbiçilərinin - generalın, polkovnik və digər ixtisaslı zabitlərin müəmmalı şəkildə şəhid olması uzun müddət araşdırılmalı məsələ olmalıdı. Ruhları şad olsun. Türkiyənin həm yaxın, həm də uzaq antitürk mərkəzlərinə cəsarətli təpkisi və müəyyən zəruri dəstəyi, və bundan ruhlanan ordumuz və Azərbaycan cəmiyyətinin səfərbərliyi Ermənistanı durduran və Azərbaycan əleyhinə Ermənistanın nəzərdə tutduğu qərarların qəbul olunmasını əngəlləyən əsas amil oldu. Ermənistan KTMT-nın üzvüdürsə, Azərbaycan hökmən Türkiyənin olduğu hərbi ittifaqla təxirə salmadan ciddi əməkdaşlıq sənədləri imzalamalıdır. Eyni zamanda, Türkiyə ilə ikitərəfli hərbi ittifaq, qarşılıqlı olaraq təhlükəzliyə qarant öhdəliyi əks olunan sənəd imzalanmalıdır. Azərbaycan Müdafiə Nazirliyi rəsmilərinin Türkiyə səfərində bu sahədə anlaşmanın olması real görünür. Azərbaycan-Türkiyə ilə arasında regional təhlükəsizliklə bağlı anlaşmada Gürcüstanın da qoşulmasını bütövlükdə Cənubi Qafqazda təhlükəsizlik probleminin birdəfəlik həlli demək olardı. Unudulmamalıdır ki, Türkiyə çağdaş dünya siyasətində çox parametrləri ilə lider dövlət olaraq formalaşmaqda və layiqli yer tutmaqdadır. Bu iddialarımızın gerçəkləşməsi üçün Rusiyadan qorxu faktorunu tamamilə unutmalıyıq.

***-Ümumiyyətlə, hazırkı durumda Azərbaycanın xarici siyasətində istiqamətləri hansı yöndə korrektə etmək lazımdır?***

-Azərbaycanın indiki iqtidarının siyasi kursu təəssüf ki, Ermənistanın hərbi-strateji müttəfiqi olan Rusiyanın çəkdiyi antimilli zolağın içərisində korrupsiya bataqlığında vurnuxmağa məhkum durumdadır. Bu vəziyyət bizim milli və dövlət maraqlarımızı təhdid edir. Xarici İşlər Nazirliyi və Hərbi sistemimizdə nizamsızlıq bunun göstəricisidir.Hesab edirəm ki, Azərbaycan siyasi sistemi hökmən yenilənməli, Azərbaycan xalqının iradəsi hakimiyyətin bütün qollarına daşınmalı və Azərbaycan dünyanın mütərəqqi cinahına - Avropa demokratik ailəsinə və NATO-ya sürətli inteqrasiya yolunu tutmalıdır. Rusiya ilə ikitərəfli, qarşılıqlı hörmət əsasında əməkdaşlıq da çox önəmlidir. Bunlar isə yalnız Azərbaycan xalqının iradəsi ilə mümkündür.



“Ermənistan KTMT-nın üzvüdürsə, Azərbaycan hökmən Türkiyənin olduğu hərbi ittifaqla təxirə salmadan ciddi əməkdaşlıq sənədləri imzalamalıdır”

***-Zəlimxan bəy, cəmiyyətin həmrəylik nümayiş etdirməsi və bir yumruq kimi birləşməsi də diqqətdən yayınmamalıdır. Cəmiyyətimizin reaksiyası barədə nə deyə bilərsiniz?***

-Bəy, millətimiz azadlığa aşiq millətdir. O, azadlıq uğrunda mübarizəni varlığının əsas elementi hesab edir. 30 ildir Azərbaycan xalqını siyasi sistemdə, hüquq sahəsində baş alıb gedən dərəbəyliklərlə azadlıqdan, haqq savaşından usandırmaq siyasətləri iflasa uğradı. Xalqımız genetik quruluşunun və tarixi yaddaşının çox unikal olduğunu bir daha ortaya qoydu. 7-dən 77-yə Vətən dedi, ordu dedi, ədalət dedi, azadlıq dedi. Qürur duyulmalı millətin övladlarıyıq. Hökmən bu millətin alnına qələbə yazılıb. Düşünürəm ki, o gün heç də uzaqda deyil.

***-Eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar da bu məsələdə aktiv oldular. Sizcə, daha hansı işləri görmək olar?***

-Çox mürəkkəb variantlar aramağa ehtiyac yoxdur. Azərbaycan məhz öz xalqının iradəsi ilə idarə olunmalıdır. Onda səfər xalqın, zəfər Tanrının qisməti olacaq. Azərbaycan xalqı bir gün də ləngimədən təkidlə demokratiya uğrunda mübarizəyə başlamalı və öz iradəsini bütün hakimiyyət orqanlarına daşımalıdır. Bunun baş verəcəyinə inanıram. Ruhu saf xalqımızın iradəsi hakimiyyət olacaqsa, nə onun malına, nə də torpağına göz dikən ola bilməz. Və beləliklə Bütöv və demokratik Azərbaycan qura bilmək şansı bizim olacaq.

***Z.Məmmədli***

# Əbülfəs Qarayevin yol üstündəki kadrları...

## Keçmiş nazirin vəzifəyə gətirdiklərindən kimlər işsiz qalacaq?

***Bir çoxları Mədəniyyət naziri vəzifəsindən uzaqlaşdırılan Əbülfəs Qarayevin səlahiyyətlərinin icrasının birinci müavin postundakı Vaqif Əliyevə tapşırılacağını gözləsə də, ictimaiyyət üçün xeyli gözlənilməz sayıla biləcək qərar verildi.***

Ölkə başçısı Anar Kərimovun mədəniyyət nazirinin birinci müavini təyin edilməsi haqqında sərəncam imzalayıb. Həmçinin dövlət başçısının digər sərəncamı ilə A.Kərimov Azərbaycan Respublikasının YUNESKO yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırıldı.Bundan başqa, "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edildi və Mədəniyyət nazirinin birinci müavinlərinin sayı 2-yə çatdırılıb. Eyni zamanda mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra etmək səlahiyyətinin verilməsi barədə sərəncam açıqlandı və bu sərəncama görə həmin səlahiyyət A.Kərimova tapşırıldı.



"Unikal"a daxil olan məlumata görə, növbəti Mədəniyyət nazirinin də məhz A.Kərimov olması gözlənilir. Yeni birinci müavinin bir müddət nazirlikdə "təmizləmələr" aparması, nöqsanları ümumiləşdirib onların həll yollarını müəyyənləşdirməsi, bundan sonra Mədəniyyət naziri kimi təyinatının rəsmiləşəcəyi gözlənilir. Daha əvvəl Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) ilə bağlı da eyni yol izlənilmişdi: Hacıbala Abutalıbov bu postdan uzaqlaşdırıldıqdan sonra Eldar Əzizov birinci müavin təyin edilmiş, eyni zamanda mer səlahiyyətlərini icra etməyə başlamışdı. Bir neçə ay sonra isə BŞİH başçısı postuna təsdiqlənmişdi. Həmin bir neçə ayda isə meriyada müxtəlif kadr və struktur islahatları həyata keçirilmiş.Oxşar senarinin Mədəniyyət Nazirliyində də işləyəcəyini təxmin edən qaynağımızın deməsinə görə, qarşıdakı günlərdən etibarən Əbülfəs Qarayevin bu qurumdakı kadrlarının xeyli hissəsinin öz postları ilə vidalaşması gözlənilir. Bunlar əsasən haqlarında ciddi tənqidi fikirlərin formalaşdığı vəzifəlilər olacaq.

Görəvlərindən ayrılacaq vəzifəlilər arasında Əbülfəs Qarayevin 2018-ci ilin iyununda imzaladığı müvafiq əmrə əsasən, nazirliyin Aparatının rəhbəri təyin edilən Fikrət Babayev (əvvəllər Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət müəssisələri və xalq yaradıcılığı şöbəsinin müdiri işləyib), nazirin köməkçisi Tamerlan Axundov, eləcə də bəzi şöbə müdirlərinin adları çəkilir. Bu sırada İqtisadiyyat və planlaşdırma şöbəsinin müdiri Sima Həsənovanın, Kinematoqrafiya şöbəsinin müdiri Cahangir Məmmədovun, Maliyyə və uçot şöbəsinin müdiri İmran Mədətovun olması istisna deyil.

Xüsusilə regional idarələrin rəhbərliyində də dəyişiklik qaçılmaz görünür. Bu idarələrin bir çoxunda zaman-zaman Hesablama Palatası tərəfindən ciddi korrupsiya faktları aşkarlanıb. Məsələn, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimaiətlə əlaqələr şöbəsinin Mədəniyyət Nazirliyində keçirilən əməliyyatla bağlı yaydığı videomaterialda Şəmkir, Gəncə və Sumqayıt Regional Mədəniyyət İdarələrinin rəisləri ifadə verərək saxlanılan (hazırda barəsində həbs-qəti imkan tədbiri seçilib) nazir müavini Rafiq Bayramovun göstərişi ilə tabeliklərində olan musiqi məktəblərində müəllimlərin adlarına artıq dərs saatları yazdıqlarını, hər ay buradan yığılan 9-12 min manatlıq vəsaiti nazir müavininə çatdırdıqlarını bildiriblər.

Hər üç idarə rəisinin postlarından kənarlaşdırılması qaçılmaz görünür. Üstəlik, Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Mehman Şükürovun korrupsiya məsələsinə görə daha əvvəl də xüsusi xidmət orqanları tərəfindən dindirildiyi ortaya çıxıb. Onun 2014-cü ildə, o vaxtkı Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyat zamanı yeyinti əməllərinin üstü açılıb, belə ki,direktoru olduğu Sumqayıt Dövlət Musiqili Dram Teatrında 100-dən artıq "ölü can"ın varlığı müəyyən edilib.Bu hadisədən sonra Mehman Şükürov direktor vəzifəsindən istefa verərək daha mədəniyyət sahəsində çalışmayacağı barədə mətbuata açıqlama verib. Ancaq sonradan hansısa yolla Sumqayıt şəhər Mədəniyyət və Turizm İdarəsinin rəisi, 2018-ci ildən Sumqayıt Regional Mədəniyyət idarəsinin rəisi təyin edilib. Bundan başqa, ötən ay Hesablama Palatasının Kollegiyası müvafiq qanunvericiliyin tələblərinə uyğun olaraq, Sumqayıt Regional İdarəsi (İdarə) üzrə 2017-2018-ci illərdə büdcə vəsaitlərinin icrasının vəziyyəti ilə bağlı həyata keçirilmiş auditin nəticələri üzrə Hesabatından məlum olub ki, həmin idarədə çoxsaylı korrupsiya halları mövcuddur. Həmçinin Hesablama Palatasının 2019-cu ildə yeyintilər aşkarladığı Ağcabədi, Bərdə kimi rayonların regional mədəniyyət idarələrinin rəhbərlərinin də vəzifələrindən kənarlaşdırılacağı bildirilir. Əbülfəs Qarayevin kadrları olan həmin idarə rəisləri ilə yanaşı, mətbuatda barələrində davamlı şəkildə korrupsiya ittihamlı yazıların yer aldığı Ağstafa, Şəki kimi rayon və şəhərlərin regional mədəniyyət idarələrinin rəhbərlərinin də Mədəniyyət Nazirliyində start verilməsi gözlənilən "təmizləmə əməliyyatı"nın qurbanlarına çevrilməsi yüksək ehtimal kimi qiymətləndirilir.O da istisna deyil ki, Qarayevin bir sıra kadrları ilə bağlı təkcə vəzifədən azadetmə qərarı verilməsin, onların yeyinti, mənimsəmə əməlləri ilə bağlı hüquqi ölçü götürülməsi üçün aidiyyatı orqanlara da müraciət edilsin. Çünki Əbülfəs müəllimin dövründə adıçəkilən nazirlikdə korrupsiya dərin kök salmışdı, DTX-nin həyata keçirdiyi əməliyyatla ortaya çıxarılan korrupsiya əməlləri bunun yalnız bir qismini təşkil edir. Hesab edilir ki, Mədəniyyət Nazirliyinə yeyinti, mənimsəmə, rüşvət kimi cinayətlərin bir daha ayaq açmaması üçün hər bir korrupsiya faktına həssaslıqla yanaşılmalı, buna yol verənlər barədə sərt tədbirlər görülməlidir ki, digərlərinə ən azından dərs olsun...

***Toğrul Əliyev***

# "Bu ölkə sizə çörək verir" - Polad Bülbüloğlu



***Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu səfirliyin qarşısına toplaşan həmyerlilərimizin önündə çıxış edib.***

Unikal.org-un məlumatına görə, səfir bildirib ki, hazırda vəziyyət mürəkkəbdir:

"Heç vaxt yaddan çıxarmaq lazım deyil ki, Rusiyada yaşayırsınız və əksəriyyətiniz də Rusiya vətəndaşısınız. Bu ölkə sizə çörək verir. Təbii ki, müəyyən qüvvələr var ki, bunu heç kimdən gizlətmək olmaz. Əksəriyyətiniz gəncsiniz, oxumuş adamlarsınız sizdən gizlətmək istəmirəm, vəziyyət mürəkkəbdir. Bu qüdrətli ölkə ilə biz həmişə dost olmalıyıq. İnanıram ki, bu məsələlər öz həllini tapacaq. Bu zamanda da Ermənistan silahlanıb. Orda da onları dəstəkləyən müəyyən qüvvələr var".

***Dürrə Həsənova***

# Baş Prokurordan xaricdəki həmkarlarına müraciət



***Məlum olduğu kimi, son bir həftə ərzində Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəliklərinə qarşı, eləcə də Ermənistan silahlı qüvvələrinin bu ilin 12 iyul tarixindən etibarən Azərbaycan və Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində başlatdığı hərbi təxribatla bağlı xarici ölkələrdəki azərbaycanlı icmanın üzvləri tərəfindən keçirilən aksiyalar zamanı dinc nümayişçilərə qarşı radikal erməni qüvvələri tərəfindən təxribat xarakterli qanunsuz hərəkətlər törədilmib.***

Baş prokurorluqdan "Unikal"a daxil olan məlumata görə, baş vermiş hadisələrlə bağlı Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyev tərəfindən Amerika Birləşmiş Ştatlarının Baş Prokuroru Vilyam Barr, Kaliforniya Ştatının Baş prokuroru Xavier Beccerra, Fransanın Paris şəhərinin Baş prokuroru Remy Heitz və Belçika krallığının Brüssel şəhərinin Baş prokuroru Johan Delmulleye həm birbaşa, həm də diplomatik kanallarla rəsmi müraciət edilib.

Həmin müraciətlərdə qeyd edilib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünə yönəlmiş təcavüzkar mövqeyi ilə BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyərək münaqişənin sülh yolu ilə həll olunmasına suni əngəllər törədir. Habelə terrorçu siyasətinin təzahürü kimi bu ilin iyulun 12-də Azərbaycanla Ermənistanın sərhədində yerləşən Tovuzda təxribat törətmiş, o cümlədən beynəlxalq hüququn əsas norma və prinsiplərinə zidd olaraq mülki dinc əhalinin sıx yaşadığı əraziləri atəşə tutub.

Eyni zamanda göstərilib ki, iyulun 21 və 22-si erməni icmasının çox saylı üzvləri, erməni lobbisinin radikalları, Daşnaksütun partiyasının üzvləri, habelə beynəlxalq aləmdə terror qrupu kimi tanınan ASALA-nın ideoloji tərəfdaşları və davamçıları Azərbaycanın diplomatik nümayəndəliklərinə, o cümlədən həmvətənlilərimizə qarşı müxtəlif vandalizm aktları törədiblər. Nəticədə azərbaycanlı dinc nümayişçilər müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Baş Prokuror diplomatik nümayəndələrimizin və həmsoydaşlarımızın təhlükəsizliklərinin təmin edilməsini xahiş etməklə, baş vermiş hadisələrlə bağlı qeyd edilən ölkələrin hüquq-mühafizə orqanları tərəfindən hərtərəfli, tam və obyektiv araşdırmalar aparılacağına və təqsirkar şəxslərin dairəsinin müəyyən edilməklə məsuliyyətə cəlb olunacaqlarına ümidvar olduğunu bildirib.

***Famil***

# Koronavirusa yoluxan icra başçısı və müavinindən xəbər var



***Azərbaycanda icra başçısı və müavini koronavirusdan sağalıb.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, onun birinci müavini Ceyhun Həsənov müalicəsini bitirib. Hər iki şəxs artıq fəaliyyətlərini davam etdirir.

# Azərbaycana qarşı yeni təxribat oyunu qurulub

## Ermənilərin daha sıx məskunlaşdığı şəhərlərdə Azərbaycanın diplomatik nümayəndəliklərinə və soydaşlarımıza qarşı hücum və təxribatlara əl atılır

***Son bir neçə gün ərzində ermənilər azərbaycanlıların Avropada Qarabağ həqiqətlərinin yayılması və ordumuza dəstək aksiyalarını pozaraq təxribatçı hərəkətlərə yol verirlər. Bundan əlavə, bəzi soydaşlarımıza qarşı fiziki zorakılıq edərək, həmin videoları sosial şəbəkələrdə paylaşırlar. Amerikada və bir sıra Avropa ölkələrində baş verən bu hadisələr ciddi narahatlıq yaratmağa başlayıb.***

Belə ki, Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Örl Litzenberqer Azərbaycan Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb və Xarici İşlər Nazirinin müavini Xələf Xələfovla görüş keçirilib.Bu barədə "Unikal"a XİN Mətbuat xidməti idarəsindən məlumat verilib.Görüşdə X.Xələfov ilk olaraq Ermənistanın Azərbaycan-Ermənistan sərhədində həyata keçirdiyi hərbi təxribat ilə bağlı qarşı tərəfə məlumat verib.Nazir müavini, ermənilərin sərhəddə törədikləri təxribatın Azərbaycan silahlı qüvvələri tərəfindən iflasa uğradılmasından sonra militarist erməni hakimiyyətinin işğalçı siyasətini gizlətmək üçün dünyanın müxtəlif ölkələrinin əsasən ermənilərin daha sıx məskunlaşdığı şəhərlərində Azərbaycanın diplomatik nümayəndəliklərinə və soydaşlarımıza qarşı hücum və təxribatlara əl atdığını diqqətə çatdırıb.X.Xələfov bildirib ki, belə təxribatlardan bir neçəsi məhz ABŞ-da həyata keçirilib. 21 iyul tarixində Azərbaycanın Vaşinqtonda yerləşən Səfirliyinin giriş darvazasına naməlum şəxslər tərəfindən üzərində Azərbaycan əleyhinə yazıları əks etdirən baner bağlanıb və erməni media, mətbuat vasitələrində nümayiş etdirilib.Nazir müavini, ermənilərin daha bir təxribat və hücum əməlinin Los Anceles şəhərində baş verdiyini, erməni radikal qruplarının Azərbaycan Respublikasının Los Anceles şəhərindəki Baş Konsulluğunun yerləşdiyi binanı əhatəyə alaraq Azərbaycana qarşı aqressiv formada təxribatçı şüarlarla müşayiət olunan etiraz aksiyası keçirdiyini bildirib. Aqressiv erməni nümayişçilərin Baş Konsulluğun önündə dinc aksiya keçirən və sayca onlardan qat-qat az olan Azərbaycan icması üzvlərinə hücum etdiyi və bir qadın olmaqla yeddi nəfər Azərbaycanlının müxtəlif dərəcəli bədən xəsarətləri aldığı qeyd olunub.

X.Xələfov qeyd edib ki, ABŞ-da Azərbaycan Baş Konsulluğu qarşısında dinc aksiya üçün yığışmış Azərbaycan icması nümayəndələrinə aqressiv erməni kütləsi tərəfindən edilən hücumun ABŞ polisi tərəfindən qarşısının alınmaması məyusedici haldır.Nazir müavini əlavə edib ki, milli mənsubiyyətinə görə günahsız vətənpərvər Azərbaycanlılara erməni radikal qrupları tərəfindən polis qüvvələrinin gözü qarşısında hücum edilərək xəsarət yetirilməsi ABŞ-ın nüfuzuna xələl gətirir. Azərbaycan tərəfinin buna qəti etirazını bildirdiyini və öz qanuni vəzifələrini yerinə yetirməyənləri qınadığını deyən X.Xələfov, ABŞ hökumətindən bu cinayətləri törətmiş erməni radikal birləşmələrinin məsuliyyətə cəlb edilməsinin və bu təxribat hadisələrinə hüquqi qiymət verilməsinin tələb edildiyini diqqətə çatdırıb.

X.Xələfov, Səfirlik və Baş Konsulluğumuzun toxunulmazlığı və fəaliyyətinin təhlükəsizliyinin pozulması ilə müşayiət olunan hadisələrin araşdırılmalı olduğunu və təxribat törədənlərin hərəkətlərinə hüquqi qiymət verilməsinin vacibliyini vurğulayıb.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri Örl Litzenberqer qeyd edilən məsələlərlə bağlı məlumatlı olduğunu, baş verən hadisələrdən dolayı dərin təəssüf hissi keçirdiyini bildirib. Los Ancelesdə baş verən təxribatla bağlı danışan səfir, bunun bilavasitə aqressiv erməni




nümayişçilər tərəfindən həyata keçirildiyinə dair təkzibedilməz sübutların mövcud olduğunu və dinc aksiya üçün oraya yığışmış azərbaycanlılara qarşı sayca daha çox olan ermənilər tərəfindən edilmiş hücuma bərəət qazandırmağın mümkünsüzlüyünü diqqətə çatdırıb. Örl Litzenberqer, ölkəsində dinc şəkildə söz azadlığı hüququnun dəstəkləndiyini, lakin ermənilərin Los Ancelesdə həyata keçirdiyi aksiyanın qaraguruhdan ibarət olduğunu qeyd edib. Səfir, bunun qəbuledilməz və ABŞ ərazisində baş verməməli bir hal olduğunu ifadə edib.Səfir, Los Ancelesin yerli hüquq mühafizə orqanları rəhbərliyinin baş vermiş erməni təxribatı və onun qarşısının alına bilməməsindən dolayı üzrxahlıq etdiyini, məsələ ilə bağlı araşdırmaların aparılacağını və müvafiq tədbirlərin görüləcəyini qeyd edib.Sonda Örl Litzenberqer görüşdə qaldırılan məsələlərin, o cümlədən Azərbaycanın ABŞ-dakı diplomatik nümayəndəliklərinin təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi məsələsinin rəsmi Vaşinqton qarşısında qaldıracağını ifadə edib.

"Unikal" qəzeti baş verən hadisələrlə bağlı siyasilərin mövqeyini öyrənib.

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa deyib ki, dünya ölkələri dini mənsubiyyətindən asılı olmayaraq Ermənistan-Azərbaycan münaqişəsində həqiqətin tərəfində olmalıdır. Onun fikrincə, Azərbaycanın diplomatik korpusu ciddi iş aparmalıdır: "Ərəb ölkələrindən tutmuş digər müsəlman dövlətlərə qədər hamısı ilə çevik münasibətlərin qurulmasına çalışılmalıdır. Onların real dəstəyini qazanmaq əlbəttə ki, Azərbaycan üçün avantajdır.Amma bir məqamı qeyd edim ki, bu məsələdə təkcə müsəlman ölkələrindən söhbət getmir. Əgər din amili öndə olsaydı, o zaman gərək İran Ermənistana dəstək verməsin. Nəzərə almaq lazımdır ki, Azərbaycanda kafaca İrana yaxın şəxslər var. Ermənistanın hərbi təcavüzü nəticəsində onların da qohumu, qardaşı şəhid ola bilər. Ən azı İran bunu nəzərə alaraq Ermənistana dəstək verməyə bilərdi. Amma dəstək verirsə, deməli, din amili, müsəlman birliyi məsələsi siyasi maraqların arxasına keçir. Mənim fikrimcə, dini mənsubiyyətindən asılı olmayaraq Azərbaycanla səmimi şəkildə yaxınlıq edən bütün ölkələrlə bu məsələni müzakirə etmək olar".

Millət vəkili onu da qeyd edib ki, bir neçə cavab qisas əməliyyatından sonra dərinə getmək olmaz. Onun sözlərinə görə, imkan daxilində hüquqi çərçivədən kənara çıxılmamalıdır:"İndi əsas atılacaq addım qardaş Türkiyə dövlətindən gəlməlidir. Avropada və ABŞ-da, eləcə də dünyanın başqa yerlərində bütün dövlətlə əlaqəsi olan türk birliklərinə azərbaycanlılarla birlikdə hərəkət etmək, dinc tədbirlərə birlikdə qatılmaq tapşırığı verilməlidir. Bunu qardaş Türkiyə rəhbərliyindən təcili xahiş etməliyik. Siyasi baxışlarından asılı olmayaraq bütün fəal azərbaycanlıların bir-biri ilə sıx kontaktını yaratmalıyıq. Xüsusilə də Rusiyada toqquşmaya getməkdən çəkinməliyik. Hökumətə bəhanə verib soydaşlarımızın sıxışdırılması üçün zəmin hazırlamaq olmaz. Hüquqi yollarla zorakılıq tətbiq edənlərin cəzalandırılmasına çalışmaq və onların törətdikləri vəhşilikləri beynəlxalq media quruluşlarında tirajlamaq lazımdır. Bir neçə cavab təpikləri lazım idi, ancaq yenə də diplomatiyaya dönməliyik, xarici ölkələrdə mövqelərimizin itirilməsinə imkan verməmək olmaz. Bu dəfə tədbirlərdə onlardan çox olaq ki, hücum etməyə cəsarətləri olmasın. Buna imkanımız var, lakin birliyimiz yoxdur. İndi bütün enejimizi bu birliyin mümkün yollarını tapmağa yönəltməliyik".

Milli Məclisin deputatı Erkin Qədirli isə bildirib ki, ermənilərin xaricdəki etirazçılarımıza hücumları, toplaşmaq azadlıqlarından yararlanan dinc soydaşlarımızı döyməlari, özü də bunu demokratik ölkələrdə etmələri, "ermənilər demokratik olmayan Azərbaycanda yaşamaq istəmirlər", "öz soydaşlarının haqlarını pozan hökumət erməniləri necə qoruya biləcək" sayağı arqumentlərin nə dərəcədə yersiz və boş olduğunu aydın göstərdi: " Əslində, anlayanlar üçün bu arqumentlər heç zaman tutarlı olmayıb. Sadəcə, onlara sadəlövhcəsinə inananlar var deyə yazdım. Ermənilərin bizdən istədikləri demokratiya deyil, torpaqdır. Başlanğıcdan belə olub. Demokratiya önəmlidir, onu qurmalıyıq. Burası öz yerində. Amma demokratiya ilə Qarabağın qaytarılması arasında bağlantı qurmamalıyıq. Bunlar iki və ayrı strateji məqsədlərdir.Xaricdə baş verənlər məhz ermənilərin barışa hazır olmadıqlarını, barışı istəmədiklərini göstərdi. Bu, yaxşı oldu. Bundan sonra xaricdəki çevrələrə bunu anlatmaq asanlaşacaq. Dahası var. Biz münaqişənin ərazi münaqişəsi olduğunu deyirdik, düz də edirdik. Ermənilər isə göstərdilər ki, onlar üçün bu, etnik münaqişədir. Bu da yaxşı oldu. Xaricdəkilərə mövqeyimizi anlatmaq üçün əlimizə əlavə arqumentlər keçdi. İşləmək lazımdır. Təmkinlə! Yaxşı işlər yavaş görülür".

Ümid Partiyasının sədri İqbal Ağazadə isə bildirib ki, bu hadisə genişmiqyaslı təxribatdır və burada diqqətli olmaq lazımdır: "Loc-Ancelesdə, Brüsseldə ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşilikdən sonra Rusiyada da analoji hadisə təkrarlandı. Ermənilər azərbaycanlını döyərək video çəkiliş edib sosial şəbəkələrdə yaydılar.Bu gecə buna cavab olaraq Rusiyanın bir sıra şəhərlərində azərbaycanlılar baş verən hadisələrə cavab məqsədilə emosional addımlar atıblar.Rusiyada yaşayan soydaşlarımıza müraciət edirəm: Əziz həmvətənlərim, dəyərli qardaşlarım! Ermənistanın təcavüzkar siyasətinin durdurulmasına qarşı dünyanın hər yerində göstərdiyimiz milli birliyimiz düşmənlərimizi də ciddi narahat edir. Haqq işimizdə bizə dəstək vermək istəyən başqa millətlərin də sayı günbəgün artır. Belə məqamda təxribat törədərək bizi qarşıdurmaya çəkmək istəyən xüsusi qüvvələr var və olacaq.Sizi bu təxribatlar vasitəsilə qeyri-qanuni müstəviyə çəkməklə həyatınızı, əmlakınızı, iş yerlərinizi təhlükə altında qoyub zəifləmək məqsədi güdürlər, birliyimizi pozmağa, bizi dinc müstəvidən savaş müstəvisinə çıxarmaqla haqlı işimizi haqsız göstərməyə çalışırlar.Bu sizlərə, xalqımıza qarşı böyük təxribatdır. Heç kimin emosional çağırışlarına uymayın. Mən hamının yanğısını, nifrətini anlayıram. Lakin bu çıxış yolu, problemin həlli variantı deyil. Müharibə orda getmir, siz orda hansı qeyrət, güc göstərseniz də Qarabağda heç nə dəyişməyəcək. Savaş Qarabağda olacaq. Siz yaşadığınız yerlərdə bizim haqq işimizi müdafiə edən digər millətlərin sayını artırın, xalqımıza qarşı sevgi formalaşdırın. İmkanlarınız güclü, münasibətləriniz hüquqi olsun. Hamınızı bu təxribatlara uymamağa, olduğunuz yerlərdə qeyri-qanuni addımlar atmamağa, gücünüzü Qarabağda başlayacaq son döyüşə saxlamağa səsləyirəm".

***Z.Məmmədli***

# Azərbaycanda 500 milyon manata yaxın biznes krediti üçün müraciət olunub - Nazirlik



***Məlumat verildiyi kimi, kredit-zəmanət mexanizmi çərçivəsində yeni biznes kreditlərinin verilməsi məqsədilə müraciətlərin onlayn rejimdə qəbul edilməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən Elektron Kredit Platforması (www.e-edf.gov.az) yaradılıb və 30 iyun tarixindən sahibkarların istifadəsinə verilib. Hazırda kredit sifarişlərinə qısa zaman ərzində baxılması, müraciətlərin qəbulu, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu və kredit təşkilatları tərəfindən təhlillərin aparılması və qərarların sahibkarlara çatdırılması ilk dəfə tətbiq olunan bu platforma vasitəsilə həyata keçirilir.***

İqtisadiyyat Nazirliyindən Modern.az-a verilən məlumata görə, 22 iyul tarixinədək Elektron Kredit Platforması üzərindən yeni biznes krediti sifarişi 495 milyon manat olan 1447 müraciət daxil olub: "Artıq bir sıra müraciətlərə baxılıb və 46 müraciət üzrə ümumi həcmi 5.6 milyon manat olan kreditlərin ayrılması barədə qərarlar qəbul edilib. Hazırda digər müraciətlərə baxılır və müəyyən olunmuş müddətdə (sürətli və ənənəvi kreditlər üzrə müvafiq olaraq 7 və 10 iş günü ərzində) nəticələr barədə sahibkarlara platforma vasitəsilə məlumat veriləcək".

Rəsmi məlumata görə, biznes kreditlərinin Elektron Kredit Platforması vasitəsilə verilməsi sahibkarlar üçün bir sıra üstünlüklər yaradır: "Belə ki, sahibkarlar kredit üçün onlayn rejimdə müraciət edir, onların müraciətlərinə İqtisadiyyat Nazirliyində və müvəkkil kredit təşkilatlarında eyni vaxtda baxılır, eləcə də müraciətlərin statusunun real vaxt rejimində izlənməsi imkanı yaradılır. Elektron Kredit Platformasının tətbiqi ilə həmçinin, kreditlərin əldə olunmasında çeviklik və şəffaflıq, sahibkarlar üçün bərabər şərait təmin edilir, sağlam rəqabət mühiti formalaşdırılır, sahibkarların kreditlərə çıxış imkanları genişləndirilir, vaxta və xərclərə qənaət olunur".

Qeyd edilib ki, bu gündən etibarən Elektron Kredit Platformasında sahibkarlar üçün əlavə olaraq yeni bir imkan da yaradılıb: "Belə ki, artıq sahibkarlar biznes kreditlərinin alınması üçün 3 kredit təşkilatını seçə və eyni vaxtda 3 kredit təşkilatına müraciət edə bilərlər. Bu isə, sahibkarların kreditlərə çıxış imkanlarını daha da artırmaqla yanaşı, kredit təşkilatları arasında sağlam rəqabət mühitinin formalaşmasına müsbət təsirini göstərəcək".

Qeyd edək ki, biznes kreditlərinə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizminə əsasən, 500 milyon manat həcmində yeni biznes krediti portfelinin 60%-dək hissəsinə dövlət zəmanəti verilir, həmçinin həmin kreditlərin illik faiz dərəcəsinin 50%-i dövlət tərəfindən maliyyələşdirilir. Bu mexanizm müddəti 3 ilədək, illik faiz dərəcəsi 15%-dən çox olmayan kreditlərə şamil edilir. Bu kreditlər üzrə güzəşt müddəti 12 aya qədərdir. Güzəşt müddətində sahibkarlıq subyekti yalnız faiz borcunu ödəməlidir.

Sahibkarlar aldıqları kreditləri təyinatı üzrə istifadə etməli və digər kredit öhdəliklərinin bağlanmasına yönəltməməlidirlər.

# Patriarx Kirill Azərbaycan və Ermənistanı dialoqa çağırdı

***Moskva və bütün Rus Patriarxı Kirill Ermənistan-Azərbaycan münaqişəsi tərəflərini dialoqa çağırıb.***

Unikal.org xəbər verir ki, Rus Pravoslav Kilsəsinin rəsmi saytında yayımlanan açıqlamada patriarx hər dəfə vəziyyətin kəskinləşməsini şəxsi ağrısı kimi qəbul etdiyini dilə gətirib.

"12 iyul 2020-ci il tarixində Ermənistan-Azərbaycan sərhədində yenidən silahlı qarşıdurma başlanıb və bu da hər iki tərəfdən insan tələfatına səbəb olub.

Əsrlər boyu yan-yana yaşayan xalqların qarşıdurması 33-cü ildir davam edir. 1989-cu ildən bu münaqişəni sülh yolu ilə həll etmək üçün daim işlərdə iştirak edirəm.

Ermənistan və Azərbaycanın dini icmaları belə dialoqun qurulmasında təcrübə qazanıblar və hazırda dialoqa çox



böyük tələbatat var. Sizi Qafqazdakı artan gərginlikdən bəhrələnən qüvvələrin istəklərinə əməl etməməyə çağırıram. Qafqazda yeni müharibə istəristəməz bölgəni uzun müddət sülh və əmin-amanlıqdan məhrum edəcək hər cür terrorçu və ekstremisti cəlb edəcək", - açıqlamada deyilir.

"Rus Pravoslav Kilsəsinin Qarabağ münaqişəsinin həllində üçtərəfli dialoq şəraitində uzunmüddətli sülhməramlı fəaliyyəti mənə Azərbaycanın və Ermənistanın dini liderlərinə müraciət etməyə imkan verir. Sizdən xahiş edirəm, əziz qardaşlar, görüşlərimizdə əldə etdiyimiz nailiyyətləri qoruyub saxlayaq", - Patriarx Kirill deyib.

Onun sözlərinə görə, Rus Pravoslav Kilsəsi münaqişənin ən qısa zamanda sona çatması üçün dua edir: "Ümid edirik ki, bizə qardaş olan Ermənistan və Azərbaycan xalqları düşmənçiliyi dayandırmaq, etimadsızlıq səviyyəsini azaltmaq və fikir ayrılığı yaradan problemlərin qarşılıqlı məqbul həll yolları ilə nizamlanması üçün özlərində güc və müdriklik tapacaqlar".

# Prezidentin məmurlara qarşı hədsiz humanizm və səbri geridə qalıb

## Zahid Oruc: "Hesab edirəm ki, Prrzident İlham Əliyev tərəfindən qurulan yeni hakimiyyətin fəlsəfəsi, ideologiyası məhz bundan ibarətdir"



***Müşahidələrə görə, son zamanlar ölkədə yaşanan hansısa problemi ona cavabdeh qurum həll etmir, yaxud da həll etməyə çalışmır. Yanğın olur Prezident məsələ qaldırır, evləri su basır Prezident işə qarışır, su qıtlığı yaranır yenə Prezident...***

Bəs aidiyyatı qurumlar, nazirlər, yüzlərlə ştata sahib icra orqanları hara baxır, nə işlə ilə məşğuldurlar? Yalnız elə dövlət büdcəsindən ayrılan vəsaiti çapıb-talamaqla?...

Mövzu ilə bağlı Modern.az-ın sualını cavablandıran Milli Məclisin deputatı, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc işini yerinə yetirə bilməyən məmurlara Prezidentin iş qrafikini misal çəkib: "Son aylarda Prezidentin iş qrafikinə diqqət yetirsəniz, görərsiniz ki, beynəlxalq platformalarda Azərbaycan mənafeələrinin davası aparılır. Bu yetərincə nüfuz, əlaqələr, diplomatik razılaşmalar və s. tələb edir. Digər tərəfdən, Azərbaycan hazırkı dünyəvi pandemiyanın gələcək nəticələrindən qorunmaq üçün ucuz maliyyə mənbələrinin axtarışlarını davam etdirir. Paralel şəkildə Azərbaycan daxildə məlum sosial-iqtisadi itkiləri yaşamağına rəğmən, ölkənin polis, səhiyyə sistemi, dövlət idarəetmə orqanları bəşəri təhlükəyə səfərbər olduğu bir dövrdə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatının durdurulması yönündə də mübarizə aparır.

Biz dərk etməliyik ki, ölkə rəhbəri artıq komanda üzvlərinə əvvəlki illərdən fərqli olaraq, daha sərt, daha güzəştsiz yanaşmanı ortaya qoyub. Bu çox önəmli məsələdir. Hökumətdə və dövlət idarəetməsinin bütün qollarında dəyişikliklər və yenilənmə gedir. Hamı başa düşməlidir ki, burada hansısa gözləmə mövqeyi, seyirçi münasibət, səmərəsiz xərcləmələrə, itkilərə dözümlü davranışlar, hətta ölkə rəhbərinin dediyi kimi "olmadığı halda bu itkiləri yaratmaq", "yerdə qalan vəziyyətdə ondan faydalanmaq", "su kimi müqəddəsə çirkab qatmaq" ciddi cəzalara səbəb olacaq. Buna heç kimin şübhəsi olmasın. Biz bir neçə gün ərzində dövlət rəhbərinin həm də Ali Baş Komandan kimi qətiyyətini, sərtliyini görməkdəyik".

Z.Oruc deyib ki, dünənki müşavirədə verilən hər bir mesaj ümumxalq istəyinin carçısı idi: ""Nədir, gözləyirsiniz ki, səhralaşma getsin, ondan sonra hərəkət eliyəsiz", "Mən bu məsələyə qayıtmasaydım, üzərində durulmasaydı, siz bunu etməyəcəkdiz?", "Axı siz mənə başqa raportlar verirdiniz"... Prezidentin dilindən səslənən belə sitatların sayını çoxalda bilərəm. Gerçəkdən də ölkə rəhbərinin səriştəsi, müdrikliyi, peşəkar yanaşması Azərbaycanı öz varlığı kimi istəməsi, onun hər bir qarış ərazisinə dəyər, qiymət verməsi hər əməlində hiss olunur. Bir tərəfdə şoranlaşma, bir tərəfdə qrunt sularının yaratdığı fəsadlar, o biri tərəfdə quraqlıqdan yaranan problemlər. Əgər kimsə növbəti dövrlərdə problemlərlə birgə, onları həll etmədən ömür sürmək, vəzifədə qalmaq mümkün olacağını düşünürsə, səhv edir, bu, əsla belə olmayacaq.

Cənab Prezidentin də bildirdiyi kimi, müşavirə açıq formada ona görə keçirilir ki, insanlar öz mövqelərini burada göstərsinlər. Yeri gəlmişkən cəmiyyətin rəyi, düşüncələri idarəetmədə nəzərə alındıqca, məmur məsuliyyətini müəyyən edir. Məhz bu səbəbdən cənab Prezident dedi ki, "mətbuat konfransları keçirin, cəmiyyətlə görüşlərdə olun, insanların fikirlərini öyrənin, medianı yanınıza çağırın, onlarla görüşün, üçüncü sektor təmsilçilərini qəbul edin, hər birindən faydalanın".

Bundan əvvəl də ölkənin real təhlükəsizliyinə qəsd edildiyi zamanı cənab Prezident söylədi ki, "mən bütün məsələləri xalqla məsləhətləşirəm, biz xalqın hakimiyyətini qurmuşuq, xalqın hakimiyyətini təmsil edirik". Ona görə də bu məsələdə hamı başa düşməlidir ki, güzəşt dövrü bitib. Zamanında ölkə rəhbərinin nümayiş etdirdi hədsiz humanizmi və səbri arxada qalıb. Çünki o zaman ölkənin birinci şəxsi strateji məsələlərə köklənmişdi, ölkənin beynəlxalq miqyasda dövlətlərarası qayğılarını həll etməkdə idi. İndi daxilə yönələn kimi kadrların məsuliyyəti dövlətin təhlükəsiz həyatı üçün ən vacib yerə çatıbdır.

Qollarını çırmayıb vəzifə tutmağa çalışan adamlar əvvəlki illərdən fərqli olaraq, xeyli dərəcədə özlərinə sual verməlidirlər ki, "mən bu işə hazırammı", "bir neçə müddətdən sonra cənab Prezident qarşısında necə cavab verəcəm". Bütün bunlar çox vacib dəyişikliklərdir. Hesab edirəm ki, Prrzident İlham Əliyev tərəfindən qurulan yeni hakimiyyətin fəlsəfəsi, ideologiyası məhz bundan ibarətdir".

# Hikmət Hacıyevdən Kanadanın hüquq-mühafizə orqanlarına müraciət



***Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Kanadanın "CTV News" televiziya kanalına müsahibə verib.***

"Unikal" xəbər verir ki, Sovet İttifaqının dağılmasından sonra Azərbaycanın Ermənistanın hərbi təcavüzündən əziyyət çəkdiyini bildirən H.Hacıyev ərazilərimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğunu və işğal olunmuş ərazilərimizdə etnik təmizləmənin həyata keçirildiyini diqqətə çatdırıb.

ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətinə toxunan H.Hacıyev münaqişənin həlli istiqamətində nəzərəçarpacaq nəticələrin olmadığını və münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərin toxunulmazlığı, eləcə də azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması əsasında həllinin zəruriliyini vurğulayıb.

Ermənistanın Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində son hərbi təxribatına toxunan H.Hacıyev Ermənistan silahlı qüvvələrinin artileriyadan istifadə edərək Azərbaycan mövqelərinə atəş açdığını və hərbçilərimizin həlak olduğunu, habelə məqsədyönlü şəkildə Azərbaycanın yaşayış məntəqələrini və mülki insanları hədəfə aldığını söyləyib.

Prezidentin köməkçisi Ermənistanın bu hücumu törətməkdə məqsədinin həmin ərazidən keçən Şərq-Qərb dəhlizi və Azərbaycanın neft-qaz kəmərlərinə təhlükə yaratmaq olduğunu bildirib. Azərbaycanın sərhəd zonasında hərbi məqsədlərinin olmadığını bildirən H.Hacıyev ölkəmizin münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq həllinə çalışdığını qeyd edib.

Metsamor Atom Elektrik Stansiyasının (AES) fəaliyyətinə toxunan H.Hacıyev sözügedən stansiyanın dünyada Çernobıl texnologiyasının istifadə olunduğu yeganə AES olduğunu bildirib. Köhnəlmiş texnologiyaların istifadə olunduğu AES-in region üçün təhlükə olduğunu söyləyən H.Hacıyev Metsomorun radioaktiv maddələrin qaçaqmalçılığı üçün bir vasitəyə çevrildiyini xüsusilə vurğulayıb.

Eyni zamanda, Kanadada yaşayan azərbaycanlılara və Kanadanın hüquq-mühafizə orqanlarına müraciət edərək erməni lobbi qruplarının Los-Anceles, Paris və Brüsseldə azərbaycanlılara hücum etdiyini və erməni terror təşkilatlarının azərbaycanlılara hücum edə biləcəyindən onları ayıq olmağa çağırıb.

***Nigar***

# Bir rayondan digərinə keçən şəxslər cərimələndi



***Bərdə Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində karantin qaydalarını pozaraq, Ağcabədi rayonundan Bərdə rayonunun ərazisinə keçən şəxslər aşkar edilib.***

DİN Mətbuat xidmətinin Bərdə regional qrupundan Unikal.org-verilən məlumata görə, polis əməkdaşlarının bu istiqamətdə keçirdiyi tədbirlər nəticəsində Ağcabədi rayon sakini S.Səfərov idarə etdiyi avtomaşınla kənd yolları ilə Bərdə rayonu ərazisinə keçərkən, sərnişinləri - M.Quliyev və İ.Heydərovla birgə saxlanılıb.

Saxlanılan hər üç şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib və onlara ciddi xəbərdarlıq olunub.

# Azərbaycanı unudan azərbaycanlı oliqarxlar...

## Çoxlu pullarından xalqımızın haqq işinə qıymayanlar haqqında bir neçə vacib söz!

***Ermənistanın təxribatı nəticəsində iyulun 12-dən etibarən Azərbaycanın Tovuz rayonu istiqamətində hərbi gərginlik yaşanır. Son günlərdə bu gərginlik səngisə də, yaşananlardan sonra cəmiyyətdə müxtəlif səpkili müzakirələr davam etməkdədir. Bunlardan biri də ölkəmizdən kənarda yaşayan və böyük sərvətə malik iş adamlarının vətənin çətin günlərində lazımi dərəcədə həssaslıq nümayiş etdirməmələridir.***

Yola saldığımız həftə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvüVahid Əhmədov Rusiyada fəaliyyət göstərən iş adamlarına müraciət etdi. Sitat: "Bu gün Qod Nisanov, İlham Rəhimovla danışdım. Onların Rusiya bazarında erməniləri sıxışdırması təqdirəlayiqdir, hazırkı vəziyyətdə ermənilərin malları əllərində qalıb, onu sata bimirlər. Rusiyada çalışan bütün biznesmenlərimizə müraciət edərək, xahiş edirəm ki, İlham Rəhimov, Qod Nisanovun atdığı addımlara dəstək olsunlar. Hər yerdə erməninin ixrac etdiyi məhsulları blokadaya salıb, onlara ziyan vurmaq lazımdır. Bölgədə vəziyyət gərgindir. Ermənistan isə bu gərginliyi yaradan dövlətin oyuncağıdır, onun istədiyi kimi hərəkət edir. Amma məsələ bu cür davam edə bilməz..."



Xatırladaq ki, Ermənistan hərbi birləşmələrinin sərhəddə törətdikləri təxribatdan sonra Moskvada və Rusiyanın başqa iri şəhərlərində yaşayan azərbaycanlı biznesmenlər ermənilərlə ticarətdən imtina ediblər.Moskvanın ən böyük meyvə-tərəvəz bazarı sayılan "Fud siti"də çalışan azərbaycanlılar ermənilərdən ərik, gilas, gilənar kimi tezxarab olan mövsüm gilemeyvələrin alışını dayandırıblar.

Bunun nəticəsində ermənilərin bütün malları əllərində qalıb. Böyük yük maşınları ilə dolu mallar tullantıya çevrilib. Bu qeyri-rəsmi sanksiyanın genişlənəcəyi, ölkənin digər regonlarında da tətbiq ediləcəyi gözlənilir.

Qeyd edək ki, "Fud siti" azərbaycanlı iş adamları Qod Nisanova və İlham Rəhimova məxsusdur.Qeyd edək ki, Rusiya başda olmaqla bir çox xarici ölkələrdə kifayət qədər azərbaycanlı milyonçu, böyük sərvətə sahib oliqarx var. Ancaq erməni əsilli varlılarla müqayisədə onlar milli məsələmiz olan Qarabağın işğalı, Ermənistanın torpaqlarımıza təcavüzü mövzusunda yetərincə həssaslıq nümayiş etdirmir, maddi və mənəvi dəstəklə çıxış etmirlər. Əlbəttə, Tovuzda baş verənlərdən sonra Nisanov və Rəhimovun atdığı addımlar təqdirəlayiqdir; lakin fakt budur ki, biz belə addımların atılmasını çoxdan gözləyirdik, üstəlik, onların miqyasının genişlənməsinə də ciddi ehtiyac var. Bir neçə il əvvəl - 2015-ci ildə erməni milyarder Kirk Kerkoryan ABŞ-da 98 yaşında vəfat edib. O, Beverli-Hillsin ən varlı adamlarından biri sayılırdı. 2015-ci il üçün onun sərvəti 3,6 milyard dollar həcmində qiymətləndirilib. K.Kerkoryanın təsis etdiyi "Linsi" Fondu 1989-ci ildən 2011-ci ilədək fəaliyyət göstərib. Fondun xətti ilə Ermənistana və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionundakı oyuncaq rejimə 22 il ərzində 1 milyard dollardan çox vəsait verilib.

K.Kerkoryanın əsas gəlirini "MGM Grand" şirkətindən götürdüyü qazanc təşkil edirdi. O, 2000-ci ildə 6,4 milyard dollara "Mirage Resort", 2004-cü ildə isə 4,8 milyard dollara "Mandalay Resort Group" şirkətlərini satın aldıqdan sonra "MGM Grand" "MGM Resorts International" şirkətinə çevrilib. Şirkət "Bellagio" və "Mandalay Bay" kimi tanınmış kazinoların operatorudur.

Azərbaycanın Dağlıq Qarabağ regionunun Ermənistan tərəfindən zəbt edilməsi və işğal altında saxlanması, Azərbaycana qarşı elan olunmamış müharibə aparılması üçün əsas maliyyə vəsaiti xaricdəki erməni diasporunun, o cümlədən Kirk Kerkoryan kimi varlı ermənilərin ianələri hesabına təmin olunub.

Sual meydana çıxır: bizim də ölkədən kənarda kifayət qədər milyarderimiz var; azərbaycan əsilli bu oliqarxların bir çoxunun adına hətta məşhur "Forbes" dərgisinin siyahısında rast gəlirik (məsələn, bu jurnalın Rusiyadakı versiyası ölkənin 200 ən varlı biznesmeninin 2017-ci il üzrə illik reytinq siyahısında 5 Azərbaycan əsilli milyarderin də adı vardı; bunlardan Vahid Ələkbərov, Araz Ağalarov, Fərhad Əhmədov, Fərhad İsmayılovun adlarını çəkə bilərik...), lakin niyə onların Qarabağ məsələsində Azərbaycanın haqq işinə Kirk Kerkoryanların erməni separatizminə verdikləri dəstək qədər açıq, sistemli, plan-proqramlı dəstəyindən danışmaq olmur? Erməni oliqarxlar işğalçı siyasətə böyük pullar xərcləyərkən, bizim milyonçular, milyarderlər nə üçün bu işğalçı siyasətə qarşı əllərindən gələn köməyi göstərməkdə həvəsli görünmürlər?

"AST Telman" ləqəbli bir oliqarxımız vardı: Telman İsmayılov. Pulunu, necə deyərlər, "balta kəsmirdi". Sərvətini dünya şoubiznesinin parlaq nümayəndələrinə səxavətlə xərcləyir, onları fantastik məbləğlərlə ad günlərinə çağırır, lakin eyni səxavəti mənsub olduğu xalqın Qarabağ uğrunda haqlı müabrizəsinə dəstək baxımından nümayiş etdirməyə can çəkirdi. İndi müflisləşib, əvvəlki var-dövlətindən əsər-əlamət qalmayıb və əksəriyyət tərəfindən də unudulub. Halbuki Azərbaycanın milli davasına dəstək göstərmiş olsaydı, bir zamanlarkı sərvəti əlindən çıxsa belə, yenə də hamımız tərəfindən ehtiramla xatırlanardı.

Kimsə yaddan çıxarmamalıdır ki, var-dövlət gəldi-gedərdir, lakin onun az da olsa bir hissəsini öz ölkənin, xalqının haqlı müabrizəsinə, çətin gündə yardımına xərcləmək kifayətdir ki, qazanacağın hörmət, sevgi, ehtiram əbədi yaşasın...

***Sənan Mirzə***

# Yasamalda "İbrahim Mehdiyev ənənələri"...

## Paytaxt rayonunda yeni ekoloji qalmaqal yaşanır

***Yola saldığımız həftə yerli medianın yazdığına görə, Bakı şəhəri Yasamal rayonu, Həsən bəy Zərdabi və Akim Abbasov küçələrinin kəsişməsində, "Üç Tac" yaşayış kompleksinin yaxınlığında yerləşən kiçik süni su hövzəsi qurudulurdu. Əraziyə maşınlarla torpaq tökülür, ağaclar kökündən qoparılırdı.***

Ərazi sakinlərinin Sputnik Azərbaycan-a dediyinə görə, göl "Hacı" deyilən bir şəxsin tapşırığı ilə doldurulurmuş. Amma hadisə yerinə müvafiq qurumların əməkdaşları gəldikdən sonra işlər dayandırılıb.

Qeyd edək ki, gölün sahilində hotel var. Bəzi sakinlər gölün hotel sahibi tərəfindən doldurulduğunu iddia etsə də, araşdırmalarımızla məlum oldu ki, hotel sahibinin son görülən işlərlə heç bir əlaqəsi yoxdur. Gölü qurudan və tikinti işlərini həyata keçirmək istəyən başqa bir iş adamıdır.Sakinlərin şikayətindən sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən araşdırma aparılıb və işlər dayandırılıb. Nazirliyin mətbuat katibi İradə İbrahimova bildirib ki, ərazidə tikinti işləri dayandırılıb və faktla bağlı akt tərtib olunub. Təqsirkarlar barəsində müvafiq tədbirlər görüləcək.

Ərazidə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mütəxəssisləri də araşdırma aparıb. Müəyyən edilib ki, sözügedən ərazidə hər hansı tikinti niyyəti ilə bağlı komitəyə müraciət daxil olmayıb və həmin sahədə tikintiyə icazə icraatı həyata keçirilmir.

Hazırda Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 noyabr tarixli Fərmanı ilə təsdiq olunmuş "Dövlət şəhərsalma nəzarətinin həyata keçirilməsi Qaydaları"nın tələblərinə uyğun olaraq ərazidə aparılan işlər dayandırılıb və texnika ərazidən çıxarılıb. Ərazi nəzarətə götürülüb.Amma ərazidə görülən işlər zamanı çox sayda ağaca zərər dəyib.

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, gölün qurudularaq, yerində bina tikilməsi təhlükəlidir: "Gölün tam quruması üçün illər lazımdır. Torpağın bütün qatları tam qurudulmalıdır. Torpaq qurumadan çoxmərtəbəli bina tikmək təhlükəlidir. Bu zaman tikili deformasiyaya uğraya bilər, çatlaya, çökə bilər".

Digər ekspert Elnur Azadovun sözlərinə görə, gölün qurudulub yerində hər hansı bir tikinti aparılması üçün torpağın geoloji vəziyyəti öyrənilməlidir."Məsələn bəzən olur ki, hər hansı bir tikinti şirkəti köhnə bir binanı sökür və geoloji araşdırma aparılan zaman həmin yerdən qaya parçası çıxır. Azərbaycanda belə təcrübə var. Məsələn, Qanlıgölün qurudularaq yerində sosial evlərin tikilməsini göstərmək olar. Yaxud Yasamalda olan göl barədə danışmaq olar. Əvvəllər orada təməl qazılıb, sonradan boş qaldığı üçün göl yaranıb", - deyə ekspert bildirib.

Onun sözlərinə görə, gölün qurudularaq yerində hər hansı bir tikinti aparılması müəyyən fəsadlarla nəticələnə bilər. Buna görə də göl qurudulursa, ərazidə geoloji kəşfiyyat aparılmalıdır ki, həmin torpağın nə qədər yük daşıya biləcəyi müəyyən edilsin. Əks halda, qarşısıalınmaz fəsadlar baş verə bilər: "Araşdırılma aparılmadan bina inşa edilsə, həmin binanın zirzəmiləri qrunt suları ilə dolacaq. Araşdırma aparmadan hər hansı bir tikintiyə icazə vermək olmaz".

Bir sözlə, bu gün Yasamal ərazisində olan gölün qurudularaq yerində bina tikilməsi həm şəhər sakinlərinin nəfəsini əlindən almaqdır, həm də tikinti üçün texniki baxımdan təhlükəlidir.

Qeyd edək ki, paytaxt ərazisində barmaqla sayılacaq qədər təbiət ərazisi qalıb. İllər ərzində yaşıllıqlar, təbiət əraziləri məhv edilib, yerində binalar tikilib. Bu sırada Yasamal rayonu daima "fərqlənib". Xüsusilə İbrahim Mehdiyevin adıçəkilən rayona rəhbərlik etdiyi dövrdə - 2006-2017-ci illərdə Yasamalda mütəmadi tikinti-söküntü qalmaqalları yaşanırdı. Və bu qalmaqallar adətən ağacların kəsilməsi, yaşıllıqların məhvi ilə müşayiət olunurdu.

Məsələn: 2017-ci ilin martındaYasamal rayonu, Həsən bəy Zərdabi küçəsində yerləşən "Ovçular evi"nin binası söküldü. Onun yerində isə tikinti şirkətlərindən biri tərəfindən çoxmərtəbəli bina tikiləcəyi barədə xəbər yayıldı. Tikinti yerindəki məlumat lövhəsinə görə, Yasamal rayonunda qeyd olunan ünvanda "Böyük Plaza" yaşayış və ticarət mərkəzinin tikintisi aparılırdı. Lakin tikintini həyata keçirən şirkət mövcud qanunları pozaraq, ərazidə 54 ağacı qanunsuz olaraq ağır texnika ilə məhv edib.




Ancaq "Ovçular Evi"nin sökülməsi, yaxınlıqdakı ağacların məhv edilməsi cəmiyyət tərəfindən birmənalı qarşılanmadı. Böyük ictimai ajiotaja, təpkilərə səbəb oldu. Nəticədə məsələyə ölkə başçısı müdaxilə etdi və tikinti dayandırıldı. Hətta həmin vaxt baş verənlərə görə əsas səbəbkar olaraq göstərilən o vaxtkı icra başçısı İbrahim Mehdiyevin vəzifəsindən kənarlaşdırılacağı da deyilirdi. Lakin o daha bir neçə ay postunda qaldı və 2017-ci ilin iyulunda Yasamal ərazisindəki Hacı Cavad məscidinin sökülməsini "özbaşına həyata keçirdiyi" üçün cəzalandırıldı, yəni postundan uzaqlaşdırıldı.

2016-cı ildə isə Mehdiyevin adı başqa bir ekoloji qalmaqalda - Yasamal rayonu, Həsən bəy Zərdabi prospekti 89 ünvanında "ağac soyqırımı" aparılmasına görə tənqidlərə tuş gəlmişdi.O vaxt bildirilirdi ki, Akademik M.A.Topçubaşov adına Elmi-Cərrahiyə Mərkəzinin (Eksperimentalnı) axasındakı ərazidə yaşı 25-30 il aralığında olan ağaclar kəsilir.Bu ərazi 2014-cü ildə bir sahibkara satılıb. Həmin vaxt ərazidə 53 ağac kəsilib. Bundan sonra parkın qarşısındakı binanın sakinləri Prezident Adminstrasiyasına, Səhiyyə Nazirliyinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və digər dövlət orqanlarına müraciət edib. Nəticədə ərazidə aparılan işlər dayandırılıb. Şikayətçilərə də bildirilib ki, bu ərazidə ağaclar kəsilə və tikinti işləri aparıla bilməz. Lakin sonradan həmin iş adamı bina sakinləri ilə görüşərək onlara müxtəlif vədlər verib. İş adamı hətta uşaqlar üçün əyləncə parkı tikməyi belə vəd edib. Ancaq sakinlər onun təkliflərini qəbul etməyərək, ağacların kəsilməsinə imkan verməyəcəklərini bildiriblər. Bundan sonra sahibkar ərazini hasara aldırıb. Hasarlanmış ərazidə isə 20-yə yaxın ağac var. Məqsəd onları kəsərək yerində tikinti işləri aparmaq olub. Sakinlər isə baş verənlərə görə o vaxtkı icra başçısı İbrahim Mehdiyevi günahlandırıb, onun iş adamından pul alaraq bu qanunsuzluğa şərait yaratdığını bildiriblər. Belə faktların sayını çoxaltmaq olar. İ.Mehdiyev artıq 3 ildir Yasamalın icra başçısı deyil, lakin bu rayonda ağacların məhvi ilə müşayiət edilən tikintilər davam edir. Hətta göl qurudularaq üzərində göydələn inşasına cəhdlər olunur. Belə çıxır ki, İbrahim müəllim artıq rayonun rəhbəri olmasa da, Yasamalda onun "ənənələri" hələ də yaşadılır. Buna yalnız təəssüflənə bilərik...

***Orxan Həsənli***



## "Beynəlxalq ictimaiyyət erməni terrorunun qarşısını almalıdır" – Politoloq

***"Tovuz hadisələrindən sonra dünyanın ayrı-ayrı ölkələrində yaşayan soydaşlarımızın dövlətin yanında olduqları və Qarabağ üçün apardıqları mübarizə və keçirdikləri piket təqdirəlayiqdir. Bununla da xalqımız ermənilərlə mübarizəyə hazır olduqlarını bir daha nümayiş etdirdi".***

Bunu Publika.az-a açıqlamasında Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi, politoloq Zaur Məmmədov deyib.

O qeyd edib ki, əgər əmr verilərsə həmin soydaşlarımızın hamısı bir nəfər kimi Vətənə qayıdaraq Ermənistana qarşı mübarizə aparacaqlar: "Eyni zamanda bütün bu hadisələr digər bir amil olan erməni vəhşiliyini və terrorizmini də göstərdi. Baxmayaraq ki, Ermənistan bu gün Azərbaycanın işğal olunmuş ərazilərində, Dağlıq Qarabağda məskunlaşıblar. Ermənilər XX əsr boyu Azərbaycan xalqına bir neçə dəfə zülm ediblər. Ümumiyyətlə, bugünkü Ermənistan Azərbaycan torpağında qurulub. Baxmayaraq ki, onların azərbaycanlılara qarşı kin və nifrəti hələ də davam edir. Əslində bu, tamamilə əksinə olmalıdır. Onlar Tovuz təxribatından sonra da sakit dayanmayaraq dünyanın harasında yaşamasından asılı olmayaraq adi ermənilər də dinc azərbaycanlı aksiya iştirakçılarının üzərinə hücum etdilər və onlara qarşı vandallıq nümayiş etdirdilər.

Bu, bir daha onu deməyə əsas verir ki, dünyanın müxtəlif ölkələrində yaşamasından asılı olmayaraq erməni xalqı türklərə və azərbaycanlılara qarşı nifrət bəsləyirlər. Bu, onu göstərir ki, ermənilərin nifrəti zaman etibarilə və ya hansısa şəxslərdən asılı olan bir məsələ deyil, bu, genetik bir məsələdir. Beynəlxalq ictimaiyyət ermənilərin yeni terror dalğasının qarşısını almalıdır. Son hadisələr onu deməyə əsas verir ki, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, xaricdəki səfirliklərimiz və diaspor təşkilatlarımız xaricdə yaşayan azərbaycanlılarla, ayrı-ayrı lobbi qrupları ilə planlı şəkildə iş aparmalıdırlar və sıx əlaqədə olmalıdırlar. Eyni zamanda xaricdəki soydaşlarımız həmrəy olmalıdırlar".

# Azərbaycanda 85 mindən çox ailə dağılıb – 6 ilin statistikası



***Azərbaycanda son 6 il ərzində boşanma hallarının sayı artıb. Ötən il Azərbaycanda 17 148 boşanma halı baş verib ki, bu da son 6 il üzrə ən yüksək göstəricidir.***

Ölkədə 2014-cü ildə 12 088, 2015-ci ildə 12 764, 2016-cı ildə 13 114, 2017-ci ildə 14 514, 2018-ci ildə 14 857 boşanma halı baş verib.

Əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı 2014 və 2015-ci ildə 1,3, 2016-cı ildə 1,4, 2017 və 2018-ci illərdə 1,5, 2019-cu ildə 1,7 olub.

Ötən il ərzində Azərbaycanda nikaha daxil olanların sayı 2017 və 2018-ci ilə nisbətən çox olsa da, bu rəqəm 2014-cü ildəki göstəricini üstələyə bilməyib.

2017-ci ildə Azərbaycanda 62 923, 2016-cı ildə isə 66 771 nəfər, 2015-ci ildə 68 773, 2014-cü ildə 84 912 nəfər nikah bağlayıb. Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 2014-cü ildə 9, 2015-ci ildə 7,2, 2016-cı ildə 6,9, 2017-ci ildə 6,5, 2018-ci illərdə 6,4, 2019-cu ildə 6,4 olub.

Qeyd edək ki, Ədliyyə Nazirliyinin məlumatına görə, boşanmaların səbəbləri xasiyyətlərin tutmaması, uşaqlarının olmaması, ailədaxili zorakılıq, xəyanət, qısqanclıq, xəstəlik, milli zəmin, sərxoşluq, narkomaniya, maddi durum, mənzilin olmaması, ərin (arvadın) əlilliyi, uzun müddət ayrı yaşamaq, oğurluq və kənar müdaxilələrdir.

Daha çox boşanmalar isə xasiyyətlərinin uyğunsuzluğu səbəbindən baş verib.

2019-cu ildə 12 560 nikah xasiyyətlərinin tutmamasına, 793 nikah xəyanətə, 724 nikah uşaqlarının olmamasına, 709 nikah ailədaxili zorakılığa, 654 nikah maddi duruma, 605 nikah isə qısqanclığa, qalanları isə sərxoşluq və digər səbəblərə görə pozulub.

# 190 manat alan vətəndaşın kartı niyə bloklanmalıdır? - Deputatdan ETİRAZ



***"Hələlik sərt karantin dövrü davam etdiyindən 190 manatlıq birdəfəlik ödəmələrə ehtiyac var. Nəzərə alaq ki, iyul ayında da bötüvlükdə sərt karantin tətbiq edilir".***

Bunu Modern.az-a açıqlamasında Mili Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov işsiz vətəndaşlar üçün ödənilən vəsaitlərin bloklaşdırılmasına münasibət bildirərkən deyib.

V.Əhmədov deyb ki, çox sayda insanlar bununla bağlı müraciət edir: "Mart ayından indiyədək bəziləri istisna olmaqla, əksər sahələrin fəaliyyəti dayandırılıb. İnsanlar faktiki olaraq işsiz, çörəkpulusuz qalıb. Bunları nəzərə almaq lazımdır. Vətəndaşlar dolana bilmir. Doğrudur, dövlət büdcəsində müəyyən problemlər yarana bilər, amma insanları çətin vəziyyətdə qoymaq olmaz. Bildiyiniz kimi, cənab Prezident dünən su ehtiyatları ilə bağlı geniş iclas keçirdi. Bu sahədə ciddi problemlər ortaya çıxıb. Onların həlli üçün də kifayət qədər vəsait lazımdır. Amma mən hesab edirəm ki, əhalinin gündəlik ehtiyaclarını ödəməsi üçün 190 manatın verilməsi davam etdirilməlidir. Çünki hələ də 14 rayon və şəhərdə sərt karantin davam edir".

Deputat həmçinin deyib ki, iyun ayı üçün nəzərdə tutulan ödənişlər kimlərə verilməlidirsə, bu ödənişlər kəsilməməlidir:

"Vətəndaşın kartı niyə bloklanmalıdır?! Bəlkə o dərmanpulu saxlayıb, hansısa ehtiyacı üçün az-az xərcləyəcək onu. Bəlkə vətəndaşın problemi olub, bəlkə borc alıb, kartdan pulu çıxara bilməyib?! Düşünürəm ki, bu məsələ tez bir zamanda öz həllini tapmalıdır. İş yeri bağlı və ümid yeri kartdakı 190 manat olan vətəndaş sərt karantində nə ilə dolanır?! Bunu da düşünmək lazımdır".

# İşbazların daha bir böyük oyunu...

## Necə olur ki, ətə tələbat azalır, ancaq ətin qiyməti ucuzlaşmır?

***"Azərbaycanda koronavirus pandemiyası nəticəsində ət tədarük edən fermerlərin işi zəifləyib" - Bunu bir neçə gün əvvəl Ət və Ət məhsulları Məmulatları İstehsalçıları Assosiasiyasının sədr müavini Vüqar Xanbəyli deyib.Onun sözlərinə görə, pandemiya bu sahədə də zəifləməyə səbəb olub: "Bilirsiniz ki, hazırda restoran, kafelər fəaliyyətini dayandırıb. Ona görə də ət məhsullarına tələbat azalıb. Ət məmulatları da əsasən həmin obyektlərə paylanılırdı. Pandemiya ilə əlaqədar həmin obyektlərə satış olmaması bu sahəni zəiflədib. Deməк olar ki, ət və ət məmulatlarının satışı 25-30 faiz azalıb".***



Sədr müavini bildirib ki, bununla bağlı ət məmulatları istehsalçıları ilə müzakirələr aparılır, sahibkarların pandemiyadan daha az zərərlə çıxması üçün çıxış yolları axtarılır: "Bununla bağlı onlayn müzakirələr aparmışıq və bu proses davam edir. Hazırda ət emalı müəssisələri əsasən super marketlərlə işləyirlər, istehsal etdikləri məhsulları həmin ticarət şəbəkələrinə daşıyırlar. Hər ay bir dəfə bununla bağlı müzakirələr aparırıq".

Assosiasiya sədrinin açıqlamasında kifayət qədər maraqlı nüanslar var. Əvvələ, karantin rejimi səbəbilə restoranların, kafelərin fəaliyyətini dayandırması səbəbindən ətə tələbatın xeyli aşağı düşməsi təəccüblü deyil. Təəccüblü olan odur ki, ətə tələbat azaldığı halda bu məhsulun qiyməti niyə yüksək olaraq qalır? Digər tərəfdən, bu yaxınlarda tanınmış iqtisadçı ekspert Natiq Cəfərli facebook-dakı şəxsi səhifəsində yazmışdı ki, bu ilin yanvar-may ayları ərzində Azərbaycan 40,4 mln ABŞ dolları dəyərində 22,6 min ton ət idxal edib, bu 2019-cu ilin eyni ayları ilə müqayisədə 11 min ABŞ dolları (37,5%) və 2,3 min ton (11,2%) çoxdur. Yəni pandemiyaya, karantin rejiminə baxmayaraq ət idxalı artıb. Təsəvvür edin ki, martdan ölkəyə turist gəlmir, kafe-restoranlar bağlı, şadlıq evlərində toylar ləğv edilib, yas mərasimləri keçirilmir, bir sözlə, ət istehlakında ciddi düşmə olmalı, nəticədə isə ət qiymətləri də enməli idi. Lakin görürük ki, nə qiymət düşür, nə də idxal azalır, bilirsiz niyə?!

İqtisadçının fikrincə bunun səbəbi odur ki, son illərdə artan pambıqçılıq sevdası ölkədə heyvandarlığa ağır zərbə vurub, ənənəvi heyvandarlıq rayonlarına zorla pambıq əkdirilib, örüş yerləri, yem əkin sahələri texniki bitkilərə ayrılıb. Nəticədə ölkədə həm ciddi su problemi yaşanır, əkin yerlərinə su çatmır, həm də heyvandarlığın yem bazası azalıb, yem qiymətləri artıb, bu da ətin qiymətlərinə təsir göstərir.

Ekspertin fikrincə: "Bizim ənənəvi heyvandarlıq rayonlarımız, bölgələrmiz var, camaat da yüzillərdir mal-qara, qoyun-quzu saxlamağa öyrənib, bu yanaşmanı təşviq etməkdənsə süni olaraq pambıq sevdasına düşmək məntiqsizlik idi. Nəticə də göz qabağındadır - turist yox, toy-yas yox, kafe-restoran bağlı, amma xaricdən ət almağı keçən ilə görə 11% artırmışıq, ətin qiymətində də enmə yoxdur. Məmləkətdə hər bir sahə belədir, elmi yanaşma yox, modellər qurmaq yox, araşdırmaq yox, sadəcə küyə düşmək var, məmur maraqları var - vəssalam...".

Göründüyü kimi, həqiqətən xaotik vəziyyətdir: bir tərəfdən ətə tələbat azalıb, o biri tərəfdən ət idxalı artıb. Ən əsası isə bunların heç biri ətin qiymətinin ucuzlaşmasına kifayət etməyib? Anormal vəziyyətdir!

Daha bir həyəcan doğuran məqam isə yerli ət istehsalının idxal ətə "uduzmağa" başladığı yönündəki müşahidələrdir. Müəyyən məmur maraqları ölkə heyvandarlığının inkişafı qarşısında əngələ çevrilib, nəticədə ət idxalı stimullaşır, bu da yenə də monopolistlərin işinə yarayır. İstənilən halda isə itirən, təəssüf ki, sıravi vətəndaşdır...

***Orxan Həsənli***

# Praqanın mərkəzi körpüsünün üzərindən "Qarabağ Azərbaycandır!" posteri asılıb

***Çexiyanın paytaxtı Praqa şəhərinin mərkəzi körpülərindən birində "Qarabağ Azərbaycandır!" şüarı yazılmış iri poster asılıb.***




Bu aksiya Çexiyada yaşayan azərbaycanlı gənclərin təşəbbüsü ilə gerçəkləşdirilib. Çex dilində yazılmış posteri Çexiyanın Prezident Sarayına, ölkənin Baş nazirinin iqamətgahına və Nazirlər Kabinetinin inzibati binasına aparan yolun üzərindəki körpüdə yerləşdirilib. Məqsəd ölkənin dövlət xadimlərinin və yerli ictimaiyyətin diqqətini müstəqil Azərbaycan dövlətinin əzəli torpaqları olan Dağlıq Qarabağ və ona bitişik 7 rayonun hələ də Ermənistanın işğalı altında qaldığına, BMT-nin məlum 4 qətnaməsinə baxmayaraq, hələ də Azərbaycanın ərazi bütövlüyünün təmin olunmadığına cəlb etməkdir.

Qeyd edək ki, sabah Praqada soydaşlarımız Ermənistanın işğalçı siyasətinə və hərbi təxribatlarına son qoyulması, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin olunması tələbilə etiraz aksiyası keçirəcək. Aksiya zamanı dövlətimizə, xalqımıza, ordumuza və xarici ölkələrdə Ermənistanın təcavüzkar siyasətinə etiraz səsini ucaldan dünya azərbaycanlılarına dəstək ifadə olunacaq.



# "Səhnə elə bir yerdir ki, tamaşaçı ilə göz-gözə oynayırsan, səmimi olmamaq şansın yoxdur" - Xalq artisti Məmməd Səfa Qasımov

***Böyük tamaşaçı auditoriyası onu "Dolu" filmindəki komandir rolu ilə tanıdı. Amma teatr və kino aktyoru Azərbaycanın xalq artisti Məmməd Səfa Qasımov sənət aləmində öz yeri olan şəxslərdəndir. Və həmin filmə qədər sənətsevərlərin sevimli aktyoru hesab olunurdu. "Unikal" qəzetinə müsahibə verən Məmməd Səfa Qasımov bizimlə söhbətində maraqlı fikirlər səsləndirib:***

***-Məmməd Səfa müəllim, sənət adamları üçün qapalı mühit o qədər də arzu olunan deyil, karantin dönəmini necə keçirirsiz?***

-Hamı kimi, camaat necə biz də elə. Təbii ki çətindir, amma barışmaq lazımdır. Dövlətin qayda-qanunları var, hətta karantinin özünün qayda-qanunları var, yəni, heç kimin həmin qaydaları pozmağa ixtiyarı yoxdur. Kim olursan ol, sən bu qaydalara mütləq riayət etməlisən. Əksəriyyətimiz müəyyən qədər laqeydlik etdik və gördük ki, xəstələnənlərin sayı da artmış oldu. Biz də bacardığımız qədər qaydalara uyğun davranırıq. Çoxdandır şəhərə çıxmıram, amma iş üçün lazım olanda SMS icazəsi ilə çıxıram.

***-Teatr fəaliyyətini dayandırıb, demək olar ki, iş yoxdur, aktyor Məmməd Səfa bu günləri necə dəyərləndirir?***

-Bu, bir bəladır başımıza gəlib, elə bir sahə olmadı ki, ora öz təsirini göstərməsin, ziyan vurmasın. Hesab edirəm ki, hər bir kəs bunun təsirini, nəticəsini hiss etdi. Gözə görünməyən düşməndir, hər an hər birimizi yaxalaya bilər. Diqqətli olmalıyıq, təmizlik qaydalarına riayət etməliyik. Söhbət bir-birimizi qorumaq deyil ki, söhbət özümüzü qorumaqdır. Hər kəs özünü qorusa, elə ailəsini, sevdiklərini, doğmalarını da qorumuş olur. Bu gün bütün dünya bu xəstəlikdən əziyyət çəkir. Martdan bu yana görün neçə ayda ziyanları oldu, hələ bundan sonra da bunun fəsadları üzə çıxacaq.

***-"Dolu" filmində komandir obrazını canlandıran bir aktyor kimi bu günlərdə Tovuz rayonunda baş verən hücumlar zamanı nə hisslər keçirirdiniz?***

-Mən bir şeyi bilirəm ki, düşmənin başı əzilməlidir, bu cür düşmənlə humanist formada davranılmamalıdır, çünki riyakar düşməndir. Hər an nə desən, edə bilər. Düşmən də mərd olmalıdır, amma erməni namərd düşməndir. Başqa cür mən inanmıram ki, onlar torpaqlarımızı geri qaytarsınlar. Təbii ki, dövlət bu yöndə lazımi tədbirlərini həyata keçirir. Heç kim istəmir qan tökülsün, heç kim istəmir ki, cavan canlar öldürülsün. Amma bir şey var ki, ilanın başını elə yuvasında əzmək lazımdır. Biz tarix boyu gördük ki, erməni milləti hər an fürsət axtaran məxluqlardır, heç insan da demək olmur onlara. Ermənilərə fürsət vermək lazım deyil, həddi çox aşırlar.

Elə sizin sayənizdə vətən uğrunda atışma zamanı şəhid olan dostlarımıza, qardaşlarımıza Allahdan qəni-qəni rəhmət diləyirəm, əlimizdən başqa nə gəlir ki.

***-Qarabağ mövzusunda bir çox filmlər çəkilsə də, "Dolu" filmi də "Fəryad" filmi qədər böyük izləyici sevgisi qazandı. Sizə həmin filmə, xüsusilə də komandir obrazını canlandırmaq təklif edildi. Filmin çəkiliş heyəti və həmin proseslərə təkrar qısa biz nəzər salaq...***

-"Dolu" gündəmin tələbidir. Bu elə bir mövzudur ki, hər an aktualdır, çünki söhbət vətəndən, öz dərdimizdən gedir. Söhbət qeyrətdən-namusdan gedir. "Dolu" filmi də çəkiləndə burda işləyən film heyətinin üzvləri təsəvvür edin ki az qala canlarını qoyurdular. Rejissordan tutmuş texniki heyətdə çalışan işçiyə qədər hamı qolunu çırmalayıb vicdanla öz işlərini görürdülər, mən hələ aktyorları demirəm. Bu gün o kollektivdə işləyib dünyasını dəyişənlər var, hər birinə rəhmət diləyirəm. (red -Xalq artisi Fuad Poladov, aktyor Şahmar Qəribli, aktyor Mayak Kərimov) Bu çox ağrılı yerdir. Ona görə də hesab edirəm ki, hazırda mütləq bu mövzular davam etdirilməlidir. İstər film çəkərək, istərsə də serial, ifa edilən mahnılarda da mütləq Qarabağ mövzusuna, bu ağrılı yaraya toxunulmalıdır. Bundan yan keçə bilmərik. "Dolu" filminin çəkilişləri zamanı o sərhədlərə, o mövqelərə yaxınlaşdıqca insanın bədəni cuşa gəlir, vəcdə gəlir. Dəli olursan ki, axı niyə bu torpaq, bu vətən mənimdir, bu qədər Allahsızlıq olmaz axı. Daha nə qədər dözməliyik?

***-Sənət yolunuzun trayektoriyasından danışaq. İlk fəaliyyətiniz harda başladı, sizi aktyor kimi kim kəşf etdi?***

-Bir müddət universitetdə səhnə danışığı kafedrasında dərs dedim, sonra keçdim aktyorluq kafedrasına. 1984-cü ildə, mən universiteti bitirəndən sonra bir müddət Tədris teatrında çalışdım. Orda çalışa-çalışa Vaqif İbrahimoğlu "Yuğ" teatrını yaratdı, biz də müəllimlə görüşdük. (Azərbaycan novator teatr rejissoru Vaqif İbrahimoğlu eyni zamanda YUĞ Teatrının bədii rəhbəri olub - red.) Vaqif müəllim bizi öz qanadının altına çəkdi. Yerdə qalan həyatımızı elə Vaqif müəllimlə birgə keçirdik.

***-O zaman sizi aktyor kimi kəşf edən Vaqif müəllim olub?***

-Vaqif İbrahimoğlu bizim müəllimimizdir. Bizə peşədə həyat verən, ayaq üstə daha güclü durmağımızda rolu olan böyük insandır. Hər birimizin bir sənətçi kimi yetişməsində Ustadın rolu danılmazdır.

***-Son illərdə aktyor kimi fəaliyyətiniz elə "Yuğ" teatrı ilə bağlıdır. Dəfələrlə həm jurnalist, həm də auditoriya kimi tamaşalarınızda iştirak etmişəm. Teatrın təmirə ehtiyacı var, amma səhnə öz mistik sehrini yenə də qoruya bilir.***

-Doğrudur, hər teatrın öz fərqli aurası, poetikası var. "Yuğ" teatrı da onların içindədir. Səhnə elə bir yerdir ki, tamaşaçı ilə yaxın məsafədə, onunla göz-gözə oynayırsan, səmimi olmamaq şansın yoxdur. Bu sarıdan "Yuğ" teatrı digər teatrlardan fərqlənir.

Bütün teatr kollektivini bu xəstəlikdən uzaq olmağı arzulayıram. Tezliklə xəstəlik, bu bəla bitsin və teatrlarımızın qapıları açılsın ki, tamaşaçılarımız da əvvəlki kimi ürəklə teatrlara gəlsin.

***-Bəzi aktyorlar simaları ilə tanınır, Məmməd Səfa isə həm aktyor, həm də ecazkar səs sahibi olması ilə seçilir. Tamaşaçılardan və izləyicilərdən aldığınız reaksiyalar sizi qane edirmi?***

-Azərbaycan xalqı çox istedadlı millətdir. Bizim çox əvvəllərdən bilirsiniz necə gözəl səsli aktyorlarımız olub? İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı, Ələsgər Ələkbərov hər birinin özlərinə məxsus seçilən səsləri olub. Son illərdə Yusif Vəliyev, Həsən Əbluc, Şahmar Ələkbərov kimi aktyorların bir-birindən fərqli və yaddaqalan səsləri olub. Biz tələbə olanda Akademik Milli Dram Teatrının sənətkarları var idi, mən hesab edirəm ki o dövr qızıl dövr idi. Onların obrazları ifa etməsinə baxanda, səslərinə qulaq asanda heyrətlənməyə bilmirsən. O cür səslər indi də əl-əl axtarılır. Cavanların arasında da səsləri seçilən aktyorlar var. Məni kimlərsə filmlərdən tanıyır, kimlərsə də dublyajlardan.

***-Hazırda dublyaj sahəsindəki vəziyyəti necə dəyərləndirirsiniz?***

-Keçmiş dövrün ritmi ilə indiki dublyajların ritmi eyni deyil. Keçmiş dövrdə bədii filmlər ayrı, sənədli filmlər ayrı yazılırdı, hətta multiplikasiya və hind filmləri də ayrı-ayrı yazılırdı. Kinostudiyanın özündə böyük bir dublyaj fəaliyyət göstərirdi. Çox uzun illərdir ki, o da fəaliyyətini dayandırıb. Çətinliklər çoxdur və həll olunmalıdır. Filmlər hazırda tamam başqa müstəvidə çəkilir. Texniki imkanlar elə şəkildə yaradılmalı və təkmilləşdirilməlidir ki, hansısa festifallarda dəyərləndirilə bilsin.

***-Teatr və kino sahəsində karantinin yarımçıq qoyduğu və tamamlanmalı olan nə kimi işlər var?***

-Əlbəttə, müəyyən filmlər var ki, karantin rejimi ilə bağlı yarımçıq qalıb. İstehsalata buraxılsa da dayandırılan filmlər. Gözləyirik ki, xeyirlisiylə bu bəla bitsin, qaldığımız yerdən davam edək.

***Dürrə Həsənova***



## Qarabağ prosesində yeni dönəm

### Natiq Cəfərli: "Azərbaycana böyük şans yaranıb ki..."

***"ABŞ-da və Avropada erməni vəhşilikləri bizə Qarabağ münaqişəsində yeni dönəmə qədəm qoymaq imkanı verir. Onların buraxdığı səhvlər, etdikləri vəhşilik dünyada yeni bir kampaniya başlamağa əsas yaradıb".***

Bu sözləri ReAL partiyası sədrinin müavini Natiq Cəfərli deyib.Natiq Cəfərlinin sözlərinə görə, ermənilərin son 100 ildə Türkiyəyə, son 30 ildə isə Azərbaycana qarşı apardıqları bütün piarını boşa çıxartmaq, suya salmaq olar:"Onların hərəkətləri bir daha sübut edir ki, davranışlarının əsasını həmişə "etnik faşizm" təşkil edir, onların Qarabağda davası "millətlərin öz müqəddəratını təyin etmək" kimi bir hüquqa, prinsipə əsaslanmır.

Onların xəstə "ideoloji" bazasını türklərə və başqa millətlərə nifrət təşkil edir. Ermənilər son günlər məhz bunu büruzə verdilər, biz bundan yapışıb, hüquqi, siyasi, media üzərindən mücadilə etməliyik və bununlada ciddi üstünlük qazanmış olacağıq.

Ermənilər anladılar ki, ABŞ-da və Avropada böyük qələt ediblər, dünya münaqişəyə tamam başqa səmtdən baxa bilər və bu baxış bucağında onlar uduzacaqlar. Ona görə məhz ermənilərin marağındadır ki, indi əsasən Rusiyada və digər MDB ölkələrində bizi provokasiyaya çəkib münaqişəni yenə öz PR çərçivəsinə qaytarsınlar, azərbaycanlılarla birgə yaşamağın mümkünsüzlüyü nağılına qayıtsınlar. Məhz bu nağıl onlara siyasi üstünlük verir, indi biz bu nağılı darmadağın edə bilərik".

Natiq Cəfərli xarici ölkələrdə yaşayan soydaşlarımıza çağırış edib: "Əsasən Rusiyada yaşayan soydaşlarımıza üz tuturam: lütfən, rica edirəm, bu oyuna gəlməyin, hadisələri ermənilərin istədiyi səmtə qayıtmasına imkan verməyin, təxribatlardan uzaq olun! "Haylar" böyük qələt ediblər - bundan istifadə edək, məsələləri hüquqi, siyasi, mediatik müstəviyə daşıyaq. Küçələrə qalsa, onlar ciddi təxribatlar edəcəklər, bizimkilər onları döysə, çırpsa bundan məmnun qalacaqlar - zatən mazoxist toplumdur, həmişə ağrıdan, yalançı faciələrdən, əzilmiş görkəmdən, adlarına uyğun boş yerə "hay" salmaqdan qidalanıblar. Bu onların daimi və yaxşı bildikləri artistlikdir - biz onlara bu imkanı verməməli, öz cildlərinə dönməyə kömək etməməliyik.

Bu vəhşiliklər dünyanın ictimai rəyində bizə tarixi üstünlük qazanmağa imkan verir. Bu fürsəti doğru dəyərləndirək, küçədə adam döymək bizə yaraşan iş deyil və bizim haqlı mücadiləmiz də əngəl yaradacaqam il ola bilər. Bizim haqlı davamız torpaqlarımızın işğaldan qurtarma qüçündür, buna köklənməliyik, küçə savaş və təxribatlarından uzaq olmalıyıq. Zatən çox zaman həmin təxribatların arxasındanRusiyanın "qulaqları" aydın görünür".

# Nazim İbrahimovun "diaspora yeyinti"sinin fəsadları...

## 10 illik fəaliyyətsizliyin və korrupsionerliyin acı bəhrələri ortaya çıxır

***Son günlər xaricdə yaşayan azərbaycanlılar sərbəst toplaşmaq və ifadə azadlığı hüquqlarından istifadə edərək Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində əsasən mülki şəxsləri hədəfə almaqla törətdiyi hərbi təxribat xarakterli hücumlara etiraz etmək üçün müxtəlif ölkələrdə dinc aksiyalar təşkil edirlər. Lakin bu aksiyalar ermənilərin zorakı hücumlarına məruz qalır.***

Məsələn, ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində yaşayan və dinc şəkildə etiraz etmək məqsədilə toplaşan az sayda azərbaycanlıya onlardan sayca dəfələrlə çox olan ermənilər tərəfindən hücum edilib. Zorakılığa məruz qalaraq xəsarət almış soydaşlarımız xəstəxanaya yerləşdirilmiş, onların bir sıra hüquqları kobudcasına pozulub.

Az sayda azərbaycanlının yüzlərlə erməni tərəfindən psixoloji və fiziki zorakılığa məruz qaldığı və Azərbaycan Respublikasının Los-Ancelesdəki Baş Konsulluğu qarşısında yaşandığı bu insidentlə yanaşı, Belçikanın paytaxtı Brüssel şəhərində də analoji hadisələr baş verib, soydaşlarımıza ciddi xəsarətlər yetirilib.Həmin zorakılıqlardan hiddətlənən azərbaycanlıların isə srağagün gecədən etibarən dünyanın müxtəlif şəhərlərində ermənilərin vandal hərəkətlərinə elə anladıqları dildəcə cavab verməyə başlayıblar.

İctimaiyyət arasında yaşananlar ciddi müzakirə edilir, bu zaman məsələyə maraqlı yanaşmalar ortaya çıxır. Bu yanaşmaların bəzilərində erməniləri cəsarətləndirən səbəblər arasında bir sıra ölkələrdəki diasporalarımızın zəif təşkilindən giley edilir. Səbəbkar kimi isə Diaspora İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun vəzifədə olarkən fəaliyyətsizliyi göstərilir. Düzdür, İbrahimov artıq iki ildir sözügedən komitənin rəhbəri deyil, bununla belə, hesab olunur ki, diaspora kimi kifayət qədər çətin, mürəkkəb sahədə illərdir yığılıb qalan problemləri bu iki il ərzində kökündən həll etmək elə də asan deyil. Halbuki İbrahimov vəzifədə olduğu 10 ildə (2008-2018-ci illər) Azərbaycan diasporasının xaricdə, özəlliklə də, Avropada və Amerikada güclənməsi üçün yetərincə işlər görə, onları güclü şəkildə təşkilatlandıra, mütəşəkkil qüvvəyə çevirə bilərdi. Bunun üçün onun kifayət qədər vaxtı, eyni zamanda rəhbəri olduğu komitənin böyük məbləğdə büdcəsi vardı. Lakin həmin vəsaitlərin təyinatsız, qeyri-şəffaf şəkildə xərclənməsinin nəticəsidir ki, bu gün Azərbaycan diasporasının gücü barədə danışarkən xeyli sayda çatışmazlığın ortada olduğunu da aydın görürük. Əslində sabiq "diaspora şefi"nin "vurulma" səbəbi də elə onun səbatsız fəaliyyətinin məntiqi yekunu idi. Yuxarıda da vurğuladığımız kimi, İbrahimovun adıçəkilən Komitəyə 10 illik rəhbərliyi Azərbaycan diasporasının güclənməsi adına demək olar, hər hansı müsbət təsiri ilə yadda qalmadı, əvəzində isə o, qısa vaxtda vardövlət baxımından ən qüdrətli oliqarxlardan birinə çevrildi. Sabiq "diaspora şefi"nin öz biznes imperiyasını bu qədər böyütməsi, ölkə daxilində və xaricində sərvətlərini inanılmaz miqyasa çatdırması necə mümkün olmuşdu? Bu sualın cavabı çoxlarına görə sadədir: dövlət tərəfindən Azərbaycan diasporasının güclənməsi məqsədilə ayırdığı iri büdcə vəsaitləri hesabına!

Belə düşünənlərin nə qədər haqlı olduğunu isə Prezident Administrasiyasının keçmiş rəhbəri, akademik Ramiz Mehdiyevin N.İbrahimov vəzifəsindən uzaqlaşdırıldıqdan sonra səsləndirdiyi fikirlər təsdiqləyir. Mehdiyev həmin vaxt bildirmişdi ki, "Diasporla İş üzrə Dövlət Komitəsinin işindən narazılıqlar var idi, Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib".Həmin vaxt



Administrasiya rəhbəri qeyd etmişdi ki, Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla heç bir iş görülməyib: "Düzdür, Komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb".

Bu açıqlamalardan sonra ictimaiyyətdə və mətbuatda yeni gözləntilər meydana çıxdı: təxminlər bu yöndə idi ki, N.İbrahimov sadəcə postunu itirməklə vəziyyətdən çıxa bilməyəcək, onun haqqında "dövlət tərəfindən ayrılan maliyyə yardımları öz ünvanına çatmadığı" üçün korrupsiya ittihamı ilə cinayət işi başlanacaq və proses həbsə qədər uzanacaq. Lakin bu baş vermədi.

İstənilən halda isə bir həqiqət dəyişməz olaraq qalır: Diasporla İş üzrə Dövlət Komitəsinə 10 il boyunca ayrılan vəsaitlər korrupsiya predmetinə çevrilib, komitənin sabiq sədri bu vəsaitləri qeyri-müəyyən, təyinatsız şəkildə, qeyri-şəffaf xərcləyib, bununla da ölkədən kənarda güclü diasporaya sahib olmaq üçün həm xeyli pul, həm də böyük zaman itirilib. İndi isə biz dövlət və millət olaraq bunun acı fəsadları ilə qarşılaşırıq.

Əlbəttə, azərbaycanlılar dünyanın müxtəlif ölkələrində ermənilərin vandal hərəkətlərinə, sürü halında az sayda soydaşımıza hücum çəkməsinə layiqli cavabı verir və bundan sonra da verəcəklər. Erməni qorxaqlığının, erməni cılızlığının növbəti açıq nümayişi olan sözügedən insidentlərə eyni zamanda baş verən ölkələrin aidiyyatı qurumlarının ədalətli hüquqi qiymət verəcəyinə də şübhə etmək istəmirik. Bununla belə, xüsusilə Avropada və Qərbdə güclü Azərbaycan diasporasının ortaya çıxması qaçılmaz zərurətdir. Belə görünür, biz həmin diasporaların sistemli, ardıcıl, mütəşəkkil fəaliyyətinə bundan sonra daha çox ehtiyac duyacağıq.

Təəssüf ki, Nazim İbrahimov 10 illik vəzifəsi dövründə belə sadə həqiqətləri görüb səmərəli işlər görmək əvəzinə korrupsiyaya "yaşıl işıq" yandırmaqla məşğul oldu. Nəticəni oxucuların ixtiyarına buraxırıq...

***Elvin Rüstəmov***

# Ermənistan danışıq prosesinə zərbə vurur

## Paşinyanın Azərbaycan tərəfinə 7 şərt irəli sürməsi növbəti dəfə danışıqların formatını pozmaq və təhrif etmək cəhdidir

***Tovuz istiqamətindəki təxribatdan sonra Ermənistan rəhbərliyi bütün dünyanın təpkisini alsa da, öz təxribatçı mahiyyətindən əl çəkmir. Belə ki, Ermənistan Baş naziri Nikol Paşinyan hökumətin iclasında Azərbaycan tərəfinə 7 şərt irəli sürüb. Bu şərtlər isə danışıqlar prosesin tam ziddini təçkil edir.***

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistanın baş naziri Nikol Paşinyanın açıqlamasına münasibət bildirib. XİN-in məlumatında bildirilib ki, L. Abdullayeva Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən bu ilin 23 iyul tarixində hökumətin iclası zamanı səsləndirilən fikirlərin ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə növbəti zərbə olduğunu deyib.

"Bununla, Ermənistanın rəhbərliyi danışıqlar prosesini dayandırmaq istəyir. Onun əvvəlki dövrlərdə də səsləndirdiyi çıxış və bəyanatları göstərir ki, Ermənistan danışıqlar prosesinə qarşıdır, danışıqların formatının dəyişdirilməsi iddiası ilə çıxış edir. Lakin, danışıqların formatı dəyişdirilə bilməz. Ermənistanın işğalçı və təcavüzkar dövlət olaraq danışıqlara qeyd-şərt qoyması cəhdləri qəbuledilməzdir. N.Paşinyanın çıxışında danışıqların mahiyyətinə zidd şəkildə xalqların öz müqəddəratını müəyyən etməsi prinsipindən danışmasına gəldikdə isə, bu növbəti dəfə danışıqların formatını pozmaq və təhrif etmək cəhdidir", - deyə o əlavə edib.

XİN sözçüsü deyib ki, Ermənistanın bu kimi mövqeyi danışıqlardan boyun qaçırmaq kimi qiymətləndirilməlidir və ATƏT-in Minsk Qrupunun həmsədrləri buna müvafiq qiymət verməlidirlər: "Həmsədrlər, Ermənistanın danışıqlar prosesini pozan bu açıqlamasına bilavasitə mövqe bildirməlidirlər. Ermənistan rəhbərliyinin Azərbaycanın guya ki, mülki əhaliyə zərər yetirməsi barədə ittihamlarına gəldikdə xatırladırıq ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qanlı etnik təmizləmə törədib və 1992-ci ilin Xocalı qətliamı bütün dünyaya bəllidir. Bu ilin 12 iyul tarixində Ermənistan-Azərbaycan sərhədində Ermənistan silahlı qüvvələrinin son hərbi təxribatı zamanı Tovuz rayonunun kəndlərdəki mülki insanları və obyektləri hədəfə alması və Ağdamlı kənd sakini, 76 yaşlı Əziz Əzizovun qətlə yetirilməsi təcavüzkar ölkənin terrorçu mahiyyətini bir daha ifşa etdi. Ermənistan tərəfində isə heç bir mülki şəxs ölməyib və yaralanmayıb. Ermənistan-Azərbaycan sərhədinin Tovuz istiqamətində baş vermiş gərginlik bilavasitə Ermənistanın əvvəlcədən planlaşdırdığı təxribatı idi.

Münaqişənin həlli üzrə danışıqlar prosesinə zərbə vuran bəyanatlarından sonra Ermənistanın münaqişənin sülh yolu ilə həlli məqsədilə ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə işləməyə davam edəcəyi barədə fikirlər səsləndirməsi isə N.Paşinyanın riyakarlığından başqa bir şey deyil. Ermənistan baş naziri öz çıxışında, həmçinin Türkiyəyə qarşı əsassız iddialar irəli sürür. Türkiyə bölgədə sabitliyə və təhlükəsizliyə töhfə verən dövlətdir. Türkiyə ATƏT-in Minsk Qrupunun üzv ölkələrindən biridir. Türkiyə beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində



ədalətli həllini dəstəkləyir. Azərbaycan və Türkiyənin tərəfdaşlığı və həyata keçirdikləri birgə layihələr regionun inkişafına, sabitliyinə və çiçəklənməsinə xidmət edir. Bölgədə sülh, sabitlik və təhlükəsizliyə təhdid yaradan isə məhz N.Paşinyan və onun yürütdüyü siyasətdir. Regionda baş vermiş gərginliyə görə bütün məsuliyyət şəxsən N.Paşinyanın üzərinə düşür".

Məsələylə bağlı "Unikal"a açıqlama verən politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ermənistan Baş naziri Nikol Paşinyan hökumətin iclasında Azərbaycan tərəfinə 7 şərt irəli sürməsindən sonra, ümumiyyətlə, danışıqların aparılması mənasızdır. Onun sözlərinə görə, Paşinyan Qarabağ separtçılarını tərəf kimi təqdim edir və atəşkəsin qorunması üçün beynəlxalq monitorinq sisteminin yaradılmasını qeyd edir: "Erməni Baş nazirin bu şərtləri Minsk qrupunun fəaliyyətini heçə endirməklə, bütün prosesin üzərindən xətt çəkmiş oldu. Bu gün Paşinyanın apardığı siyasət münaqişəni alovlandırmağa xidmət edir. Azərbaycan XİN Paşinyanın bu şərtlərinə qarşı kəskin etirazını bildirməli, Minsk qrupunu üzvülərini məlumatlandırmalıdır. Paşinyanın bu təklifləri, faktiki olaraq Ermənistanın danışıqlardan yayınmasıdır. Bundan əlavə, Paşinyan bu açıqlması ilə daxildə Ermənistanın ağır itkilərini sığortalamağa çalışır. Azərbaycan Qarabağ istiqamətində Ermənistan silahlı qüvvələrinə zərbələr endirməsi zaman məsələsidir. Ermənistanla faktiki danışıqlar mərhələsi süquta uğrayıb. Danışıqlar bərpa olunsa da, Azərbaycan öz təklifləri ilə çıxış etməli, pararlel olaraq hərbi təzyiqləri artırmalıdır. Tovuz hərbi təcavüzündə çox ciddi məsələlər var. Azərbaycan Qarabağ istiqamətində yeni ərazilər əldə etməlidir. Bunu lokal döyüşlərlə əldə etmək olar".

M.Əsadullazadə deyib ki, ABŞ Kongrensində Azərbaycanın ərazi bütövlüyünün tanınması və Ermənistan əleyhinə düzəlişlərin qəbul edilməsi, Ermənistan daxilində Nikol Paşinyana qarşı narazılıqları daha da artıracaq: "Bir müddət bundan əvvəl, Avropa Parlamenti tərəfindən Qarabağa növbəti yolun çəkilməsinə qarşı qəbul edilən qətnamə Ermənistanda Paşinyanın xarici siyasətinin fiaskosu kimi dəyərələndirilirdi. Erməni siyasi camesi bütövlükdə Paşinyanı bu qətnaməyə görə iddiham edirdilər. Növbəti zərbənin ABŞ-dan gəlməsi, artıq Paşinyan üçün daxili siyasi mübarizdə rəqibləri qarşısında mövqeyini zəifləcədək. Nikol Paşinyana qarşı Qərbin bu mövqeyi, onun Rusiya ilə bağlarını qırmaması və Qərbin enerji və nəqliyyat layihələrinə qarşı təxribatlar etməsidir. Əgər, Ermənistan tərəfi enerji xətlərinə qarşı təxriabtlara gedib, hədəf alarsa, bu, ABŞ tərəfindən bu ölkəyə sanskiyaların tətbiqinə gətirib çıxarar. Bundan əlavə, belə bir hal yaşanarsa, Azərbaycan işğal olunmuş ərazilərdə hərbi əməliyyatlara başlaya bilər. Bu da Azərbaycana Qərbin tam dəstək verməsi ilə nəticələnəcək. Baş verənlər Ermənistan daxilində də Paşinyana qarşı yeni siyasi birliklərin formalaşmasına gətirir. Ermənistan "Vətən" partiyasının və DTK sabiq sədri A. Vanatesyan və "Çiçəklənən Ermənistan" Partiyasının sədri Q. Sarukyan, sabiq prezidentlər R. Koçaryan və S. Sarksiyan bir araya gəlib, payız aylarından başlayaraq Paşinyana qarşı siyasi mübarizədə birləşməsi istiqamətində danışıqlar aparır. Qeyd edim ki, sabiq müdafiə naziri S. Ohanyanın Qarabağa gələrək, dostu separatçıların lideri Araik Artunyanla görüşü, məhz Paşinyan əleyhinə ittifaq yaratamaq üçün danışıqlar aparıb. Rusiyada prosesdə Pşainyanın devrilməsi üçün bu qüvvələrə dəstək verir. Nikol Paşinyanın iki stulda oturmaq cəhdləri onun devrilməsini şərtləndirəcək. Məhz Azərbaycan əleyhinə Tovuz istiqamətində təxribatları davam etdirməklə, həm xarici siyasətdə zərbələr alır, həm də daxildə mövqeləri zəifləyir. Ermənistan Serbiyadan ABŞ sanksiyalarına məruz qalmış şirkətdən silahlar alması, Paşinyanın ABŞ tərəfindən mənfi qarşılanacaq. Azərbaycan bu istiqamətdə ABŞ məlumatlandırmalıdır. Göründüyü kimi Ermənistan tərəfinin addımları ABŞ qarşıdır və Nikol Paşinyanın oyun qayadaları regionda sülh və təhlükəsizliyi, hətta Qərbin geosiyasi maraqlarını təhdid edir. Azərbaycan bu situasiyadan istifadə edib, Ermənistana qarşı Avropa və digər beynəlxalq təşkilatlarda sanskiyalar tətbiq etməsinə çalışmalıdır".

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan bu gün hökumətin iclasında hakimiyyətə gəldiyi gündən bu yana dəfələrlə söylədiyi tezisləri təkrarladı: "Birincisi, Azərbaycan Dağlıq Qarabağla birbaşa danışıqlar aparmalıdır. İkincisi, Dağlıq Qarabağın təhlükəsizliyi məhdudulaşdırıla bilməz. Üçüncüsü, Dağlıq Qarabağın özmüqəddəratını təyin etmə hüququ olmalıdır. Dördüncüsü, Azərbaycan Ermənistana və Dağlıq Qarabağa güc tətbiqi fikrindən rəsmən imtina etməlidir". Ermənistanın baş naziri faktiki bizə "kapitulyasiya" təklif edir. Nikol Paşinyanın bu bəyanatından sonra işğalçı ölkə ilə danışıqların davam etdirilməsinin heç bir mənası yoxdur. Çünki, sərhəddəki 4 günlük döyüşlərdən sonra masada dəyişən bir şey yoxdur. Paşinyan bir müddət sonra Şuşada yenidən yallı oynamağa gedəcək. Görünür, sərhəddəki döyüşlərdən sonra erməni hərbçilərin rusiyalı həmkarlarıyla birgə Azərbaycanın pilotsuz uçuş aparatlarına qarşı İrəvanda keçirdikləri birgə təlimlər Paşinyanı bir az daha cəsarətləndirib. Azərbaycan-Ermənistan sərhəddindəki döyüşlərə bir də dünyanın müxtəlif ölkələrində azərbaycanlılarla ermənilərin qarşıdurması damğasını vurdu. Əgər sərhəddə toplar, raketlər və pilotsuz uçuş aparatları hədəfləri vururdusa, səfirliklər qarşısında yumruqlar və təpiklər havada uçuşurdu. Bəzi ölkələrdə azərbaycanlılar Azərbaycanın səfirliyini ermənilərin hücumlarından qoruyurdusa, digərlərində isə əksinə ermənilər öz səfirliklərinə sığınmaq məcburiyyətində idilər. İlk dəfəydi ki, səfirliklərimiz soydaşlarımızla birgə mübarizə apardılar.

Nəzərə almaq lazımdır ki, iki ölkə arasında növbəti hərbi qarşıdurma zamanı yenidən xarici ölkələrdəki səfirliklərimiz və soydaşlarımız ermənilərlə döyüşməli olacaqlar. Buna indidən hazırlaşmaq lazımdır. Ermənilərin terrorçu təşkilatlarını hərəkətə keçirəcəkləri istisna deyil. Onların bu "sahədə" təcrübələri böyükdür. Bu məqsədlə Azərbaycan Xarici İşlər Nazirliyi ilə Diaspora Komitəsinin birgə çalışması və müxtəlif ssenarilərə hazır olması gərəkir. Brüsseldə soydaşımızı təkləyən bir qrup ermənininin dərsi elə verilməlidir ki, elədiklərinə görə qisasın amansız olduğunu anlasınlar".

***Z.Məmmədli***

# 21-ci əsrin Soyuq müharibəsi

## ÇİNLƏ 400 MİLYARD DOLLARLIQ SAZİŞ İRAN ÜÇÜN TƏLƏDİR?

***İranın Çinlə 400 milyard dollarlıq iqtisadi və təhlükəsizlik sazişinin son mərhələsində olduğu bildirilir. Saziş infrastruktura sərmayə qoyuluşu, İran neftinə endirim, həm müdafiə, həm də kəşfiyyat sahəsində əməkdaşlığı genişləndirməni nəzərdə tutur. Tehran COVID-19-un dəhşətli təsirindən əziyyət çəkir və 2018-ci ildə Tramp administrasiyası Birgə Hərtərəfli Fəaliyyət Planından (JCPOA) çıxdıqdan və sanksiyaları bərpa etdikdən sonra iqtisadiyyatı sürətli enişə gedir.***

ABŞ-ın dövlət tərəfindən dəstəklənən terrorizm və ballistik raket proqramı ilə əlaqəli ittihamlarla, yeni bir razılaşma qarşılığında sanksiyaların ləğvi təklifi rədd edilib. Birləşmiş Ştatları danışıqlara qayıtmağa vadar etmək üçün İran 2019-cu ilin yayından ABŞ və müttəfiqlərinə qarşı müqavimətini gücləndirib: "Stena Impero" neft tankeri ələ keçirilib, ABŞ-ın pilotsuz təyyarəsi vurulub, "Saudi Aramco" qurğularına raket hücumu olub.

2019-cu ilin iyul ayında İran JCPOA-ya istinadla zənginləşdirilmiş uran ehtiyatının həddini aşmağa başlayıb. BMT-nin Beynəlxalq Atom Enerjisi Agentliyinə görə, İran, həmçinin 2019-cu ilin noyabr ayından etibarən zənginləşdirilmiş uran ehtiyatını təxminən 3 dəfə artırıb. İranın hazırkı ehtiyatı nüvə silahı istehsal etmək üçün lazım olan miqdara yaxınlaşdırır.

ABŞ-İran münasibətləri yanvar ayında general-leytenant Qasim Süleymaninin ölümünə səbəb olan ABŞ-ın hava hücumundan sonra gərgin vəziyyətə gəlib.



2016-cı ildə İran və Çin, ABŞ Senatının JCPOA-nı müqavilə olaraq təsdiq etmədiyi nəzərə alınaraq, investisiya və ticarətin artırılmasına yönəldilmiş strateji ortaqlığa imza atıb.

Çinin qlobal təsir istəyi ABŞ-la Sakit okeandakı gücü rəqabətdən kənara çıxır. Borc tələsi diplomatiyası üçün "Bir qurşaq-Bir yol" təşəbbüsündən istifadə edərək, Çin inkişaf etməkdə olan bütün Cənubi Asiya dövlətlərinin müstəqilliyinə məhdudiyyət qoyub.

Son 10 ildə Çinin İran, İraq və Səudiyyə Ərəbistanına yatırımları xeyli artıb. Çin şirkətləri ABŞ Hərbi Dəniz Qüvvələrinin 6-cı Donanmasının tez-tez lövbər atdığı Hayfa limanını idarə edir. Pekinin enerji idxalına olan doyumsuz ehtiyacı Yaxın Şərqdəki marağını diktə edir. İran-Səudiyyə münaqişəsinin hər iki tərəfi ilə müsbət ikitərəfli əlaqələri qorumağa çalışan Çin Yaxın Şərqin təhlükəsizlik problemlərinin öhdəsindən gəlmək üçün ABŞ və regional gücləri məqsədyönlü şəkildə dalaşdırır.

Çin hökumətləri islahata təşviq etməyə və ya insan haqları məsələlərini qaldırmağa çalışmır. Yaxın Şərq dövlətləri bu günə qədər Çinin Sincan bölgəsində müsəlman azlığa qarşı siyasətini tənqid etməkdən çəkinibləр.

Əlbəttə ki, Çin uzun müddət Şimali Koreya kimi repressiv rejimə iqtisadi yırtıcılıq maraqları təklif edən milli təhlükəsizlik strategiyasını həyata keçirib.

Çin İranın hazırkı iqtisadi sıxıntısını təsir imkanlarını genişləndirmək üçün bir fürsət olaraq görür.

Birləşmiş Ştatların hərəkətləri Çinin ABŞ və müttəfiqlərinin milli təhlükəsizlik maraqlarına qarşı getdikcə artan təcavüzkar hücumlarının qarşısını almağa yönəlib. ABŞ-ın naviqasiya əməliyyatları azadlığı iradı Çinin Cənubi Çin dənizində əsassız hegemonluq iddialarını çətinləşdirir. Çin Birləşmiş Ştatlara və müttəfiqlərinə qarşı casusluq kampaniyası aparır, əqli mülkiyyəti oğurlayır və Honq-Konqda demokratiya fəallarını əzir. Koronavirusun başlanğıcını bilərəkdən gizlədən Çin digər dövlətləri Çinin imicini "ağartmaq" üçün hazırlanan təbliğatına uymağa məcbur edir.

İran "Faust sövdələşmələri" ərəfəsindədir. Tehran, şübhəsiz ki, Çinin kütləvi neft, qaz və karbohidrogen bazarlarına çıxış, öz bank, telekommunikasiya və nəqliyyat sektorlarına investisiya və vətəndaşlarının xarici dünyaya bağlayan kibermәkanı Çin texnologiyası ilə məhdudlaşdırmağa ümid edir. Lakin İran 1979-cu il inqilabını rəhbər tutan prinsipləri pozaraq öz suverenliyinin bir hissəsini müştəri Çinin dövlətinə satmaq təhlükəsinə məruz qalır.

ABŞ-Çin münaqişəsinin mərkəzində - ABŞ-Sovet İttifaqı rəqabəti dövründə olduğu kimi - Çinin avtokratik, kommunist dövlətinə mövcud təhlükə olan demokratik azadlıq, plüralizm prinsipləri durur.

Birləşmiş Ştatlar və Sovet İttifaqı heç vaxt bir-birlərinə müharibə elan etməyib, lakin Soyuq müharibə onların iştirak etdiyi proksi münaqişələrin sayı ilə tanınıb. Sovetlər qlobal nüfuzunu genişləndirməyə çalışarkən, ABŞ-ın məqsədi kommunizmin yayılmasını qarşısını almaq olub.

İran-Çin ittifaqı Yaxın Şərqdə dərhal taktiki təsirlər doğuracaq, lakin bu həm ABŞ, həm də Çin üçün heç bir fayda gətirməyən 21-ci əsrin Soyuq müharibəsi olacaq.

***Daniel Hoffman***
***"Əl-Monitor", 23.06.2020***

# PKK-nın daha bir önəmli qalası ələ keçirilmək üzrədir

## TÜRK ORDUSU ABŞ-ın VERDİYİ KOORDİNATLARI NİYƏ ZİBİL YEŞİYİNƏ TULLADI?

***Son 5 ildə qoyulan investisiyalarla öz texniki imkanlarını artıran Türkiyə Silahlı Qüvvələri (TSQ) sərhədlərimiz daxilində olduğu kimi, xarici əməliyyatlarda da olduqca uğurlu nəticələr əldə edir. Suriya və İraqda İŞİD və PKK terror təşkilatlarına qarşı aparılan mübarizədə risklərə rəğmən, qərarlılıqla cəsur addımların atıldığını qeyd etmək lazımdır.***

Türkiyənin regional siyasətdə imkanlarının artması, üzərinə dominant rollar götürməsi və regional məsələlərlə bağlı mexanizmlərdə yer alması ilə birlikdə, terroru dəstəkləyən ölkələrin sayında artım olub. İllərdir təşkilata dəstək verən İran, Suriya, Fransa və ABŞ kimi ölkələrə BƏƏ, Səudiyyə Ərəbistanı və Misir kimi ölkələr də əlavə olunub.

Terror təşkilatı PKK indiyədək yalnız müdafiəçilərinin verdiyi açıq dəstəklə, kəşfiyyat təşkilatlarının qucağında verilən təlimatlara uyaraq ayaqda qalır. Rusiya-ABŞ balansı isə hələ ki, təşkilatı ayaqda tutan yeganə əsas ünsürdür. Suriyada bir gün ABŞ-ın hərbi vəzifəli şəxsləri ilə masa arxasında poza verən PKK, bir gün sonra da ruslarla poza verərək öz bazarlıq payını artırmağa çalışır.

ABŞ PKK-nı Suriyadan kənarda, İraq sərhədləri daxilində də təsirli güc halına gətirmək xəyalı içindədir. Bunun üçün də İraq konstitusiyasının 140-cı maddəsində qeyd olunan mübahisəli bölgələrdə PKK-nın rahat hərəkət edə bildiyi haqqında məlumatlar gəlir.

İraqın mərkəzi hakimiyyətinin də son 2 həftə ərzində 2 dəfə PKK rəhbərləri ilə Mahmur bölgəsindəki düşərgələrlə bağlı görüş keçirdiyinə dair məlumatlar var. Ancaq bu çox dəqiqdir ki, Suriyada PKK-ya qalxan olan ABŞ bənzər mövqeni İraqda da tutur.

İraqda dominant rol oynayan iki kürd partiyası arasındakı əlaqələr hər ötən gün daha dərin mübahisələrə sürükləndiyi halda, ABŞ və İran bölgədə, xüsusilə Süleymaniyyə-Kərkük xəttində PKK üzərindəki təsirlərini daha da gücləndirərək, bu terror təşkilatını önəmli bir oyunçu halına gətirmə dərdindədirlər.

Ötən həftə BƏƏ-nin Bağdaddakı siyasi işlər müşavirinin və Misirin Ərbildəki Baş konsulunun Süleymaniyyəyə yaxın olan Şehidan bölgəsində PKK rəhbərləriylə 4 saatdan artıq bir görüş keçirdiyi təsbit edilmişdir. Hər iki ölkənin də PKK-ya verdiyi maliyyə və hərbi təchizat dəstəyi artıq gizlədilə bilməyəcək səviyyəyə çatmış durumdadır.



ABŞ və digər ölkələrin PKK ilə olan mürəkkəb münasibətlərini diqqətə alan Türkiyə, 2018-ci ildə Hakkari bölgəsindən başlatdığı əməliyyatlara yenisini də əlavə edərək, Şırnak xəttindən PKK-nın önəmli qala kimi baxdığı Haftanin bölgəsinə yönəlik əməliyyat başlayıb.

Türkiyə Batife nahiyyəsində sərhəddi 15-30 km genişliyində və 45-50 km dərinliyində keçərək, 12 strateji bölgəyə yerləşib. Bu durum və ya mövqe müttəfiqimiz ABŞ-ı narahat etdiyindən həmən dövrəyə girdiyini öyrəndim.

Suriyada nümayişkaranə şəkildə PKK-ya TIR-larla təchizat daşıyan ABŞ, Türkiyənin Haftanin bölgəsinə yönəlik əməliyyat başladığı günlərdə terror təşkilatının öz canını qurtarmaq üçün bölgəni tərk etməsini görüb, ölkəmizdəki həmkarlarına məktub göndərərək, Türkiyə-İraq sərhəd xəttində, yəni hazırda Hakurk və Haftanin bölgələrində PKK-ya yönəlik davam edən əməliyyat bölgələrində 12 yerin koordinatlarını verərək, bu yerlərdə PUA və SPUA-ların uçurdulmamasını və əməliyyat keçirilməməsini istəyib. Əsas olaraq da bu bölgələrdə öz hərbçilərinin olmasına vurğu edib. Halbuki ABŞ-ın rəsmi uniformalı hərbçiləri Dohuk vilayətinin sərhədlərindən o biri tərəfə heç vaxt geçməyibdir.

Bu halda, ABŞ-ın vəzifəli şəxslərinin cavab verməli olduğu sual budur: Türkiyənin sərhəd xəttinə nə üçün hərbçi göndərdiniz? Əgər hərbçiləriniz orada yoxdursa, koordinatlarını göndərdiyiniz həmin 12 yerdə PUA və SPUA-ların uçuşunu əngəlləyərək hansı PKK-çıları qorumaq istədiniz?

Daha komik olan isə odur ki, ABŞ-ın göndərdiyi 12 koordinatdan 2-si Türkiyə sərhədləri daxilindəki bölgələrə uyğun gəlir. Belə çıxır ki, ABŞ hərbçiləri ya xəritə dərsi almadan döyüş meydanlarına çıxmışlar, ya da yollarını azmışlar...

Maraqlananlar üçün isə deyim ki, ABŞ-dan gələn koordinatlar zibil qutusuna atıldı və hazırda o yerlərdə əməliyyatlar davam edir. PUA və SPUA-lar da öz uçuşlarını davam etdirir.

***Çətinər Çətin***
***"Habertürk", Türkiyə,***
***20 iyul 2020-ci il***

***Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Azərbaycanın Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına qarşı erməni təxribatları

## Elxan Şahinoğlu: "Bunu işğalçı Ermənistana qarşı azərbaycanlıların birgə başlatdığı təzyiq mexanizmi kimi də anlamaq olar"

***Azərbaycan illərdir ki, Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yönündə bütün dünyanın seçdiyi sivil siyasəti davam etdirir. Dağlıq Qarabağ münaqişəsi zamanı torpaqlarımızın işğal edildiyi, qaçqın və məcburi köçkünlərimizin öz dədə-baba yurdlarından didərgin düşməsi, əsir və girov götürülən vətəndaşlarımızla bağlı həqiqətlər heç bir təxribat törədilmədən beynəlxalq təşkilatların diqqətinə çatdırılır.Amma son günlər Ermənistan vətəndaşlarının Avropada azərbaycanlı gənclərə qarşı vandalizmi davam edir. Tovuz döyüşlərindən sonra ermənilərin xaricdəki soydaşlarımıza qarşı törətdikləri hadisələr dünya ictimaiyyəti tərəfindən də pislənir. Bu günlərdə Belçikanın paytaxtı Brüsseldə bir neçə erməni gənc təxribat törədərək azərbaycanlı gənclərə hücum ediblər. Buna bənzər hadisə Los-Ancelesdə də yaşanıb.***

Qeyd edək ki, Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün hətta xarici ölkələrdə etirazı belə piketlərlə, dinc şəkildə həyata keçirsə də, mənfur düşmənlərimiz vandal siyasət yürüdür. Politoloq Elxan Şahinoğlu deyir ki, hazırda baş verən bu proseslər Ermənistan hakimiyyətinin atəşkəsi pozması, sülh danışıqlarına mane olmasından qaynaqlanır. Politoloqun sözlərinə görə, soydaşlarımıza qarşı Avropada ermənilərin törətdikləri son vəhşiliklər Dağlıq Qarabağ münaqişəsinin müharibə yolu ilə həllini tətikləyir: "Dağlıq Qarabağda erməni separatizmi 1987-ci ildə baş qaldırdı, Xankəndində və İrəvanda mitinqlər başlayaraq Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi şüarları səsləndirildi. Azərbaycan cəmiyyəti ermənilərin təxribatına hazır deyildi, keçmiş SSRİ rəhbərliyinin erməni təxribatına adekvat cavab verəcəyinə ümidlər var idi. Cavab verilmədi, tam əksinə, SSRİ-nin rəhbəri Mixail Qorbaçovun ətrafındakılar erməni separatizminə açıq rəğbət bəslədilər. Daha sonra erməni separatçılarının silahlanmasına göz yumuldu və azərbaycanlıların yaşadıqları məntəqələrə silahlı hücumlar qeydə alındı. SSRİ-nin dağılmasıyla Azərbaycanla Ermənistan arasında genişmiqyaslı müharibə başladı. Ancaq həmin illərdə belə müxtəlif ölkələrdə yaşayan azərbaycanlılarla ermənilərin ciddi toqquşmaları qeydə alınmadı. Bu dəfə isə durum fərqlidir. Azərbaycan-Ermənistan sərhəddindəki döyüşlərə dünyanın müxtəlif ölkələrində azərbaycanlılarla ermənilərin qarşıdurması damğasını vurdu. Bəzi ölkələrdə azərbaycanlılar Azərbaycanın səfirliyini ermənilərin hücumlarından qoruyurdusa, digərlərində isə əksinə ermənilər öz səfirliklərinə sığınmaq məcburiyyətində idilər. İlk dəfəydi ki, səfirliklərimiz soydaşlarımızla birgə mübarizə apardılar. İyulun 12-də sərhəddə azərbaycanlı hərbçilərə hücum və generalımızın şəhid olması xaricdə yaşayan milyonlarla azərbaycanlının da hissiyatına toxunub. Buna baxmayaraq, sərhəddə olduğu kimi xarici ölkələrdə də təxribatı ermənilər törətdi. Ermənilərin Azərbaycanın Los-Ancelesdəki konsulluğu ətrafına toplaşan azərbaycanlılara hücum etməsi, Brüsseldə erməni qrupun azərbaycanlını vəhşicəsinə döyməsi ilə fitil yandı. Əgər sərhəddə toplar, raketlər və pilotsuz uçuş aparatları hədəfləri vurursa, səfirliklər qarşısında yumruqlar və təpiklər havada uçuşurdu. Azərbaycanlılar Los-Ancelesdəki təxribatın intiqamını Moskvada, Kiyevdə və başqa şəhərlərdə aldılar. Bu Ermənistan hakimiyyətinə, erməni lobbisinə, Los-Ancelesdə, Brüsseldə və digər şəhərlərdə yaşayan ermənilərə xəbərdarlıq idi ki, yenə azərbaycanlılara qarşı təxribatlara baş vursalar, bu onların özlərinə ziyan vuracaq. Bundan artığına ehtiyac yoxdur, fərqli ölkələrdə erməni təxribatı ilə mübarizəni hüquqi müstəvidə davam etdirmək lazımdır. Los-Ancelesdə və Brüsseldə azərbaycanlılara qarşı təxribatlar törədildiyi saatlarda Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasını keçirirdi. O müxtəlif ölkələrdəki soydaşlarını təxribatlardan çəkindirmək əvəzinə vəziyyəti daha da gərginləşdirən açıqlama verdi. Ermənistanın baş naziri dedi ki, sərhəddəki döyüşlər fonunda dünyadakı erməni lobbisinin fəaliyyətindən məmnun qalıb. Bu o deməkdir ki, azərbaycanlılara qarşı təxribat əmri elə İrəvandan verilib. Bu Xocalı soyqırımını planlayan və həyata keçirən düşüncə tərzinin davamıdır. Bundan başqa Paşinyan hakimiyyətə gəldiyi gündən bu yana dəfələrlə söylədiyi tezisləri təkrarladı: "1. Azərbaycan Dağlıq Qarabağla birbaşa danışıqlar aparmalıdır; 2. Dağlıq Qarabağın təhlükəsizliyi məhdudlaşdırıla bilməz; 3. Dağlıq Qarabağın özmüqəddəratını təyin etmə hüququ olmalıdır; 4. Azərbaycan Ermənistana və Dağlıq Qarabağa güc tətbiqi fikrindən rəsmən imtina etməlidir". Ermənistanın baş naziri faktiki olaraq Azərbaycana "kapitulyasiya" təklif edir. Nikol Paşinyanın bu bəyanatından sonra işğalçı ölkə ilə danışıqların davam etdirilməsinin mənası yoxdur. Çünki, sərhəddəki 4 günlük döyüşlərdən sonra masada dəyişən bir şey yoxdur. Paşinyan bir müddət sonra Şuşada yenidən yallı oynamağa gedəcək. Görünür, sərhəddəki döyüşlərdən sonra erməni hərbçilərin rusiyalı həmkarlarıyla birgə Azərbaycanın pilotsuz uçuş aparatlarına qarşı İrəvanda keçirdikləri birgə təlimlər Paşinyanı bir az daha da cəsarətləndirib. Ancaq başda Rusiya olmaqla müxtəlif ölkələrdə yaşayan azərbaycanlıların erməni təxribatına qarşı verdikləri cavab həm də onu göstərir ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlamasına müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar seyrçi qalmayacaqlar, ona görə də son günlər Moskvada azərbaycanlı iş adamlarının bir hissəsi ermənilərlə ticarət aparmaqdan imtina ediblər. Bunu işğalçı Ermənistana qarşı azərbaycanlıların birgə başlatdığı təzyiq mexanizmi kimi də anlamaq olar. Mümkündür ki, İranda yaşayan azərbaycanlılar da ermənilərlə ticarət əlaqələrinə göz gəzdirsinlər. Nəzərə almaq lazımdır ki, iki ölkə arasında növbəti hərbi qarşıdurma zamanı yenidən xarici ölkələrdəki səfirliklərimiz və soydaşlarımız ermənilərin təxribatlarıyla üzləşə bilərlər. Ermənilərin "ASALA" kimi terrorçu təşkilatlarını hərəkətə keçirəcəkləri də istisna deyil. Onların bu "sahədə" təcrübələri böyükdür. Bu məqsədlə Azərbaycan Xarici İşlər Nazirliyi ilə Diaspora Komitəsinin birgə çalışması və müxtəlif ssenarilərə hazır olması gərəkdir. Necə ki, azərbaycanlılar 1905-ci ildə erməni terrorizmi ilə üzləşəndə təşkilatlanmış və təxribatlara qarşılıq vermişdi, bu gün də həmin tarixi dərsi öyrənməyə ehtiyac var".



Xatırladaq ki, Brüsseldə ermənilər həmyerlilərmizə qarşı fiziki zorakılıq göstərib, Azərbaycan xalqını təhqir ediblər. Eduard Baqramyan adlı şəxs isə törədilən cinayəti lentə alıb. Tanınmış satirik yazar Mirzə Sakitin oğlu Cahandar da dünən keçirilən aksiya zamanı ermənilər tərəfindən döyülüb. O, bu barədə oğlunun fotosunu sosial şəbəkədə paylaşaraq bildirib. Los Ancelesdə yaşayan ermənilər iyulun 21-də Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun binasını əhatəyə alaraq ölkəmizə qarşı aqressiv və təxribatçı şüarlarla etiraz aksiyası keçiriblər. Los

Ancelesdəki Baş Konsulluqdan verilən xəbərə görə, ancaq onların gözləmədikləri halda, Kaliforniyada yaşayan Azərbaycan icmasının üzvləri yüzlərlə ermənininin qarşısına çıxaraq, onların bu təxribatına mane olublar. Azərbaycanlı icma üzvlərimiz Ermənistanın Azərbaycana qarşı təcavüzü və etnik təmizləmə siyasətini ifşa edən, işğal nəticəsində 1 milyona yaxın dinc azərbaycanlının öz doğma yurdlarından didərgin düşdüyünü əks etdirən ingilis dilində "Qarabağ Azərbaycandır!", "Ermənistanın təcavüzünə son qoyun!", "Xocalıya Ədalət", "Ermənistan COVID-19 pandemiyası dövründə Azərbaycana qarşı müharibəyə başlayır. Ar olsun!" və digər çoxsaylı şüarlar yazılan şəkilli plakatlar nümayiş etdirərək, erməniləri susdurublar. Çoxlu sayda erməninin qarşısına çıxan azərbaycanlıların bu cəsarətindən hiddətlənən və məqsədlərinə nail ola bilməyən radikal erməni daşnakları həmyerlilərimizə qarşı zorakılıq və aqressiya nümayiş etdirməyə başlayıblar. Belə ki, onlar idarə etdikləri avtomobillərdən azərbaycanlılara təhqirlər yağdırıblar və onlardan bir neçəsi avtomobillərini həmyerlilərimizin üzərinə sürməyə çalışıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı

# Polisdən növbəti əməliyyat - "Avtoş Elnur" və dəstəsi tutuldu



***Siyəzən Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları tərəfindən rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsində və alqı-satqısında şübhəli bilinən şəxslərin tutularaq məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti uğurlu əməliyyat tədbirləri keçirilib.***

DİN Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan verilən məlumata görə, polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon sakini Elçin Kəlbiyev yaşadığı evin yaxınlığında saxlanılaraq RPŞ-yə gətirilib.

Burada onun üzərinə keçirilən şəxsi baxış zamanı ondan ümumi çəkisi 22 qramdan çox narkotik maddə olan heroin və metamfetamin aşkar olunaraq götürülüb.

Elçin Kəlbiyev ifadəsində narkotik maddələri satış məqsədi ilə Xızı rayon sakini Rəsul Qədirovdan 700 manata aldığını bildirib.

Əməliyyat tədbirlərinin davamı olaraq şöbə əməkdaşları tərəfindən Rəsul Qədirovun yaşadığı ünvan müəyyənləşdirilib və ona məxsus Xızı rayonunun Sitalçay kəndi ərazisində yerləşən evinə keçirilən baxış zamanı oradan 1 kiloqramdan artıq qurudulmuş marixuana, 1,5 qrama yaxın heroin, eləcə də həyətyanı sahəsindən hündürlüyü 160-210 sm, ümumi çəkisi isə 34 kiloqramdan artıq olan xüsusi aqrotexniki qaydada qulluq edilərək yetişdirilmiş 108 ədəd çətənə bitkiləri aşkar edilərək maddi sübut kimi götürülüb.

Şöbə əməkdaşları tərəfindən keçirilən digər bir əməliyyat tədbirləri nəticəsində rayon ərazisində narkotiklərin satışını həyata keçirən "Avtoş Elnur" ləqəbi ilə tanınan Elnur Əliyev saxlanılıb. Lakin saxlanılan zaman E.Əliyev məsuliyyətdən azad olmaq üçün üzərində olan narkotik maddəni yerə ataraq qaçıb. RPŞ-nin əməkdaşları tərəfindən adı çəkilən şəxs rayon ərazisində tutularaq şöbəyə gətirilib. Dindirilmə zamanı E.Əliyev narkotikləri satışı ilə məşğul olduğunu etiraf edərək, narkotik maddələri Şabran rayon sakini Cavid Məmmədovdan əldə etdiyini bildirib.

RPŞ-nin əməkdaşları tərəfindən Cavid Məmmədov da saxlanılıb və ona məxsus Şabran rayonu ərazisində yerləşən fərdi yaşayış evinə keçirilən baxış zamanı oradan satış məqsədi ilə kibrit qutularında və sellofan torbalarda qablaşdırılmış ümumi çəkisi bir kiloqramdan artıq olan qurudulmuş marixuana və 5 qramdan artıq tiryək aşkar olunaraq götürülüb.

Qeyd olunan faktlarla bağlı saxlanılan şəxslər barəsində Siyəzən RPŞ-nin İstintaq Bölməsində AR Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.

# Baş Prokurorluq dəhşətli qətllə bağlı məlumat yaydı

***İyulun 19-da paytaxtın Xətai rayon sakini 1981-ci il tarixli Əkbər Nuriyevin itkin düşməsi barədə ailə üzvlərinin müraciəti Xətai rayon polis idarəsinə daxil olub.***

"Unikal" Baş Prokurorluğun mətbuat xidmətinə istinadən xəbər verir ki, həmin müraciət əsasında aparılan araşdırma zamanı prokurorluq və polis əməkdaşlarının yüksək peşəkarlıqla həyata keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində törədilmiş gizli cinayətin "isti izlər"lə açılması təmin edilərək itkin düşmüş Əkbər Nuriyevin Lerik rayonu ərazisində qəsdən öldürülməsi müəyyən edilib.

Araşdırmalarla 1960-cı il təvəllüdlü Akif Rzayevin kürəkəni Əkbər Nuriyevi iyulun 19-da Lerik rayonuna aparmasına, orada ailə daxilində baş verən narazılıqlar səbəbindən aralarında yaranmış mübahisə zamanı küt əlatlə baş nahiyyəsinə zərbələr endirməklə qəsdən öldürməsinə, törətdiyi cinayətin izlərini itirmək məqsədi ilə meyiti yandıraraq basdırmasına əsaslı şübhələr müəyyən edilib.

Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş, meyit gizlədilmək məqsədi ilə basdırılmış yerdə yanmış vəziyyətdə aşkar edilərək məhkəmə-tibb ekspertizasının keçirilməsindən ötrü aidiyyəti üzrə təhvil verilib.

Faktla bağlı Lerik rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, Akif Rzayev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

Hazırda iş üzrə zəruri və intensiv istintaq tədbirləri davam etdirilir.

# Siyəzəndə narkotik satan iki dəstə ifşa edildi

***Siyəzən rayon polis şöbəsi rayon ərazisində narkotik vasitələrin qanunsuz dövriyyəsində və alqı-satqısında şübhəli bilinən şəxslərin tutularaq məsuliyyətə cəlb edilmələri istiqamətində növbəti uğurlu əməliyyat tədbirləri keçirib.***



DİN Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan "Unikal"a verilən məlumata görə, əməliyyat tədbirləri nəticəsində rayon sakini Elçin Kəlbiyev yaşadığı evin yaxınlığında saxlanılaraq RPŞ-nə gətirilib.

Onun üzərinə keçirilən şəxsi baxış zamanı ondan ümumi çəkisi 22 qramdan çox narkotik maddə olan heroin və metamfetamin aşkar olunaraq götürülüb. Elçin Kəlbiyev ifadəsində narkotik maddələri satış məqsədi ilə Xızı rayon sakini Rəsul Qədirovdan 700 manata aldığını bildirib.

Əməliyyat tədbirlərinin davamı olaraq şöbə əməkdaşları tərəfindən Rəsul Qədirovun yaşadığı ünvan müəyyənləşdirilib və ona məxsus Xızı rayonunun Sitalçay kəndi ərazisində yerləşən evinə keçirilən baxış zamanı oradan 1 kiloqramdan artıq qurudulmuş marixuana, 1.5 qrama yaxın heroin, eləcə də həyətyanı sahəsindən hündürlüyü 160-210 sm, ümumi çəkisi isə 34 kiloqramdan artıq olan xüsusi aqrotexniki qaydada qulluq edilərək yetişdirilmiş 108 ədəd çətənə bitkiləri aşkar edilərək maddi sübut kimi götürülüb.

Şöbə əməkdaşları tərəfindən keçirilən digər bir əməliyyat tədbirləri nəticəsində rayon ərazisində narkotiklərin satışını həyata keçirən "Avtoş Elnur" ləqəbi ilə tanınan Elnur Əliyev saxlanılıb. Lakin saxlanılan zaman E.Əliyev məsuliyyətdən azad olmaq üçün üzərində olan narkotik maddəni yerə ataraq qaçıb. RPŞ-nin əməkdaşları tərəfindən adı çəkilən şəxs rayon ərazisində tutularaq şöbəyə gətirilib. Dindirilmə zamanı E.Əliyev narkotikləri satışı ilə məşğul olduğunu etiraf edərək, narkotik maddələri Şabran rayon sakini Cavid Məmmədovdan əldə etdiyini bildirib.

RPŞ-nin əməkdaşları tərəfindən Cavid Məmmədov da saxlanılıb və ona məxsus Şabran rayonu ərazisində yerləşən fərdi yaşayış evinə keçirilən baxış zamanı oradan satış məqsədi ilə kibrit qutularında və sellofan torbalarda qablaşdırılmış ümumi çəkisi bir kiloqramdan artıq olan qurudulmuş marixuana və 5 qramdan artıq tiryək aşkar olunaraq götürülüb.

Qeyd olunan faktlarla bağlı saxlanılan şəxslər barəsində Siyəzən RPŞ-nin İstintaq Bölməsində AR Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, istintaq aparılır.

# Bakıda qız üstündə qohumunu öldürən Rəmişin işi məhkəmədə

***Bakıda bibisi oğlunu öldürməkdə təqsirli bilinən Rəmiş İsmiyevin cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***



Teleqraf.com xəbər verir ki, cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

İş araşdırılması üçün hakim Cavid Hüseynovun icraatına verilib. Yaxın günlərdə məhkəmə başlanacaq.

İttihama görə, bu il yanvarın 8-də saat 21 radələrində Şabran rayon sakini Rəmiş İsmiyev Suraxanı rayonunun Bülbülə qəsəbəsində kirayədə yaşadığı evdə onunla birgə yaşayan bibisi oğlu, 23 yaşlı Cavid Muxtarova bıçaqla xəsarət yetirib. Cavid Muxtarov xəstəxanaya aparılarkən yolda ölüb.

Rayonun polis və prokurorluq orqanları əməkdaşlarının keçirdikləri təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində qəsdən adam öldürməkdə şübhəli bilinən Şabran rayon sakini Rəmiş İsmiyev saxlanılıb.

Araşdırmalar zamanı məlum olub ki, qohumlar arasında mübahisə qız üstündə yaranıb.

Belə ki, hadisə günü Cavid Muxtarov dayısıoğlu, həmyaşıdı Rəmiş İsmiyevlə kirayədə qaldıqları evdə yeyib-içəndən sonra mübahisələri düşüb və Rəmiş ona bıçaqla xəsarət yetirib.

İki qohum internetdə tanış olduqları qıza görə mübahisə ediblər. Gənclərin hər ikisi həmin qızla görüşmək istəyib. Cavid Muxtarov geyinib və görüş üçün qapıdan çıxmaq istəyərkən dayısı oğlu ona mane olub və bıçaqla zərbə vurub. Xəstəxanaya aparılarkən Cavid Muxtarov yolda ölüb.

Qeyd olunur ki, həm Cavid Muxtarov, həm də Rəmiş İsmiyev subay olublar. Onlar paytaxta fəhləliklə məşğul olublar.

İstintaq orqanı tərəfindən Rəmiş İsmiyevin barəsində Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) maddəsi ilə ittiham elan edilib.

# Lerikdə qayınata kürəkənini öldürüb yandırdı

***Lerik rayonunda dəhşətli qətl hadisəsi baş verib. "Unikal" "Report"a istinadla xəbər verir ki, hadisə rayonun Çayrud kəndində qeydə alınıb.***

Belə ki, 1960-cı il təvəllüdlü Rzayev Akif Yədulla oğlu kürəkəni, 1981-ci il təvəllüdlü Nuriyev Əkbər Məhəmmədəli oğlunu meşə ərazisində qətlə yetirib, daha sonra yandırıb. İzi itirmək üçün isə meyiti hadisə yerində basdırıb.

İlkin məlumata görə, hadisə ötən ayın 20-də baş verib.

Bakı şəhərinin Xətai rayonunda yaşayan qayınata və kürəkən paytaxtdan birlikdə Lerikə gəliblər. Lakin A. Rzayev Bakıya tək qayıdıb.

Ailə üzvləri narahat olduqları üçün bir neçə gün sonra Ə. Nuriyevin itkin düşməsi barədə polisə məlumat veriblər.

İlkin istintaq tədbirləri əsnasında şübhəli şəxs qismində dindirilən qayınatanın ailə münaqişəsi zəminində kürəkənini aldadaraq Lerik rayonu ərazisinə gətirdiyi və Çayrud kəndi ərazisindəki meşəlikdə qətlə yetirərək basdırdığı müəyyən edilib.

Hüquq-mühafizə orqanları əməkdaşlarının iştirakı ilə bu gün hadisə yerinə baxış keçirilib.

Meyit ekskumasiya edilərək Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran şöbəsinə gətirilib.

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

# Bakıda evinə "kupça" almaq istəyənlərə şad xəbər

***Bakı şəhərində istismarına icazə verilən yeni çoxmənzilli binalardakı mənzillər mülkiyyət hüququnu təsdiq edən sənədlə təmin edilir. Bu prosesin davamı olaraq, iyulun 24-də "Əmlakını qeydiyyata al və mülkiyyətinə sahib ol" kampaniyası çərçivəsində Bakı şəhəri, Yasamal rayonu, Lev Tolstoy küçəsi, 124 ünvanında keçirilmiş növbəti səyyar sənəd qəbulunda sakinlərdən 32 mənzilə dair elektron çıxarışın hazırlanması üçün ilkin sənədlər qəbul edilib.***

Növbəti sənəd qəbulu isə iyulun 25-də, saat 11:00-dan 17:00-dək Bakı şəhəri, Nəsimi rayonu, Azadlıq prospekti, 990 ünvanında keçiriləcər.



Mənzillərin İqtisadiyyat Nazirliyinin müvafiq strukturunda səyyar qeydiyyatı Azərbaycan Respublikası Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" 2019-cu il 19 fevral tarixli Fərmanı ilə müəyyənləşdirilmiş vəzifələrin icrası çərçivəsində həyata keçirilir.

Qeyd edək ki, Fərman imzalandığı gündən indiyədək istismarına icazə verilmiş, müxtəlif mənzil-tikinti kooperativlərinin (MTK) inşa etdiyi 279 yaşayış binasında 22322 mənzilə elektron çıxarış verilib.

Bununla yanaşı, Bakı şəhəri üzrə istismarına icazə verilmiş 44 yaşayış binasını inşa edən şirkətlərin təşkilati-hüquqi formanı əvvəlcədən düz seçməməsi səbəbindən həmin yaşayış binalarındakı mənzillərin sənədləşdirilməsində fasilə yaranmışdı. Binaların sadələşdirilmiş şəkildə istismara qəbulu ilə bağlı dövlət başçısının müvafiq Fərmanının tələblərinə əsaslanaraq və vətəndaşların mənafeyi nəzərə alınaraq məhdud məsuliyyətli cəmiyyətlər tərəfindən inşa olunmuş binalardakı mənzillərə MTK-larda olduğu kimi, mövcud sənədlər əsasında mülkiyyət hüququnun qeydiyyata alınması qərara alınıb. Bununla da, 16595 mənzilə mülkiyyət sənədlərinin verilməsinə şərait yaradılır.

Bakıda istismarına icazə verilən yeni binalardakı mənzillər çıxarışla təmin olunduqdan sonra isə proses Xırdalan, Yevlax və Gəncə şəhərlərində davam etdiriləcək. Hazırda bu şəhərlərdə istismarına icazə verilmiş, lakin mənzilləri mülkiyyət hüququnu təsdiq edən sənədlə təmin edilməyən 4 yaşayış binası mövcuddur.

Qeyd edilən binalardakı mənzillərin çıxarışla təmin edilməsinin bu ilin sonunadək tam başa çatdırılması planlaşdırılır. Prosesin daha çevik və vətəndaşlar üçün rahat formada keçirilməsi məqsədi ilə əvvəlcədən elan olunmuş ünvanlarda, müəyyən edilən qrafik üzrə sənədlərin səyyar qəbulu mütəmadi olaraq keçiriləcəkdir.

# Azərbaycanda 2 min 600 nəfərin əlilliyi ləğv olundu

***Əlilliyin qiymətləndirilməsi sisteminin şəffaflaşdırılması istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən görülən tədbirlər 2020-ci ilin ötən dövründə davam etdirilib.***

Nazirlikdən "Unikal"a bildirilib ki, müvafiq işçi qrupu tərəfindən xəstəlik sənədləri şübhə doğuran əlillik təyinatları üzrə aparılan araşdırmalar zamanı daha 2 min 600 əlillik təyinatının reallığı əks etdirməyən saxta tibbi sənədlərlə tərtib olunmuş əsassız göndərişlər əsasında aparıldığı aşkar edilib.



Həmin əlillik təyinatları ləğv olunub və təyin olunan sosial təminat növləri üzrə ödənişlər dayandırılıb. Bunun da nəticəsi olaraq, büdcə vəsaitinin həmin ödənişlər üzrə qeyri-qanuni istiqamətə xərclənməsinin qarşısı alınmaqla, illik 9,5 milyon, ümumi gözlənilən xərclər üzrə 225 milyon manat dövlət vəsaitinə qənaət edilib.

Ümumilikdə isə son iki ildə aparılan araşdırmalar nəticəsində 6 min 300 əlillik təyinatının əsassız göndərişlər əsasında aparıldığı aşkar olunaraq ləğv edilib. Nəticədə illik 29 milyon, ümumi gözlənilən xərclər üzrə 735 milyon manat büdcə vəsaitinə qənaət olunub.

# Kapital Bank tender qarantiyalarına endirimlər elan etdi

***Kapital Bank kiçik və orta sahibkarlığın inkişafına, həmçinin bu sahədə çalışanlara endirimli şərtlər təklif etməklə öz töhfəsini verir. Bu dəfə Kapital Bank-a müraciət edən sahibkarlar tender qarantiyaları üzrə komissiyalara endirimlər əldə edə biləcəklər.***

Şərtlərə görə, tender qarantiyaların birdəfəlik komissiyasına 50% endirim tətbiq edilir. Belə ki, müştərilər tender təminat məktubu əldə etdikləri zamanı isə cari birdəfəlik komissiyanın yalnız 50%-ni ödəyəcəklər. Aksiya 24 avqust 2020-ci il tarixədək davam edəcək.

Sahibkarlar tender qarantiyalarını Kapital Bank-ın istənilən filialından 1 iş günü ərzində təminatsız şəkildə əldə edə bilərlər. Tender qarantiyalarını Kapital Bank-dan əldə etməyin əsas üstünlüklərindən biri də təqdim olunan təminat məktublarının istənilən benefisiar tərəfindən tanınıb, qəbul edilməsidir.

Qeyd edək ki, Kapital Bank kiçik və orta sahibkarlar üçün hər zaman yeni məhsullar, kampaniyalar təqdim edir və müştərilərə xidmət keyfiyyətinin yüksək səviyyədə saxlanılması istiqamətində davamlı işlər aparılır.

Kapital Bank-ın KOS müştəriləri üçün nəzərdə tutulan Biznes Mərkəzləri Xətai, Səbail, Nəsimi, Gənclik, Yasamal, Mərkəz, 28 May filiallarında, həmçinin Sədərək TM-də yerləşən Ticarət filialı və Binə TM-dəki Lökbatan şöbəsində fəaliyyət göstərir. Biznes mərkəzlərində KOS müştərilərə xüsusi xidmət bölməsi ilə yanaşı fərdi müştəri menecerləri də vardır. Onlar sahibkarlara bankın təqdim etdiyi məhsullar barədə məlumat verməklə yanaşı, kredit, qarantiya, overdraft, faktorinq və digər maliyyələşmə məhsullarının sifarişlərini qəbul edirlər, biznesin inkişafı üçün maliyyə məsləhətləri və bir sıra digər xidmətlər də göstərirlər.

Kapital Bank

Bankın KOS seqmenti üçün təqdim etdiyi məhsul və xidmətlər barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytında "Biznes üçün" bölməsinə, (012) 310 09 99 korporativ məlumat mərkəzinə və ya Bankın müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə müraciət edə bilərsiniz.

# Qəbələdə karantini pozan hazırlıq mərkəzi aşkarlandı



***Qəbələ Rayon İcra Hakimiyyəti və Polis Şöbəsi əməkdaşları tərəfindən birgə keçirilən tədbirlər nəticəsində şəhər ərazisində karantin qaydalarını pozaraq, gizli fəaliyyət göstərən özəl uşaq hazırlıq mərkəzi aşkarlanıb.***

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, dərhal həmin mərkəzin fəaliyyəti dayandırılıb.

Obyekti işlədənə, uşaqların valideynlərinə və müəllimlərə ölkədə elan edilmiş karantin rejiminin qaydaları və tələbləri izah olunub. Qaydaları pozduqları üçün həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

# Ermənistanın kəndlərimizə və dinc əhaliyə vurduğu ziyan qiymətləndirilir



***Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Tovuz rayonunun Ermənistan Respublikası Silahlı Qüvvələrinin intensiv atəşə tutması nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Sərəncamının icrası ilə əlaqədar, aidiyyəti dövlət qurumları nümayəndələri və mütəxəssislərdən ibarət İşçi Qrup Ermənistanın hərbi təxribatı nəticəsində Tovuz rayonuna dəymiş ziyanın qiymətləndirilməsi işlərinə başlayıb.***

Hücuma məruz qalmış yaşayış məntəqələrində hərbi təcavüzdən zərər çəkmiş dinc əhalinin, onların əmlakının, dövlət obyektlərinin vəziyyəti hazırda mütəxəssislər tərəfindən öyrənilir, müvafiq müayinə və ekspertiza işləri aparılır.

Artıq mütəxəssislərdən ibarət 3 qrup Tovuz rayonunun atəşə məruz qalmış yaşayış məntəqələrində - Ağdam, Dondar Quşçu, Əlibəyli, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində 61 fərdi ev və təsərrüfat sahəsinə baxış keçirib. Baxış zamanı müəyyən olunub ki, 6 ev və yardımçı tikili tam yararsız vəziyyətə düşüb və əsaslı tikinti tələb olunur. Bundan başqa, 15 ev və yardımçı tikili, habelə tövlələrə ciddi zərər dəydiyi, 40 ev və təsərrüfatda isə yüngül fəsadlar olduğu müəyyənləşdirilib.

Bunlarla yanaşı, artilleriya atəşi nəticəsində fərdi təsərrüfatlara da ciddi ziyan dəyib. Belə ki, kənd sakinlərinin 20-25 xırdabuynuzlu heyvanı və 70-75 ev quşu tələf olub, qış ehtiyatı üçün toplanan 300-350 ot bağlaması tamamilə yanıb, bir sıra vətəndaşların şəxsi avtomobilləri mərmi qəlpələrindən ciddi zədələnib, 15 evdə vətəndaşların məişət əşyaları və həyətyanı əkin sahəsi zərər görüb.

İşçi qruplar tərəfindən dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə də baxış keçirib.

Hazırda vətəndaşların evlərinə, yardımçı tikililərinə, şəxsi əmlak və əkin sahələrinə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş zərərin həcmi və dəyəri qiymətləndirilir. Dəymiş ziyan tam müəyyən edildikdən və qiymətləndirmə aparıldıqdan sonra hökumət tərəfindən Tədbirlər Planı hazırlanacaq, fəsadların tam aradan qaldırılması ilə bağlı təkliflər Azərbaycan Prezidentinə təqdim ediləcək.

Qeyd edək ki, Tovuz rayonunun sərhəd bölgəsində Ermənistanın hərbi təxribatı nəticəsində dəymiş ziyanın aradan qaldırılması istiqamətində tədbirlər operativ olaraq həyata keçirilir.



# Ombudsman ermənilər tərəfindən törədilmiş təxribatları qınadı

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) xarici ölkələrdə yaşayan dinc azərbaycanlı aksiyaçılara qarşı erməni təxribatçıları tərəfindən törədilmiş hücumlara dair Bəyanatı yayılıb.***

"Unikal"xəbər verir ki, Bəyanatda deyilir: "Son günlər xaricdə yaşayan azərbaycanlılar sərbəst toplaşmaq və ifadə azadlığı hüquqlarından istifadə edərək Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədinin Tovuz rayonu istiqamətində əsasən mülki şəxsləri hədəfə almaqla törətdiyi hərbi təxribat xarakterli hücumlara etiraz etmək üçün müxtəlif ölkələrdə dinc aksiyalar təşkil etmişlər.

ABŞ-ın Kaliforniya ştatının Los-Anceles şəhərində yaşayan və dinc şəkildə etiraz etmək məqsədilə toplaşan az sayda azərbaycanlıya onlardan sayca dəfələrlə çox olan ermənilər tərəfindən hücum edilmişdir. Zorakılığa məruz qalaraq xəsarət almış soydaşlarımız xəstəxanaya yerləşdirilmiş, onların bir sıra hüquqları kobudcasına pozulmuşdur.

Az sayda azərbaycanlının yüzlərlə erməni tərəfindən psixoloji və fiziki zorakılığa məruz qaldığı bu insident Azərbaycan Respublikasının Los-Ancelesdəki Baş Konsulluğu qarşısında yaşanmışdır.

Bununla yanaşı, Belçikanın paytaxtı Brüssel şəhərində də analoji hadisələr baş vermiş, soydaşlarımıza ciddi xəsarətlər yetirilmişdir.

Ermənilər aqressiv hücumlar zamanı həm bir ölkə kimi Azərbaycanın, həm də xalq olaraq azərbaycanlıların ünvanına təhqiramiz ifadələr səsləndirmiş, nifrət zəminində çağırışlar etmişlər. Bu hadisə bir daha onu sübut edir ki, insan hüquqlarının davamlı pozuntularının kökündə hər zaman işğalçılıq siyasəti durur.

İnsan hüquqları sahəsində beynəlxalq sazişlərə əsasən, hər bir insan sərbəst toplaşmaq azadlığına və öz fikrini sərbəst ifadə etmək hüququna malikdir. Bu hüquq və azadlıqlar demokratiyanın təməlində durur və onun əsas tələblərindəndir. Beynəlxalq sazişlərə əsasən, dövlətlərin bu hüquqları təmin etmək və dinc aksiyaçıları müdafiə etmək öhdəliyi var.

Son bir həftə ərzində ABŞ və Belçika ilə yanaşı, Fransa, Böyük Britaniya, İsveç, Polşa, Niderland və Avstraliyada yaşayan azərbaycanlı dinc aksiyaçılara qarşı ermənilər tərəfindən törədilmiş təxribatçı hücumlardan narahat olduğumuzu bəyan edirik.

Mən bütün həmkarlarımı, Milli İnsan Hüquqları İnstitutlarını və insan hüquqları üzrə ixtisaslaşmış beynəlxalq təşkilatları dinc aksiyaçılara qarşı törədilmiş erməni hücumlarını qınamağa, bu cür etnik zəmində nifrəti təbliğ edən təxribatların qarşısını almağa, bir daha baş verməməsi üçün sərt tədbirlər görməyə, ən əsası, hüquq pozuntusuna yol vermiş şəxslərin müvafiq qaydada məsuliyyətə cəlb olunmalarına çağırıram".

***Zaurə Əmirova***

# QMİ sədri və dini icmaların rəhbərlərindən dünya ictimaiyyətinə müraciət

***Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və dini icmaların rəhbərləri - Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri Arxiyepiskop Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev, Alban-udi xristian dini icmasının sədri Robert Mobili dünya ictimaiyyətinə, dini liderlərə və beynəlxalq təşkilatlara müraciət edib.***

QMİ-dən "Unikal"a verilən məlumata görə, müraciətdə deyilir: "Biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iyulun 12-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhəddinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatı, dinc əhalini, yaşayış yerlərini, dini məbədləri davamlı atəşə tutmasını qətiyyətlə pisləyir və dünya ictimaiyyətini, dini liderləri və beynəlxalq təşkilatları bu hadisəyə biganə qalmamağa, müvafiq mövqe arasında etnik zəmində qarşıdurma hallarının yaşanması olduqca böyük təhlükənin göstəricisidir. Bu, separatizm, terror dalğası üzərində yaranmış, uzun müddət dondurularaq ədalətli həllini tapmayan regional konfliktin qlobal miqyas kəsb etməsinin acı təzahürüdür. Ermənilərin xaricdəki Azərbaycan diasporasını və diplomatik nümayəndəliklərimizi hədəf alması, üzərinə hücum etməsi həll olunmamış konfliktin fəsadlarıdır və dünya ictimaiyyəti buna biganə qalmamalıdır.

Birləşmiş Millətlər Təşkilatı bugünədək beynəlxalq hüququn və fundamental insan haqlarının keşiyində ardıcıl duran beynəlmiləl qurumdur. Bu il yaranmasının 75-ci ildönümü tamam olan BMT kimi mötəbər beynəlxalq strukturun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 4 qətnaməsinin tələbləri Ermənistan tərəfindən bugünədək yerinə yetirilmir. Bu qətnamələrin reallaşmasını təmin edəcək addımların düşünülməsi BMT-nin şanlı yubileyi ərəfəsində nüfuz və viyə keçməsinin qarşısı alınmışdır. Etibarlı sülh yalnız xoş məram və səmimi niyyət olarsa mümkündür. Lakin, təəssüflər olsun ki, erməni tərəfinin təxribatları növbəti dəfə münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində danışıqlar prosesinin pozulmasına gətirib çıxarır. Bu təxribatın bütün siyasi və hüquqi məsuliyyəti Ermənistan tərəfin üzərindədir.

Bütün səmavi dinlər dinc, günahsız insanların qətlini ən ağır cinayət kimi qiymətləndirir. Biz beynəlxalq ictimaiyyəti Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Dağlıq Qarabağ, onun ətrafındakı 7 rayonumuzda, həmçinin, hal-hazırda Azərbaycan-Ermənistan sərhəddində törətdiyi hərbi təxribatlar zamanı dinc insanların qətli kimi qəbuledilməz bir hala qarşı öz qətiyyətli münasibətini bildirməyə, təcavüz və təxribat hallarını kəskin qınamağa çağırır, bu kimi halların qarşısının alınması, ədalətli sülhün bərqərarı naminə səyləri birləşdirməyə çağırırıq. Yaradanımız qarşısında, xalqlarımız

nümayiş etdirməyə çağırırıq.

Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair beynəlxalq səyləri dəstəkləyirik və beynəlxalq təşkilatları, o cümlədən BMT-ni, ATƏT-in Minsk qrupunu mülki şəxsləri hədəf seçən bu cinayəti törədənlərə qarşı adekvat münasibət göstərilməsi istiqamətində səylərini birləşdirməyə çağırırıq. İndiyədək qoşunların təmas xəttində və hal-hazırda Ermənistan-Azərbaycan sərhəddində çoxsaylı insan tələfatları səbəbindən Azərbaycan xalqının, xüsusən gənclərin dövlət başçısının ətrafında sıx birləşərək kütləvi şəkildə orduya səfərbər olunub cəbhə xəttinə yollanmaq istəyi qürurverici vətənpərvərlik nümunəsidir, lakin biz din xadimlərini narahat edən Ermənistan tərəfindən hərbi təxribatlar davam edərsə münaqişənin alovlanaraq böyük müharibəyə çevrilmə ehtimalıdır. Bu reallıq 30 ildən artıq davam edən, dondurulmuş münaqişənin həlli ilə məşğul olan tərəflərin nəzərə almalı olduğu mühüm məqamdır. Bəzən işğalçı ilə işğala məruz qalan tərəfin eyniləşdirilməsi münaqişənin həllinə xidmət edə bilməz. Beynəlxalq hüquq və normalara riayət, istisnasız olaraq, hamının borcudur. Dinc əhaliyə qarşı silah işlədilməsi Ermənistan dövlətinin davamlı hərbi təcavüzünün, Azərbaycan xalqına qarşı həyata keçirilən etnik təmizləmə və terror aktlarının davamıdır. Atəşkəs elan edilməsinə rəğmən mülki əhalinin mütəmadi atəşə tutulması, qətlə yetirilməsi, ölüm təhlükəsi altında yaşamağa məcbur qoyulması, dini məbədlərin dağıdılması beynəlxalq müstəvidə təcavüzkara qarşı münasibəti kökündən dəyişməyin, növbətçi açıqlamalardan qətiyyətli addımlar atmaq mərhələsinə keçməyin vaxtının çoxdan çatdığını bir daha sübuta yetirir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin böyüyərək dünyanın müxtəlif qitələrinə, o cümlədən, Avropa, Amerika müstəvisinə keçməsi, xarici ölkələrdə yaşayan azərbaycanlılar və ermənilər




dəyərinin daha da artmasına xidmət edən məqam olardı.

Dünyanı məhvərindən çıxmaga qoymayan əbədi bəşəri dəyərlərə istinad edən din xadimləri bütün dünyada hər zaman sülh və anlaşma tərəfdarı kimi çıxış etməlidirlər. Vətənimiz Azərbaycan müxtəlif din ardıcıllarının dinc birgəyaşayışının gündəlik həyati reallıq, multikulturalizmin həyat tərzi olduğu nadir ölkələrdəndir. O Bir Olan Yaradanımız qarşısında məsuliyyətimiz biz, dini konfessiya rəhbərlərini sülh və mövcud problemlərin ədalətli həlli naminə səyləri dəstəkləməyə sövq edir. Lakin sülh və anlaşmaya nail olmağın yolu asan deyil və çoxlu zəhmət, güclü iradə, səylərin birləşdirilməsini tələb edir.

Münaqişə başlayan zamandan etibarən Rus Pravoslav Kilsəsinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan dini liderlərinin dəfələrlə sülhməramlı görüşləri baş tutmuşdur. Sülh və dinc yanaşı yaşamağa nail olmaq üçün qarşılıqlı etimadın gücləndirilməsi məqsədilə ünsiyyətlərin nəticəsi olaraq münaqişənin dinlərarası müstəqarşısında borc və məsuliyyətimiz biz, dini liderləri, sülh, mərhəmət və mövcud problemlərin ədalətli həlli naminə səy göstərməyə məsul edir. Bu əsnada, dünya katoliklərinin lideri Roma Papası Zati-müqəddəsləri Fransiskin Qafqaz regionunda Ermənistan və Azərbaycan arasında hərbi gərginliyin kəskinləşməsindən narahatlığını, son döyüşlərdə ölənlərin ailələri üçün dua etməsini yüksək dəyərləndirir, Pontifik həzrətlərinin təbirincə desək, beynəlxalq ictimaiyyətin köməyi ilə "dialoq və tərəflərin xoş istəyi ilə bu sevimli xalqların xeyrinə münaqişənin davamlı sülh ilə həll yolu əldə ediləbiləcəyinə" ümidini bölüşürük.

Ümidvarıq ki, dünya dini liderlərinin, beynəlxalq təşkilatların səyləri və dünya ictimaiyyətinin dəstəyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri əsasında tezliklə öz ədalətli həllini tapacaqdır. Uca Yaradan Yer üzündə sülhü və əmin-amanlığı bərqərar etsin! Amin!".

***Hüseyn İsgəndərov***

*Dünyanın müxtəlif bölgələrində azərbaycanlılara qarşı ermənilər tərəfindən zorakılıq halları sosial şəbəkələrdə geniş müzakirə olunmaqdadır.*



# Tanınmışlardan dünya azərbaycanlılarına müraciət: “Qarabağı arxa plana keçirmək istəyirlər”

Ermənilərin azərbaycanlılara güc tətbiq etməsinə cavab olaraq, xaricdəki soydaşlarımızı onlara qarşı eyni əmələ təhrik edənlər də var, təmkin göstərib təxribata uymamağa çağıranlar da.

Bəs maraqlıdır, medianın tanınmış simalarının belə məqamda dünya azərbaycanlılarına müraciəti nə olardı? Modern.az ziyalıların dünya azərbaycanlılarına müraciətini təqdim edir:

Azərbaycanın dəyərli aydınlarından biri, böyük araşdırmaçı, 1-ci dərəcəli müşavir-diplomat Ramiz Abutalıbov siyasi iradə ilə azərbaycanlıların daha uğurlu nəticə əldə edəcəyini deyir: ”Mən xaricdə yaşayan soydaşlarımızı yaşadıqları ölkənin qayda-qanunlarına riayət etməyə, təxribata uymamağa çağırıram. Uzun illədir ki, Qarabağ münaqişəsinin fövqündə baş verən hadisələri, erməni təxribatlarını yaxından izləyirəm. Bu baxımdan siyasi iradə və təmkinlə davranışın uğurlu nəticələndiyini deyə bilərəm. Dünya azərbaycanlıları belə vəziyyətə bir olmalı, təxribata uymamalıdır”.



**Azərbaycan Jurnalistlər Birliyinin sədri, “Ayna-Zerkalo” qəzetlərinin baş redaktoru Elçin Şıxlı** azərbaycanlıların kütləvi təşkilatlanmasının düşmən tərəfdə qıcıq yaratdığını deyərək, belə məqamda informasiya müharibəsinin güclü təşkil edilməsinin önəmindən söz açıb: ”Bu məsələlərin sonlandırılması üçün ilkin faktor kimi deyə bilərəm ki, Qarabağ düşmən tapdağından xilas edilməlidir. Amma indiki məqamda ağıllı-başlı informasiya müharibəsi aparmalıyıq. Düzdür, “mənim başımı vurub yarandan sonra mən də düşmənin üzünə sakit baxmalıyam” sualı verilməlidir. Amma aksiya gedəndə də hansısa təhlükəsizlik tədbirləri görülməlidir. Los-Ancelesdə, Belçikada azərbaycanlılara qarşı zor tətbiq edən ermənilərdən saxlanılanlar var. İndiki halda bütün gücümüzlə elə etməliyik ki, həmin şəxslər həbsə atılsın, onlara cəza verilsin. Onların həbs olunmasını isə biz bütün dünya mətbuatında çalışıb tirajlamalıyıq. Ermənilər əsrlərdir ki, bütün dünyaya yayılıb yaşayırlar. Amma bizdə son 20-30 ildə dünyaya yayılma prosesi gedir. Bu baxımdan sayca bəzi ölkələrdə onlardan azıq, amma indiki şəraitdə azərbaycanlıların ermənilərə qarşı kütləvi təşkilatlanması yaranıb. Ermənilərin də aqressiyasına səbəb budur”.

**Tanınmış jurnalist Qulu Məhərrəmli** zorakı gücə hüquq və intellektual güclə qarşı çıxmağın vacib olduğunu deyir: ”Ermənistanın işğal siyasətinə qarşı dünya azərbaycanlılarının etiraz aksiyası keçirməsi, həmrəylik göstərməsi çox mütəşəkkil hadisədir. Bu, bizim xaricdə yaşayan soydaşlarımız üçün yeni keyfiyyət göstəricisidir. Yaranan şəraitin özü də adekvat deyil. Baxmayaraq ki, Avropa ölkələrində demokartiya və insan haqları, fikirləri rahat şəkildə ifadə etmək proritetdir, amma tarix və situasiya göstərir ki, bu məsələdə ermənilər istisnalıq təşkil edir. Onlar yaşadıqları ölkədən, cəmiyyətdən aslı olmayaraq xislətlərindəki zorakılıq, yalan və manipulyasiya eyni dərəcədə fantan edir. Belə məqamda iki cür münasibət sərgilənə bilər. Biri budur ki, biz emosianal davranıb onlar kimi hərbə-zorbaya əl ataq. Digər münasibət şəkli isə təmkinli davranışdır. Yəni əslində ermənilərin bu cür hərəkətlərə yol verməsi azərbaycanlıların bir güc kimi birləşməsini müsbət hadisə kimi önə çıxarır. Ona görə məsələyə emosional deyil, demokratik yanaşmaq, hüququn gözü ilə baxmaq lazımdır. Bundan başqa azərbaycanlılar yaşadıqları cəmiyyətdə daha da sıx birləşib, geniş inteqrasiya olmalıdırlar”.

**”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid** xaricdə yaşayan gəncləri son hadisələrdən sonra çılğın ”qisasalmalar”dan çəkinməyə çağırıb: ”Bu dava-dalaş əvəzçıxmaları, xaricdə yaşayan çılğın gənclərimizin “qisasalmaları” sonu görünməyən, məchul labirintə aparır və əslində, Qarabağı unutdurur, arxa plana keçirir. Məkrli, hiyləgər, tək olanda qorxaq, çoxalanda vəhs?iyə dönən, planlı strategiyaya malik, hər fürsətdə hər hərəkətimizi bizə qarşı çevirməyi bacaran bir düşmənlə üz-üzə olduğumuzu unutmamalıyıq.

Paşinyanın Minsk səfəri zamanı etiraz aksiyası keçirməyə, üzünə qarşı ona işğalçı deməyə gücü çatmayan diasporumuzun



başqa ölkələrdəki aksiyalarında da bir plansızlıq, vahid koordinasiyanın olmaması açıq hiss edilirdi və bəzi hallarda yersiz, lazımsız görünürdü.

Gənclərimizin enerjisini, qəzəbini boşuna xərcləməyək, puça verməyək. Dava səhnəsinin, döyüş meydanının, qisas məkanının yeganə ünvanı Qarabağ olmalıdır!..”.



**Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov** xaricdə yaşayan azərbaycanlıları qanunları pozmamağa, təxribata uymamağa çağırıb: ”Ermənilər qanunları pozublar və lazımı cavabı da verəcəklər. Bizim xaricdə yaşayan vətəndaşlarımızı qanunları pozmamağa çağırıram, bu təxribata gətirib çıxaracaq. Gəlin, ermənilərin taktikasına nəzər salaq, baxaq görək onlar nə edirlər. Onlar provakasiya təşkil edib sonda bizi günahkar çıxarmağa çalışırlar və buna da nail olurlar. Ermənilər özləri deyib ki, “biz sizin Mingəçevir Su Elektrik Stansiyasını vurub dağıdacağıq və Azərbaycanın yarısı su altında qalacaq”. Amma indi deyirlər ki, “azərbaycanlılar bizi bombardaman etmək istəyirlər”. Yəni onların bütün əməllərin arxasında bir təxribatçı mövqe sayanır. Bu baxımdan vətəndaşlarımızı təmkinli olmağa çağırıram. Əks halda biz vandal obrazına düşəcəyik”.



# Bütün ölkələrin intellektualları, BİRLƏŞİN! - Deputatdan maraqlı MÖVQE

*Dünya dəyişir, ancaq yaxşılığa doğru dəyişmir.*
*Platon*

***Antik dünyagörüşün əsasını mifologiya, Orta əsrlərin dünyagörüşünü din, modern dövrünün düyagörüşünü əvvəlcə fəlsəfə, sonra elm təşkil edirdisə, sonuncu mərhələ olan Postmodernizm dayanıqlı nüvədən məhrumdur. Bu yazıda məni ən çox son çağın sosial tərəfi maraqlandırır. Sosial sahədə postmodernizm təlabat cəmiyyəti, kütləvi informasiya vasitələri və informasiya paradiqması ilə eyniyyət təşkil edir. Cəsarətlə demək olar ki, bu mərhələdə intellektualların cəmiyyətdəki yeri daha radikal şəkildə dəyişdi. Modern dövründə intellektuallar mədəniyyətdə, sənətdə, ideologiyada və siyasətdə aparıcı yer tuturdular. Bizim günlərdə isə yazıçı, aktyor və rəssamın yerini jurnalist, ekspert və bloggerlər tuturlar.***

Mədəniyyət sahəsində kütləvi mədəniyyət - moda və reklam önə çıxdı. Teatrlaşma həyat tərzinə çevrildi. Bütün əhəmiyyətli hadisələr spektakl və şou formasını aldı. İntellektuallar kölgədə qalmağa başladılar. Təsadüfi deyildir ki, postmodernizmin görkəmli nümayəndələrindən biri sayılan Liotar Jan Pol Sartrı axırıncı “böyük intellektual” adlandırırdı. Liotar haqlıdır. Sartr böyük yazıçı, dramaturq və filosof olmaqla yanaşı həm də ölkəsində baş verən hadisələrin mərkəzində dayanırdı. Ölkəsində nə baş verirdisə nəzərlər ona yönəlirdi. İndi belə nüfuzlu intellektuallar yox səviyyəsindədir. Və Sartr Nobel mükafatından imtina etmişdir. İmtina məktubunun şəxsi səbəbi maraqlıdır: “Yazıçını digərlərindən fərqləndirən titullar onun oxucularına müəyyən basqı göstərir. Mən isə bunu arzuolunmaz sayıram. Hər halda “Jan Pol Sartr” və ya “Nobel mükafatı laureatı Jan Pol Sartr” imzaları arasında ciddi fərq var. Belə fərqlənmə ilə razılaşan yazar həm də ona dəyər verən assosiasiya və ya qurum ilə özü arasında bir bağlılıq yaradır. Məsələn, Venesuela partizanlarına bəslədiyim rəğbət sırf mənə xas olan hiss olduğu halda, “Nobel mükafatı laureatı Jan Pol Sartr”ın Venesuela vətənpərvərlərini dəstəkləməsi bu mənada Nobel mükafatları verən qurumun da bu xətti yeritməsi kimi anlaşıla bilər.”

Bəşəriyyət belə addımları diqqət mərkəzində saxlayır, nümunə kimi dəyərləndirir və belə iradənin ətrafında diskussiyalar açılırdı. İntellektualların birliyi mövcud idi. Posmodern cəmiyyəti üçün tipik və geniş yayılmış iki fiqur, yappilər və zombilər mövcuddurlar. Yappi - “gənc professional şəhərli” mənasını verir. Bu “intellektual kompleks”dən məhrum olmuş tipdir. Onu şəhərdən kənarlaşdırmaq mümkün deyil. Əyləndiyi yer şəhərdir. Şəhər onun yeganə məmnunluq məkanıdır.

İkinci tip daha geniş yayılıb: Bu zombi tipidir. Bu proqramlaşdırılmış vücuddur. Şəxsi keyfiyyətlərdən məhrumdur. Sərbəst düşüncə tərzinə malik deyil. Bu sözün geniş mənasında kütlə insanıdır, onu çox vaxt maqnitafonla eyniləşdirirlər.

Onlar əllərindəki İKT alətlərini cəmiyyətə qarşı çevirirlər. Müasir cəmiyyətin tədqiqatçılarından bir sayılan görkəmli sosioloq Manuel Kastels maraqlı analogiya gətirir. “İnternet Kolumbiya kimi ölkələrdə narkotiklərin dövriyyəsi və adam oğurluğunun daha geniş vüsət almasına səbəb oldusa, Skandinaviya ölkələrində “Rifah dövlətin” təşəkkül tapmasına səbəb oldu.”

Bütün bunlara rəğmən düşünənən maşınlar yaradılır. Bəs onların mövcudluğuna nə ad qoyacağıq? Bununla bizim mövcudluq dəyişirmi? Ona görə də, süni intellektin fəlsəfəsi ortaya çıxır və var. Bəli, elə maşınlar yaradılıb ki, çox vaxt bizi özlərinin ağıllı olduqlarına inandırırlar. İnsan ruhu təbii ki, hər hansı kompyüter proqramından daha azaddır. Lakin bəziləri düşünürlər ki, biz də elə kompyüter proqramları qədər azadıq.

Yaxud bunu düşünün: dünənə kimi idrak fəlsəfəsi insanı öyrənirdisə, indi insanın yanında idrakı olan maşınlar, insana bənzəyən robotlar - androidlər var.

Və bu maşınlar zombilərdən və trollardan cəmiyyət üçün daha əhəmiyyətlidir. Onlar çalışır, insanlara köməklik göstərir və gəlir gətirirlər.

***Milli Məclisin deputatı Etibar Əliyev***

# Ritmlərin mahir ustası

## Cəmi 45 il ömür sürən Mirzəli Abasəliyev əsl sənət sevdalısı idi

***Ritm musiqinin canıdır. Kainatın, cəmiyyətin və təbiətin də ritmi mövcuddur. İnsan ürəyinin və nəbzin də ritmi var. Musiqidə müxtəlif ölçülü ritmlərdən istifadə olunur. Əcdadlarımızın ilk ritm vasitəsi Qobustan qayalarındakı Qavaldaş sayılır. Tarixən Azərbaycanda mahir ritm ustaları olub. XX yüzildə və yaşadığımız bu yeni əsrdə də ritm alətlərini bacarıqla ifa edən tanınmış ifaçılarımız var. Bu dəfə onlarda biri barədə məlumat vermək fikrindəyik.***


Mirzəli Abasəliyev növbəti konsertlərin birində

Mirzəli Ağasaleh oğlu Abasəliyev 1962-ci il iyulun 24-də dünyaya gəlib. Tanrı ona böyükn istedad və bacarıq vermişdi. O, Azərbaycan musiqi ictimaiyyətində sıradan bir sənət adamı deyil, nadir zərb ifaçısı idi. "Zərb" dedikdə onun çaldığı aləti yox, btünlükdə milli zərb alətlərimiz nəzərdə tutulur. Mirzəli nağaranın, qoşanağaranının da mahir ifaçısı kimi qəbul olunur, sevilirdi. Mirzəli ritm və zərb alətlərinin ustası kimi tanınan nadir sənətkar idi. İndi də yeri boş qalıb. Ansambllarda, musiqi heyətlərində, caz qruplarının tərkibində, toy-büsat şənliklərində, xarici dövlətlərə göndərilən və ya dəvət olunan sənət adamlarının sırasında onun yeri bu gün də görünür.

Azyaşlı Mirzəlinin istedadı göz önündəydi. Dinc dayanmırdı, böyük qardaş Ağa Cəbrayılın (Xalq artisti, ustad kamança ifaçısı, Azərbaycan Milli Konservatoriyasının professoru) balaca nağarası onun üçün əsl məşğuliyyət vasitəsi idi. Əlindən alıb kənara qoyurdular ki, uşaq yorular, bir az dincəlsin, bu zaman yenə sakit durmurdu, kətili, masanın üstünü döyəcləyir və özünə ritm tuturdu. Əlləri ilə bərabər başı da daim hərəkətdə idi. O qədər məşğul olurdu ki, axırda balaca nağara ona tab gətirmədi, dəriləri sıradan çıxdı. Belə olduqda o, vedrəni və kuzəni çalmağa başlamışdı. Görünür hələ o zaman Mirzəlinin taleyi öz həllini tapırmış, o, ritm ustası olmalıymış, oldu da...

Qardaşı Ağa Cəbrayıl Abasəliyevin xatirələrindən: "Mirzəlinin 6 yaşı olanda mahir nağaraçalan, bu gün Əməkdar artist kimi tanınan Almaz Quluyevi evimizə dəvət etdim ki, baxıb fikir bildirsən. Almaz Mirzəlinin çalğısını dinləyən kimi dedi ki, bu uşaq sənətə gəlsə bizim hər birimiz, ritm ifaçılarımız üçün çətin olacaq".

İşə bir bax, illər ötdü Mirzəli və Almaz Quluyev birlikdə çalışdılar, SSRİ xalq artisti Zeynəb Xanlarovanın rəhbərlik etdiyi instrumental ansamblının sevilən üzvləri oldular, Dünyanın Zeynəbi ilə dünyanı dolaşdılar, möhtəşəm salonlarda konsertlər verdilər.

Mirzəli Abasəliyev 190 saylı orta ümumtəhsil məktəbində səkkizillik təhsili başa vuraraq A.Zeynallı adına Musiqi Texnikumunun nağara sinfinə daxil olaraq Kamal Axundovdan ixtisas dərsləri aldı.

12 yaşlı Mirzəli artıq "Səadət" ansamblının üzvü idi, müntəzəm məşqlər, konsertlər, daha sonra texnkumdakı təhsil, bu tədris ocağının xəttilə təşkil olunan tədbirlər Mirzəlini bir sənətkar kimi yetişməsinə şərait yaradırdı. O, sənət sevdalısı, ritm aludəçisi kimi irəlilədi və nəhayət zərb alətlərinin mahir ifaçısı kimi yetişərək özünü meydanda təsdiq etdi. Bəli, Mirzəli adlı musiqiçi tam şəkildə ritm ustası kimi tanınır, müxtəlif qrupların tərkibinə dəvət alır, sevilir, toylarda, konsertlərdə tələb olunan sənətkara çevrilirdi.

A.Zeynallı adına Musiqi Texnikumunu bitirən M.Abasəliyev sənədlərini M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsinə verir və daxil olur. O, 5 il təhsil alaraq buranı uğurla başa vurur. İnstitut illərində o, Zeynəb Xanlarovanın rəhbəri olduğu ansablın üzvü kimi geniş fəaliyyət göstərir və bu qrupla birlikdə əksər xarici ölkələrdə səfərlərdə olur.

Mirzəli sənət fəaliyyəti və incəsənət aləmində qazandığı böyük hörmətlə həmişə Abasəliyevlər nəslinə başucalığı gətirirdi. O, Azərbaycan Teleradio Verilişləri Komitəsinin Əhməd Bakıxanov adına xalq çalğı alətləri ansamblının da üzvü idi.

Bakı və Abşeronun kənd və qəsəbələrdə keçirilən toylarda Mirzəliyə dəfələrlə solo sifarişlər verilirdi. Onun ifası toy əhlinin o qədər xoşuna gəlirdi ki, ritmsevərlər musiqiçilərin masasına, Mirzəlinin qarşısına iri pullar səpirdilər. O qədər olub ki, belə toylarda Mirzəliyə verilən sifarişlərin əvəzinə onun qarşısına qoyulan "nəfəs pulu"nun (nəmər) qədəri xanəndə üçlüyünə verilən pullardan çox olub. Əlbəttə, bu əbəs deyildi, tərkibində olduğu instrumental heyətin müşayiətilə onun ifa etdiyi solo qan coşduran, ruh oyadan, insanların hisslərini tərpədən, hamının diqqətini özünə yönəldən olduğu üçün rəğbət və həm də sənətinin qarşılıqı dəyəri əvəzinə pul qazanırdı. O, çalışdığı dəstəyə yalnız baş ucalığı, üz ağlığı, hörmət-izzət deyil, həm də yüksək qazanc gətirirdi.

Mirzəlinin işlətdiyi çoxsaylı, fərqli ritmlər bir-birini əvəz etdikcə inkişaf mərhələsinə yetir, kulminasiya nöqtəsinə doğru hərəkət götürdükcə daha da coşur, aşıbdaşır, çılğın hisslər tənənnüm edərək tamaşaçını sehrə salaraq, daim öz təsiri altında saxlayırdı. Buradakı ritmlər sisiləsi Azərbaycanımızın əzəmətli dağ silsiləsini xatırladırdı. Mirzəli ifa zamanı özünü unudur, zəngin ritmlər aləminə düşür, təpələri keçə-keçə, dağlara yüksəlir, dağları aşıb-keçərək zirvəyə doğru hərəkət edir və nəhayətdə ən uca, son zirvədə görünərək qələbə taktlarını vuraraq ora bayrağımızı sancırdı. O, ritmlərlə yaşayırdı və bu həqiqətdir ki, zərbi əlinə alıb səhnəyə çıxan kimi qəribə hisslər, ritmlər, sirrlər aləminə düşürdü. Kənardan onu diqqətlə seyr etdikdə, qeyd etdiklərimi hiss etmək mümkün idi. Onun ifasında "sinkopa" ritmlər çox idi. Və özüm bir musiqiçi olub bunları dərk etdikcə, istəkli oxucuların nəzərinə çatdırıram ki, "sinkop" dünya üzrə ən çətin rirmlərə aiddir. Mirzəli isə belə çətinliklrə sinə gərir və daxili hisslərini əllərinə tətbiq edərək heyrətamiz ritmlərin ardıcıllığını yaradırdı, bədahətən, gözlərimiz qarşısında. Bu əsl möcüzə idi. Onun solo ifasını musiqi kompozisiyası vasitəsilə müşayiət edən instrumental qrup heç zaman onu çaşdıra, öz ifa lambrindən çıxara bilməzdi. Axı ifa zamanı onun beyni dəqiq işləyirdi. Beyni, ürəyi, hissləri əlləri ilə, əlləri isə barmaqları ilə sıx vəhdət yaradırdı. O, bizimlə rirmlə, ritmlərin diliylə danışırdı. Onun həyatını, mövcudluğunu ritmsiz, bu aləmsiz təsəvvür etmək olardımı? Əlbəttə ki, yox! Doğrudan da Mirzəli ifa zamanı özünü unudurdu, o qədər çoşurdu ki, daim taxdığı gözlük masa üzərinə, yaxud da yerə düşəndə belə hiss etmirdi. Belə hallar video çəklişlərdə də görünür.

Mirzəli Abasəliyevin solo ifalarını özündə cəm edən video və aideo kasetlər sərhədləri aşandan sonra bir sıra ölkələrin məşhur insrtrumental ifaçıları, onların arasında ritm ustaları bizim bu unikal zərb ifaçısı ilə maraqlanmağa başlamışdılar. Mirzəli bu gün yaşasaydı onu bir sıra ölkələrdə təşkil olunan layihələrə, caz festivallarına dəvət edəcəkdilər. Çünki onun ifasında maraqlı və qeyri-adi cəhətlər çox idi. Mirzəli dünyəvi ritmləri, bunlar arasında Latın Amerikası ritmlərini sərbəst ifa edirdi. Bütün bu mükəmməl ritmlər onun daxili aləmindən, beynindan və barmaqlarından süzülüb gəlirdi.


Məşhur türk sənətçisi Bülənt Ərsoyla

M.Abasəliyevin canı, qanı ritmlərdən, düşüncəsi unikal taktlardan, əlləri, barmaqları musiqi xırdalıqlarından, ən zərif bəzəklərdən ibarət olaraq, başdan-başa sirr və sehrə bağlıydı. Əslində, onun ifaları müasir elmi-texniki vasitələrlə, ən son cihazlarla hesablanıb, öyrənilsə, burada çox zəngin, maraqlı və heyrətamiz faktlar və dəyərlər üzə çıxarıla bilər. Axı dünyanın, kainatın özünün ritmi olduğu üçün, mövcud xalqların və millətlərin də özlərinə xas ritmləri, musiqi üçün ölçü vahidləri var.

Mirzəlinin öz solo ifalarında bədahətən bütün dünya xalqlarının rimlərini ortaya qoymasının özü, heyrətamiz, fitri istedaddan doğmurdumu, bu möhtəşəmlik, genişlik və möcüzə yaratmırdımı? Bəli, əslində bu beləydi. Biz belə bir nadir sənətkardan lazımlı dərəcədə istifadə etdikmi? Əlbəttə yox. Düzdür, xalqımız istedadlıdır, davamçılar olacaq. Lakin bu da var ki, nadir, unikal sənət sahibləri 30, 40, 50 ildən bir meydana çıxır.

Mirzəli yalnız Bakı və onun qəsəbələrinə deyil, Azərbaycanın müxtəlif bölgələrinə solo ifa etmək üçün dəvət olunurdu. Onun soloları televiziya konsertlərini də zənginləşdirirdi.

Mirzəlinin ifaçılığı o qədər sevilmişdi ki, artıq nağaraçalanların əksəriyyəti toylarda zərb çalmağa başlamışdılar. Yəni artıq tələbat belə hal almışdı. Nağara ifaçıları gəlin gətirilməsi mərasimində nağara çalsalar da, şadlıq sarayına daxil olan kimi zərb ifa etməyə üstünlük verirdilər.

Mirzəli bütün dünyəvi ritmlərə bələd ifaçı olaraq, həm də cazmen idi. Sənət ustalarımızla xarici ölkələrə gedərkən proqrama mütləq onun solosu daxil edilirdi. Onun gücünə bələd idilər, bilirdilər ki, iş görəcək, dərhal tamaşa zalını ələ alacaq, seyrçilərin nəinki əhvalını, hətta özlərini ayağa qaldıracaq və fasiləsiz, gurultulu alqışlar qazanacaq.

Yaponiyaya uçuş onun ən uğurlu səfərlərindən biri olub. Kommersiya şərtlərilə düzənlənən bu 1 aylıq səfərə gedən heyətdə məşhur sənətkarlar: İslam Rzayev, Habil Əliyev, Ramiz Quluyev, Etibar Qasımbəyli var idi. Yapon tamaşaçıları Azərbaycan artistlərini hərarətlə qarşılayırdılar. Dövrü mətbuatda yazılar və şəkillər dərc olunurdu. Mirzəlinin solo ifaları xüsusi marağa səbəb olmuşdu. Onun ifalarını çəkib yerli televiziya ilə yayımlayırdılar. Əlbəttə, bu Azərbaycanımızın ritm ustasına verilən ən yüksək dəyər kimi qəbul olunurdu. Bir də onu deyək ki, Mirzəli zəhmətkeş idi, yoruldum deməzdi, neçə dəfə ondan solo istəsəydilər, çalardı. Toyxanada, yaxud konsert salonlarında tamaşaçının az və ya çox olmasına baxmazdı, ifa edərdi, hünər göstərərdi, can qoyardı...

O, yüksək insani keyfiyyətləri ilə də seçilirdi. Sənət yoldaşlarına isti münasibət bəsləyər, ehtiyacı olanın qeydinə qalardı. Həddən artıq səxavətli idi, dost-yoldaşa arxa durar, əlini cibinə salmağa heç kəsə imkan verməz və pul xərcləməkdən çəkinməzdi. Ölkələrdən qayıdarkən səfərlər yoldaşlarına hava limanlarında və Bakıya çatandan sonra buradakı dostlarına qonaqlıq verərdi.

Ağa Cəbrayılın söylədiklərindən: "Mirzəli də atam Ağa Saleh kimi fədakar, zəhmətkeş, comərd, səxavətli idi. Atamda olan bütün xeyirxah əməlləri, qəlbi təmizliyi onda da görürdüm".

Musiqiçilərin əksəriyyəti, xüsusilə xanəndə, xalq artisti İslam Rzayev onun xətrini daim əziz tuturdu. Mirzəli isə böyük qardaşı Ağa Cəbrayıl ilə fəxr edər, qulluğunda durar və hörmət əlaməti olaraq həmişə ona Dadaş deyə müraciət edərdi.

Mirzəli Abasəliyev ailəli idi. Anasının adını qoyduğu Asudə adlı bir qızı yadigar qalıb.

Çox əfsus ki, belə insanı, böyük sənətkarı vaxtsız itirdik. O, hələ nə qədər uğurlar qazana bilər və ritm sənətimizi qabağa aparardı. M.Abasəliyev 2007-ci il avqustun 8-də, 45 yaşında dünyadan köçüb. Ruhu şad olsun. Bu yazını hazırlamaqla təsəlli tapmaq istədik, onun yarımçıq ömrünü, unikal sənətini oxucuların yaddaşına daxil etdik və onların gözləri qarşısında canlandırdıq. Axı belə sənətkarların adı musiqi mədəniyyəti tarixində yaşamalıdır. Yaşayacaq da!

***Əhsən Rəhmanlı,***
***tədqiqatçı, sənətşünaslıq üzrə fəlsəfə doktoru***

# Yaddan çıxmış sənətkarlar: Gəray bəyin qızı - Sənət dostlarının itirdiyi AKTRİSA

***Səməd Vurğunun “Komsomol poeması” əsasında çəkilmiş “Yeddi oğul istərəm” filmi yeni bir cəmiyyət yaratmaq uğrunda mübarizə aparanlarla köhnə cəmiyyətin silahlı nümayəndələri arasında gedən qanlı mübarizədən bəhs edir.***

Tərəflərdən birini Bəxtiyar və onun komsomol dəstəsi, digərini isə Gəray bəy və köhnə quruluşun tərəfdarları təmsil edir. Lakin filmdə baş verən hadisələr bu iki tərəfin apardığı ölüm-dirim savaşları ilə məhdudlaşmır. Komsomolçu Cəlalla Gəray bəyin qızı Humayın qarşılıqlı məhəbbəti də filmin əsas süjet xəttini təşkil edir.

Humay öz kökünə, adətənənələrə möhkəm tellərlə bağlıdır. O, əmisi oğlu Cəlalı böyük bir məhəbbətlə sevir, lakin atasının razılığı və xeyir-duası olmadan ailə qurmaq istəmir. Buna görə də Cəlalın qoşulub qaçmaq barədə təklifini də qəbul etmir.

Bu yazımızda biz “Yeddi oğul istərəm” filmindəki Humaydan bəhs edəcəyik. Daha doğrusu, Humay obrazını yaratmış aktrisadan.

Elə aktyor və aktrisalar da var ki, yaratdığı tək bir obrazla kino aləmində dərin iz buraxıb. Belə aktrisalardan biri də Humay rolunun ifaçısı Zemfira İsmayılovadır...

Beləliklə, Modern.az saytının “Yaddan çıxmış sənətkarlar” layihəsi bu dəfə aktrisa Zemfira İsmayılovaya həsr olunur.

Çoxumuz onu “Yeddi oğul istərəm” filmindəki Gəray bəyin qızı Humay obrazı ilə tanıyırıq. Gənc və gözəl aktrisa bu filmdən əvvəl də səhnədə yer alıb, amma kino tarixində məhz Humay obrazı ilə yadda qalıb...

Filmdə təsirli bir səhnə var: Humayın döyülmə anı... O, atasına qarşı mübarizə aparan komsomol Cəlalın deyiklisidir. Cəlalı Humayın atası, sovet quruluşunun düşməni Gəray bəy öldürtdürür. Komsomolçu Bəxtiyar isə əqidə yoldaşı Cəlalın ölümündə Humayı günahkar bilərək, onu amansızcasına döyür.

Aktrisa Zemfira İsmayılova bu təsirli səhnədə və digər epizodlarda məharətlə çıxış edir... Həmin səhnənin sonunda Humayıb Bəxtiyara “babamının qanını sənə halal edirəm” deyib hadisə yerindən uzaqlaşaraq kiçik nöqtəyə çevrilir, ölüb-ölmədiyi belə bilinmir.

Zemfira İsmayılovanın həyatı ilə bağlı hər hansı bir informasiya mənbəyi yoxdur. Lakin əldə etdiyimiz məlumata görə, aktrisa Bakıda dünyaya gəlib və elə bu şəhərdə təhsil alıb, işləyib.

Onun kinoya ilk gəlişi “Dəli Kür” filmi ilə olub. Zemfira İsmayılova bu filmdə “Pakizə” rolunu canlandırıb. Sonralar “Sevil” (Gülüş), “Yeddi oğul istərəm” (Humay), “Ən vacib müsahibə” (neftçi), “Gilas ağacı” (Sadıqın anası), “Həyat, sən kiminsən?” (Mələykə), “Bizim küçənin oğlanları” (Gülyaz), “İşgüzar səfər” (Roza) filmlərdə müxtəlif dərəcəli rolları ifa edib.

Aktrisa ilə bağlı apardığımız araşdırmalar nəticəsində məlum oldu ki, Zemfira İsmayılova kino aləmindən ailə qurduqdan sonra, həyat yoldaşının təkidi ilə gedib. Demək olar ki, səhnədən uzaqlaşması ilə bütün sənət yoldaşlarından, ictimaiyyətdən də uzaqlaşıb. Çünki aktrisanın kinodan sonrakı həyatı haqqında demək olar ki, kimsə hər hansı bilgiyə sahib deyil...





### “Pərəstişkarları, ona vurğun olanlar az deyildi...”

Zemfira İsmayılova haqqında xatirələrini həmkarları bizimlə bölüşüb: “Yeddi oğul istərəm” filmində Humayın sevgilisi olmuş Cəlal obrazının ifaçısı, Azərbaycanın xalq artisti Ənvər Həsənov Zemfira İsmayılovanın yaxın dostlarından biri olub. O, Zemfira xanımın yaxın dostlarından olsa da, maraqlıdır ki, aktrisanın ailəsi haqqında dostluq etdikləri müddətdə bir kəlmə belə eşitməyib: “Mən kinostudiyada çalışanda Zemfira xanım hələ cavan idi, bizdə redaktor işləyirdi. Həmin o illər ərzində Zemfira ilə dostluğumuz yarandı. Bizim dostluğumuza söz ola bilməzdi, hər kəs münasibətimizə pərəstiş edirdi. Onun Musabəyov küçəsində birotaqlı evi var idi. Onda mən, İntiqam adlı bir redaktor dostumuz və Zemfira xanım həmin evdə yığışıb söhbətləşərdik, filmləri müzakirə edərdik. Zemfiranın ailəsi haqqında isə heç nə bilmirdik, çünki heç özü də bu mövzuda danışmağı sevmirdi. Onu tanıyandan tək görmüşəm, tək də yaşayıb. Amma qonaqpərvərliyinə söz ola bilməzdi. Çayı, kofesi, bir də dadlı tortu süfrədən heç əskik olmazdı. Adamı evində elə ürəklə qarşılayırdı ki... Yəqin bu da tək yaşamağından irəli gələn məsələ idi. Həm də o, hamını özünə yaxın buraxmazdı, amma sevdiyi adamları da həqiqətən sevirdi.

Heç vaxt görmədim ki, Zemfira hansısa rola iddia irəli sürsün. Yəni nə film, nə rol desən razılaşıb oynayardı. Çünki o kinonu çox sevirdi, səhnəyə vurğun idi. Onun pərəstişkarları, arxasıyca gəlib-gedənlər də az deyildi. Çünki çox gözəl xanım idi. İlk dəfə “Yeddi oğul istərəm” filmində tərəf müqabili olduq. Bu filmdən sonra Zemfira xanım kino aləmindən uzaqlaşdı. Film yayımlanandan sonra da 1 ya 2 dəfə görüşə bildik. Bir də xəbər tutdum ki, Moskvaya gedib. Elə ondan sonra da əlaqələrimiz tamamilə kəsildi. Amma o, həmişə mənim ürəyimdədir...”.

### “Hamımız onu “Güləyən qız” çağırırdıq...”

Xalq artisti, kinorejissor Əbdül Mahmudov da Zemfira İsmayılova ilə yaxın dost olub. Rejissorun sözlərinə görə, Zemfira İsmayılova kinodan tez getməsəydi, bu sahədə hələ çox uğur əldə edəcəkdi: “Adil İsgəndərov o vaxt kinostudiyaya rəhbər gələndə milli kadrların işə cəlb olunmasında böyük rol oynadı. Yəni onadək kinostudiyanın çoxu rusdilli adamlardan ibarət idi. Adil İsgəndərov kinostudiyanın nəzdində rejissorluq, ssenaristlik və aktyorluq üzrə milli kadrların işə cəlb olunması üçün 3 illik kinoaktyor studiyası açdı. Mən də orda dərs keçən pedaqoqlardan biri idim. Zemfira İsmayılova da o kursda ilk buraxılış qruplarından birində olub və tanışlığımız da elə baş tutub. Oxuduğu qrupda baxımlı və gözəl xanımlardan biri olduğuna görə elə ilk kursdan rejissorların diqqətini özünə çəkə bilmişdi. Qısa müddətdə də çox sürətlə filmlərə çəkilməyə, uğur qazanmağa başladı”.

Müsahibimiz deyir ki, iki filmdə Zemfira İsmayılova ilə bərabər çalışıb: “Həqiqətən də o çox şirindilli, istiqanlı qız idi. Zarafatı deyib-gülməyi də çox sevirdi. Boşuna ona “Güləyən qız” adını qoymamışdıq. Ən adi zarafata belə ürəkdən gülürdü. Bəzən iş rejimi çətin olurdu, yorğun olurduq. Elə olanda Zemfiranı danışdırıb güldürürdük, inanın bütün kollektivin kefini aça bilirdi.

Kinostudiyada kursun işi dayanandan sonra Zemfira İsmayılova Moskvaya gedib poliqrafiya üzrə təhsil aldı. Ondan sonra Azərbaycana qayıdıb “İşıq” nəşriyyatında işlədi. O



dövrün kitablarının bir çoxunun redaktə olunmasında onun rolu böyükdür. Lakin çox təəssüf olsun ki, poliqrafiya sahəsi onu kinodan tamamilə uzaqlaşdırdı.

Zemfira İsmayılovanın ailə həyatı da uğursuz olub. Evləməndən sonra həyat yoldaşı kino aləmindən- səhnədən uzaqlaşmasını istədi, o da buna qarşı getmədi. Baxmayaraq ki, kino sahəsində çox az müddət qaldı, amma çalışdığı müddətdə mükafat da aldı...”.

### “Baş rolda oynamasına baxmayaraq qürrələnmirdi, yeri gələndə kollektivin hamısına qulluq edirdi...”

Azərbaycanın xalq artisti Tariyel Qasımov da bir ekran əsərində - “Həyat sən kiminsən?” adlı filmində Zemfira İsmayılova ilə tərəf müqabili olub. Tariel Qasımovun sözlərinə görə, aktrisa kino kollektivinin hamısına qısa müddətdə özünü sevdirə bilmişdi: “1972-ci ildə televiziya yaradıcılıq birliyi ilk çəkdiyi “Həyat sən kiminsən?” adlı filmə baş rolda oynamaq üçün məni və Zemfira İsmayılovanı dəvət etdi. Film

Nabranda çəkildiyi üçün 1 ay orda qalmalı olduq. Elə demək olar ki, Zemfira İsmayılova ilə ilk tanışlığım da o filmdə olmuşdu. Çox təmizkar, özünəbaxımlı və mehriban qadın idi. Baxmayaraq ki, bu filmdən əvvəl “Yeddi oğul istərəm” filmində Humay obrazını oynamışdı, amma qətiyyən özünü dartmırdı, qürrələnmirdi. Hətta deyərdim ki, yeri gələndə kollektivdə hamıya çay süzüb qulluq da edirdi. Kollektivdə hər kəslə xoş münasibəti var idi. Kimsə deyə bilməzdi ki, Zemfira İsmayılova ona qarşı pis olub.

Özü şəhər qızı idi, çox ziyalı idi. Zamanın tələbinə görə həmişə zövqlü geyinərdi. Çox təəssüf edirəm ki, kinodan gedəndən sonra əlaqəmiz olmadı. Ümumiyyətlə, bu illər ərzində kimsə onun haqda nəsə deməyib mənə. Sağ olub-olmadığını belə bilmirəm”.

Biz də Zemfira İsmayılovanın hazırda həyatda olub-olmadığını dəqiqləşdirə bilmədik. Əlaqə saxladığımız sənət adamlarından kimsə onun vəfat etdiyini, başqa biri İsrailə köçüb getdiyini söylədi. Hətta evləndikdən sonra övladı olmadığını deyənlər də tapıldı... Amma dəqiq məlumat söyləyən olmadı...

*Əzizə Zeynal*

# Allergiya sizi narahat edir?- Alman metodikası ilə çarə



***Allergik xəstəliklər - orqanizmin hər hansı bir faktora, xəstəlik törətmək xüsusiyyəti olmayan faktorlara; yaşayış və iş yerlərindəki mikrofloraya, bitki tozcuqlarına, heyvan yunu və tükünə, qida maddələrinə qarşı yaranan həssaslıqdır.***

Keçən yüzillikdə allergik xəstəliklər, əsasən də respirator allerqozlar epidemiya şəklini alıb, böyüklər və uşaqlar arasında artmaqda davam edir. Respirator allerqozlar dedikdə tənəffüs sisteminin müxtəlif şöbələrinin allergik zədələnməsi nəzərdə tutulur. Respirator allerqozlara "sivilizasiya" xəstəlikləri də deyilir. İstehsalın geniş sənayeləsdirilməsi, məişətdə və kənd təsərrüfatında kimyəvi maddələrdən geniş istifadə bu xəstəliklərin vüsət almasında mühüm rol oynayır. Bunlar tənəffüs yollarına çox miqdarda zərərli maddələrin düşməsinə, xroniki iltihabi prosesə və orqanizmin sensibilizasiyasına, sonra isə allergik prosesin yaranmasına səbəb olur.

Allergik xəstəliklər bu gün dünyada patologiyalar arasında yayılmasına görə 3-4-cü yeri tutur.

**Allergik xəstəliklər arasında daha çox rast gəlinir:**

- allergik rinit
- allergik konyuktivit
- bronxial astma
- övrə
- atopik dermatit

Allergik rinit- burunda qaşınma, tez-tez asqırma, burun axması ilə təzahür edir. Burundan, gözdən axan selik tam şəffaf olur. Hətta burun dəsmalında izi belə qalmır.

Allergik konyuktivit - çox vaxt allergik rinitlə bir yerdə olur: bu zaman rinit əlamətlərindən başqa ğözdə qaşınma, sulanma, qızartı müşahidə edilir.

Körpələrdə allergik xəstəlik kimi atopik dermatitə daha çox rast gəlinir.

- Atopik dermatit - tez - tez təkrarlanan, xroniki gedişlə müşahidə olunan dərinin iltihabı xəstəliyidir: qızartı, ödem, qaşınma, ekssudasiya və qabıqlanma ilə müşahidə olunur.

- Atopik dermatit - böyüdükcə keçir, amma xəstələrin 50% - də bronxial astma, 75% - də allergik rinit formalaşa bilər.

- Adətən, atopik dermatitli xəstələrin yaxın qohumlarında (ana, ata, bacı, qardaş) 50 - 70% - hallarda dəri və tənəffüs yollarının allergiyası müşahidə olunur

- Xəstəlik adətən uşaq 2-3 aylıq olanda başlayır: əvvəl yanaqlarda, sonra üzün digər yerlərində, ənsə, biləklər, qollar, qarın və ətrafların açıcı səthlərində qızartı, qaşınma, sulanma, qabıqvermə müşahidə olunur. Belə uşaqlarda dəri quruluğu nəzərə çarpır

- 3-5 yaşlarda yaxşılaşma başlayır, 5 yaşdan yuxarı əlamətlər demək olar ki, tamamilə itir.

- Bəzən yaş artdıqca dəridə quruma və qalınlaşma olur, "atopik dermatit maskası" adlanan bir görünüş əmələ gəlir

Uşaqlarda allergik xəstəliklərin yaranmasına təsir edən amillərdən biri allergiyaya irsi meyilliyin olmasıdır. Bu baxımdan, ailədə allergiyaya meyillik olduqda allergiyanın profilaktikası hamiləlik dövründən aparılmalıdır. Belə analar hamiləlik və südəmizdirmə dövründə qidalanmalarına xüsusi nəzarət etməlidirlər. Hamilə qadınlar passiv və aktiv tütünçəkmədən özlərini qorumalıdırlar və s.

Allergik xəstəliklər hiperimmun reaksiya ilə xarakterizə olunur.

Allergik xəstəliklərin müalicəsi üçün əsas şərt allergenin uzaqlaşdırılmasıdır (hər zaman mümkün olmur).

Bundan başqa müalicə məqsədilə əsasən antihistamin və hormonal preparatlardan istifadə edilir:

Antihistamin preparatlar allergik reaksiyada mühüm rolu olan mediatorun (histaminin) ifrazını blokada edir. Hormonlar isə immun reaksiyaları zəiflədir. Beləliklə, allergiyanın simptomları aradan qaldırılır.

Bu zaman immun hiperhəssaslığa və allergik reaksiyada iştirak edən mediatorların artıq ifrazına şərait yaradan amillər:

- psixi yüklənmə
- yanlış qidalanma
- disbioz
- kandidoz
- ağır metallarla yüklənmə və s. də nəzərə alınmalı və aradan qaldırılmalıdır. Beləliklə, allergik xəstəliklərin daha uğurlu müalicəsi üçün şərait yaranmış olar.

# Karantində qaraciyərimizi necə qoruyaq? - Dərmanlar bu orqanı zədələyir

***Karantin dövründə və ondan sonra bir çox insanların sağlamlığında, əhvalında problemlər, pisləşmə, enerji azlığı və gücsüzlük hiss edir.***

Bu problemlərin arxasında qaraciyərin ciddi yüklənməsi, piylənməsi, işinin pozulması dayanır.

"Unikal" medicina.az-a istinadən karantində hansı səhvlərdən qaraciyərin toksinləşməsi, piylənməsi və funksiyalarının pozula biləcəyini təqdim edir.

Qaraciyər üçün ən təhlükəli zəhərli toksinlərdən biri ammiakdır.

Ammiak özü orqanizmdə zülal tərkibli qidaların həzmi zamanı yaranır və bu normaldır. Qaraciyər özü onu zərərsizləşdirə bilir. Ona görə biz ammiakın təsirini hiss etmirik.

Əgər qaraciyər ammiakı zərərsizləşdirə bilməsə və ya ammiak hansısa yollarla normadan çox hasil olsa, orqanizmə daxil ola, o zaman bədən zəhərlənir, qaraciyər ensefalopasiyası və baş beynin zədələnməsi baş verir.

**Qaraciyər ensefalopatiyasının əlamətləri bunlardır:**

- Yorğunluq, zəiflik, fiziki iş və yükə dözümsüzlük
- Diqqət və yaddaşın pozulması
- Pis əhval ruhiyyə, qıcıqlanma, əsəb
- Gündüz yuxululuq, baş gicəllənmə, qulaqlarda küy
- Baş ağrıları, gecələr yuxusuzluq
- Ammiak qaraciyər toxumasını zədələyəndə orda fibroz toxuma əmələ gəlir.
- Simptomlar əvvəl gizli olur, uzun müddət çəkir, insan başqa xəstəliklərdən şübhələnir, amma sonra hər şey ani sürətlə pisləşir.

Bu kimi hallar baş verərsə, terapevt və ya hepatoloqa müraciət edərək, müəyyən qaraciyər analizlərdən, ammiakı təyin edən testdən keçməlisiz.

**Qaraciyərimiz daha çox nədən əziyyət çəkir?**

Bu stresli dönəmdə qaraciyərə neqativ təsir göstərən amiləri sadalayırıq.

**1. Yanlış, zərərli, qeyri-sağlam qidalanma**

Yediyimiz və bağırsaqlarda sovrulan bütün qidaların qalıq maddələri qaraciyərdən keçir. Yeməyin miqdarı, yağlılığı, keyfiyyəti bu orqan üçün çox vacibdir.

- Həddən artıq yağlı, piyli, heyvan yağlarından ibarət qidalar qaraciyərin bir nömrəli düşmənidir.

Evdə oturaraq, evə pitsa, dönər, hamburger, fast food, qızarmış kartof, toyuq, kolbasa, kərə yağı və s. yemək qaraciyər hüceyrələrini yükləyir, piy hissəciklərini artırır, funksiyalarını pozur

- Bütün növ şirniyyatlar, qənnadı məhsulları, undan bişmələr, düyü, kartof evdə oturarkən enerjiyə çevrilir sərf olunmur. Bunları qaraciyər yağa çevirib, depolayır və ona görə öz hüceyrələri piylənir.



**2. İçki, qazlı içkilər, alkoqol**

Evdə oturarkən stresə qalib gəlmək üçün içkiyə aludə olmaq və fikirləri azaltmaq üçün alkoqoldan istifadə qaraciyərin alkoqol piylənməsi və toksinləşməsini sürətləndirir.

Kişilərin sutkada cəmi 40 qram spirt,yəni 100 ml araq, 400 ml çaxır içməsi kifayətdir ki, qaraciyər toksinləşsin. Qadınlarda bu doza iki dəfə azdır.

**3. Müxtəlif dərmanlar**

Çox sayda lazımlı, lazımsız dərmanların, BAD-ların qəbulu, xüsusən ağrıkəsicilər, təzyiq dərmanları, antibiotiklər, paracetamol özü, müxtəlif öskürək siropları, arıqlama preparatları, mənşəyi bilinməyən vitamin komplekslərinin qəbulu qaraciyər tərəfindən orqanizmə zəhər hücumu kimi qəbul edilir və o bu dərmanların qalıqlarını tez zərərsizləşdirmək üçün var gücü ilə çalışır. Ona görə çox dərman qaraciyər iltihabı, toksiki hepatit yarada bilər.

Qeyd edək ki, bu ərəfədə adi qrip və koronavirus keçirmiş xəstələrin sonradan qaraciyəri nəzarətə götürüb, müayinə və müalicə etməsinə ciddi ehtiyac var.

**Karantindən sonra qaraciyəri necə bərpa etməli?**

Qaraciyər təbiətən özünü bərpa etməyə qadir orqandır. Bunun üçün ona mənfi təsir edən toksin, factor aradan qalxmalı, ona dinclik verilməlidir.

Bir çox dərmanlar da qaraciyər detoksikasiyası və hüceyrələrin bərpası üçün var.

Təhlükəli ammiakın səviyyəsinin azaldılması üçün də preparatlar var.

Siz isə rasion və gündəlik qidalanmanızı dəyişməlisiz. Heyvan mənşəli yağ və qidaları, şirniyyatı, hisə verilmiş qidalar, acılı, istiotlu, duzlu yeməkləri çıxarırsız.

- Fiziki aktivlik, pidaya çox gəzmək, idman, gimnastika lazımdır.
- Stresi azaldır və relaks üçün nə lazımdırsa edirsiz
- Yaxşı yatırsız
- Spirtli içkilərdən tam imtina
- Bol təmiz su
- Dərman preparatlarını həkim nəzarəti ilə azaltmaq
- Hətta müxtəlif bitki çaylarını da bir müddət yığışdırmaq.

# Alimlər koronavirus haqqında populyar mifi təkzib ediblər



***Pasiyentin qan qrupu onun COVID-19 xəstəliyini ağır keçirməsinə və ölüm riskinə təsir etmir.***

Massaçusets xəstəxanasının və "Bet-İzrayel" tibb mərkəzinin mütəxəssisləri COVID-19 testindən keçən 7648 pasiyentin məlumatlarını analiz ediblər. Alimlər qan qrupunun xəstəxanaya yerləşdirilməyə, intubasiyanın zəruriliyinə və xəstənin ölümünə bilavasitə təsirini araşdırıblar. "Qan qrupu və iltihabın pik işarələri, həmçinin klinik ağırlaşma göstəriciləri arasında heç bir əlaqə müəyyən edilməyib. Qan qrupunun intubasiya və ya ölüm riski ilə əlaqəsi yoxdur", - deyə ekspertlər bildirib.

Tədqiqatçılar B (III) və AB (IV) qan qrupuna və eyni zamanda mənfi Rh-a malik insanların koronavirusa daha çox yoluxduğunu müəyyən ediblər. Alimlər qan qrupunun yoluxma riskinə təsir edə biləcəyi, lakin xəstəliyin ağırlaşması ilə əlaqəsinin olmadığı nəticəsinə gəliblər.

# "Sumqayıt"ın səbəti, "Neftçi"nin daha bir potensial rəqibi bilindi




***Avropa Liqasında (AL) debüt edəcək "Sumqayıt"ın püşkatmada hansı səbətdə yer alacağı müəyyənləşib.***

"Unikal" qəzetinin məlumatına görə, "gənclik şəhəri" təmsilçisi səpələnməmişlər sırasında qərarlaşacaq.

Ayxan Abbasovun yetirmələri püşkatma zamanı reytinqi güclü olan komandalardan biri ilə qarşılaşmalı olacaq. "Sumqayıt" səpələnməmişlərə düşübsə, İrlandiya təmsilçisi "Şemrok Rovers" səpələnmişlər arasında qərarlaşıb.

Püşkatmada səpələnmişlərdə yer alacaq "Neftçi"nin isə potensial rəqiblərindən biri də müəyyənləşib. Rumıniya təmsilçisi "Botoşani" I təsnifat mərhələsində "Neftçi"yə rəqib ola bilər. Premyer Liqanın gümüş mükafatçısının ümumilikdə 37 potensial rəqibi bilinir.

Azərbaycanın Avropa Liqasındakı digər təmsilçilərindən "Keşlə"nin səbəti isə hələ də qeyri-müəyyəndir.

Qeyd edək ki, Avropa Liqasında I təsnifat mərhələsinin püşkü avqustun 10-da atılacaq.

Avropa Liqası, 2020/21 mövsümü

I təsnifat mərhələsi

Səpələnmişlər

APOEL (Kipr)

"Partizan" (Serbiya)

"Styaua" (Rumıniya)

"Maribor" (Sloveniya)

"Hapoel" (Beer-Şeva, İsrail)

"Rusenborq" (Norveç)

"Apollon" (Kipr)

"Fehervar" (Macarıstan)

"Şkendiya" (Şimali Makedoniya)

TNS (Uels)

"Dinamo" (Minsk, Belarus)

"Lex" (Polşa)

"Aberdin" (Şotlandiya)

"Zrinski" (Bosniya və Herseqovina)

"Alaşkert" (Ermənistan)

"Kayrat" (Qazaxıstan)

"Jalgiris" (Vilnüs, Litva)

"Motervell" (Şotlandiya)

"Kukesi" (Albaniya)

"Vaduts" (Lixtenşteyn)

"Valletta" (Malta)

"Ventspils" (Latviya)

"Olimpiya" (Sloveniya)

"Linkoln" (Cəbəllütariq)

"Topola" (Serbiya)

"Nomme Kalyu" (Estoniya)

"Şaxtyor" (Belarus)

"Hammarbü" (İsveç)

"Hafnarfyordur" (İslandiya)

"Bodo-Qlimt" (Norveç)

"Riterlay" (Litva)

"Proqress" (Lüksemburq)

MOİK (Bolqarıstan)

"Sutyeska" (Monteneqro)

"Honved" (Macarıstan)

"Makkabi" (Hayfa, İsrail)

"Beytar" (İsrail)

"Ordabası" (Qazaxıstan)

"Neftçi" (Azərbaycan)

"Şemrok Rovers" (İrlandiya)

Səpələnməmişlər

"Sumqayıt" (Azərbaycan)

"Lokomotiv" (Plovdiv, Bolqarıstan)

"Slaviya" (Bolqarıstan)

"Botoşani" (Rumıniya)

"Pyast" (Polşa)

"Levadiya" (Estoniya)

"Hibernians" (Malta)

"Dunayska" (Slovakiya)

"Rujomberok" (Slovakiya)

"Jilina" (Slovakiya)

"Jelezniçar" (Bosniya və Herseqovina)

"Laçi" (Albaniya)

"Mura" (Sloveniya)

"Puşkaş Akademi" (Macarıstan)

"Saburtalo" (Gürcüstan)

"Şkupi" (Şimali Makedoniya)

"Petrokub" (Moldova)

"Union" (Lüksemburq)

"Differdanj" (Lüksemburq)

"Jalgiris" (Kauno, Litva)

RFS (Latviya)

"Valmiera" (Latviya)

"Noa" (Ermənistan)

"Şirak" (Ermənistan)

"Renova" (Şimali Makedoniya)

"Borats" (Bosniya və Herseqovina)

"Sfantul" (Moldova)

"Dinamo-Avto" (Moldova)

"Bohemians" (İrlandiya)

"Derri" (İrlandiya)

"İnter" (Finlandiya)

"İlves" (Finlandiya)

"Honka" (Finlandiya)

"Breydablik" (İslandiya)

"Bala Taun" (Uels)

"Dinamo" (Batumi, Gürcüstan)

"Lokomotivi" (Gürcüstan)

"Sirens" (Malta)

"Vikinqur" (İslandiya)

"Payde" (Estoniya)

Qeyri-müəyyən

"Keşlə" (Azərbaycan)

# Mayk Tayson rinqlərə qayıdır - Döyüşün tarixi açıqlandı

***Superağır çəkidə keçmiş dünya çempionu Mayk Tayson və beş çəki dərəcəsində eks-çempion Roy Cons arasındakı döyüşün tarixi məlum olub.***



"Unikal" qəzeti "The Guardian"a istinadən xəbər verir ki, 8 raunddan ibarət olacaq nümayiş xarakterli döyüş sentyabrın 12-də ABŞ-ın Kaliforniya ştatında keçiriləcək.

Mayk Tayson professional səviyyədə sonuncu döyüşünü 2005-ci ildə keçirib və Kevin Makbrayda məğlub olub. Bir müddət öncə 54 yaşlı boksçu nümayiş döyüşlərində iştrak etmək üçün karyerasını bərpa edəcəyini açıqlamışdı.

Roy Cons sonuncu döyüşündə (2018-ci ilin fevralı) hakimlərin qərarı ilə Skott Siqmona qalib gəlib. 51 yaşlı boksçu keçirdiyi 77 döyüşün 66-da qələbə qazanıb.

# "Barselona"da 12 futbolçu transferə çıxarılır

***"Barselona" heyətdəgenişmiqyaslı dəyişiklik etmək niyyətindədi.***

"Unikal" qəzeti "Marca"ya istinadən xəbər verir ki, "Barselona" 12 futbolçusunu satmağa hazırdı. Siyahıya Neto, Nelson Semedu, Samuel Umtiti, Xunior Firpo, İvan Rakitiç, Arturo Vidal, Usman Dembele və Martin Breytueyt aiddi. Sözügedən oyunçularla yanaşı, icarədə olan Karles Alenya, Rafinya, Jan-Kler Todibo və Filippe Koutinyo ilə də yolların ayrılacağı gözlənilir. Katalon klubu 2019-20 mövsümündə La Liqanı əzəli rəqibi "Real"ın 5 xal gerisində, ikinci sırada bitirib.

# "İşimə başlamaq üçün səbirsizlənirəm" - Canni de Byazi

***"Əgər bir ehtimal varsa, sabahla bağlı heç vaxt "heç vaxt" demə".***

"Unikal" qəzetinin məlumatına görə, bunu Azərbaycan millisinin yeni baş məşqçisi Canni de Byazi deyib.

Ölkəsi İtaliya mətbuatına müsahibə verən 64 yaşlı mütəxəssis yığmamızda işinə başlamağı səbərsizliklə gözlədiyini söyləyib: "Bəlkə gələcəkdə texniki direktor kimi çalışa bilərəm. Komandada da yaxşı bir baş məşqçi olar və çətin anlarda ona kömək edə bilərəm. Ancaq indi bütün diqqətimi Azərbaycan millisinə yönəltmişəm. Yenidən baş məşqçi kimi fəaliyyət göstərəcəyəm və başlamaq üçün səbirsizlənirəm. Albaniya yığmasından sonra yeni çağırış axtarışında idim".

Qeyd edək ki, Canni de Byazi AFFA ilə il yarımlıq müqavilə imzalayıb.

# Burak Yılmaz "Lill"lə anlaşdı

***"Beşiktaş"ın kapitanı Burak Yılmazın karyerasını Fransada davam etdirəcəyi dəqiqləşib.***

Unikal" qəzetinin məlumatına görə, 35 yaşlı forvard "Lill" klubu ilə anlaşma əldə edib.

İstanbula yollanan Fransa klubunun tibbi heyəti tərəfindən müayinədən keçən Türkiyə millisinin üzvü yeni komandası ilə 2 illik müqavilə imzalayacaq. Burak artıq "Beşiktaş"la vidalaşıb.

Qeyd edək ki, Burak Yılmaz "Beşiktaş"a 2018-ci ildə "Trabzonspor"dan keçib.

# Kipr - Azərbaycan matçının stadionu açıqlandı

***Azərbaycan millisinin UEFA Millətlər Liqasındakı rəqibi Kipr yığmasının ev oyunlarına keçirəcəyi stadion müəyyənləşib.***

"Unikal" qəzeti "Protathlima" nəşrinə istinadən xəbər verir ki, Yohan Valemin baş məşqçi olduğu komanda sentyabrın 8-də Azərbaycan yığmasını GPS stadionunda qəbul edəcək.

Qeyd edək ki, Canni De Byazinin baş məşqçi olduğu Azərbaycan yığması Millətlər Liqasındakı ilk matçını sentyabrın 5-də Bakı Olimpiya Stadionunda Lüksemburqa qarşı keçirəcək. Komanda C Liqasının 1-ci qrupunda Monteneqro ilə də qarşılaşacaq.

# "Real"da Zidanın oğluyla bağlı qərar verildi

***"Real" futbolçusu Luka Zidanın müqaviləsinin müddətini artırmayacaq.***

"Unikal" qəzeti xəbər verir ki, bu barədə AS nəşri məlumat yayıb. Xəbərdə, müqaviləsinin müddəti bitən qapıçının "kral klubu"ndan ayrılacağı bildirilib.

"Real"ın yetirməsi olan Zidan karyerasını Fransanın "Monpelye" klubunda davam etdirəcək.

Luka Zidan "Real"ın baş məşqçisi Zinəddin Zidanın oğludur.

# Çempionluğu qeyd edirdi, evi qarət olundu

***"Liverpul"un futbolçusu Fabinyonun evi qarət olunub.***

"Unikal" qəzeti xarici mətbuata istinadən xəbər verir ki, hadisə iyulun 22-də baş verib. "Liverpul"un Premyer Liqanın 37-ci turunun "Çelsi" ilə matçından (5:3) sonra çempionluğunu qeyd etmək üçün məclis təşkil edilib. Fabinyo məclisdə olarkən evi soyulub.

Oğrular evdən zinət əşyaları və futbolçunun qarajdan "Audi RS6" markalı avtomobilini oğurlayıb.

Fabinyonun avtomobili daha sonra Uiqan bölgəsində tapılıb.

# La Liqa prezidenti istefa verir

***La Liqanın prezidenti Xavyer Tebasın postundan istefa verəcəyi gözlənilir.***

"Unikal" qəzeti COPE-yə istinadən xəbər verir ki, Tebas 2018-ci ildə hüquqi xidmətlər qarşılığında "Fuenlabrada"dan 130 min avro alıb. Lakin 57 yaşlı funksioner bu məbləği gəlir qismində göstərməyib.

Tebas 2013-cü ildən La Liqaya rəhbərlik edir. O, 2019-cu ildə növbəti dörd il müddətinə prezident seçilmişdi.

Səhifəni hazırladı: Aygün İlqarqızı

# Məşhurlar karantində ən çox nəyə pul xərclədilər?

***Dünyada yayılan koronavirus infeksiyası insanların həyatında çox şeyi dəyişib. Bir çoxlarımız əvvəlki həyat tərzimizi kənara qoyub, yeni qaydalarla yaşamağa alışmışıq. Bu dəyişikliklər sırasında maddi durumumuz da yer alır: xərcimiz və gəlirimiz.***



Axşam.az məşhur simalar arasında sorğu edərək, onların pandemiya ərəfəsində ən çox nəyə pul xərclədiklərini soruşub.

Xalq artisti Röya Ayxan pulunu yaradıcılığına xərcləyib. Müğənni mahnı yazdırıb, klip çəkdirib.

Müğənni Roza Zərgərli bildirib ki, karantin günlərində pulu ən çox yeməyə gedib: "Digər tərəfdən isə ev təmizləmək üçün vasitələrə çox xərcim çıxıb. Ən az isə geyimə xərcləmişəm".

Müğənni Elvin Abdullayev isə karantində büdcəsini düzgün idarə etməyi öyrəndiyini söyləyib: "Çalışıram az xərcləyim, amma ailəm var, bir az çətindir. Ən çox övladlarıma pul xərcləmişəm. Karantin ərəfəsində heç pul xərcləmədim restoranlara. Dostlarla otururduq, nəsə yeyirdik və hesab ödəyirdik. İndi hamı bilir ki, incəsənət adamlarının gəliri yoxdur. Bir də yardımlar etdim. Bunu çəkib göstərmədim, belə şeylərlə aram yoxdur".

Rəqqasə Fatimə Fətəliyeva isə bildirib ki, pulu ərzağa çıxıb: "Pulum ərzaq mağazalarında gedib. İndi xərcləməyə başqa yer yoxdur. Əvvəl geyimə xərcləyirdim, restoranda hesab verirdim. İndi heç onlayn sifarişlər də etmirəm, pul yoxdur. Amma yeməyə hər zaman pul var. Biz son qəpiyini yeməyə xərcləyən millətik".

Müğənni Şəbnəm Tovuzlu ən çox yeməyə və idman geyimlərinə pul xərclədiyini deyib: "Bir də bu ərəfədə yardımlar etdim. Allah şahiddir ki, nə qədər ailəyə əl uzatdım. Bu ərəfədə idman geyimlərinə də pulum getdi. Əvvəlkindən fərqli olaraq karantin ərəfəsində mahnılara və geyimə pul vermədim".

Müğənni Ceyhun Əliyev də karantin ərəfəsində qazancının olmadığını bildirib: "Pul qazananda çox xərcləyirəm. Təəssüf ki, martdan bu yana qazancım yoxdur. Aranjiman, səs yazmaq, ümumiyyətlə, studiya işləri çox pul aparır. Karantindən əvvəl də, indi də ən çox ona pulum gedib".

Müğənni Xatirə İslam isə pulunu ancaq ətə xərclədiyini söyləyib.

Müğənni Gülay Zeynallı isə pulunu bazarlığa və onlayn sifarişlərə xərclədiyini deyib.

Müğənni Aysel Əlizadənin xərci isə başqa olub. O, digərlərindən fərqli olaraq pullarını yeməyə yox, bitkilərə xərcləyib: "Pulum güllərə, ağaclara, boya və fırçalara getdi. Bağbanlıq etdim. Bir də mətbəxdə şirniyyat hazırlamaq üçün nə lazımdırsa onu aldım. Şirniyyat bişirməyi öyrənirdim".

Müğənni Xatun Əliyeva isə deyib ki, karantində nə qədər çalışsa da, az pul xərcləyə bilmir: "Karantin günləri hələ də davam edir və çoxu kimi mən də işsizəm. Hər şeyə bacardığım qədər az pul xərcləməyə əalışsam da, alınmır. Çünki alışdığım həyat, qurduğum düzəni poza bilmirəm. İndiki durumda yeməkdən başqa nəyəsə çox pul xərcləmək gülməlidir. Bir də mən də digər həmkarlarım kimi əlimdən gələn qədər yardım etdim. Bilmirəm bu durum nə vaxta qədər davam edəcək, amma pandemiya bizdən çox şey aldığı qədər, bəzi amilləri də öyrətdi".

Müğənni Sevda Yahayeyva isə pulunu planla xərclədiyini etiraf edib: "Nəyəsə çox və ya az xərcləmirəm. Əksinə, bu müddət ərzində planlı və məqsədyönlü şəkildə xərcləməyə çalışıram".

# "Kaş telefon olmayaydı, abır-həya qalmayıb" - Mənzurə Musayeva



***Bizim vaxtımızda hər şey başqa idi. İndi dəhşətdir. Bəlkə bizim o vaxtlar ağlımız kəsməyib, başqa cür olmuşuk. İndi çox avropalaşmışıq. Bunu istəmirəm.***

"Unikal"axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Mənzurə Musayeva "Gündən-günə" proqramında qonaq olarkən deyib. Sənətçi gənclərin həddindən artıq müasir olmalarını bəyənmədiyini deyib:

"Hərənin bir cür baxışı var. Mən istəyirəm abır, həya, bir az utanma, çəkinmə olsun. Müəllimlərimizi görəndə utanardıq. İndi elə deyil: məktəbdə dava gedir, müəllim uşağı vurur, uşaq müəllimi vurur. Bəlkə, müəllim özünü apara bilmir, nəticə belə olur.

Düşünürəm ki, mobil telefon olmasaydı, başqa cür olardı. Telefon olsa da ancaq zəng gedib-gələrdi, digər funksiyalar olmazdı. Onda gənclərimiz başqa cür olardı".



# "Allaha yalvarıram ki, koronavirusdan ölməyim" - Mətanət İsgəndərli

***Əməkdar artist Mətanət İsgəndərli koronavirus qorxusunu etiraf edib.***

Axşam.az xəbər verir ki, müğənni "7 canlı" proqramında qonaq olarkən bu haqda danışıb. O bildirib ki, gecə-gündüz dualar edir: "Mən ölməyəcəm. Gecə-gündüz Allaha yalvarıram ki, koronavirusa yoluxmayım. İnsanlar var ki, elə bilirlər bu virusdan öləcəklər, qorxurlar. Dua edirəm, deyirəm, Allahım məni öldürmə. Öləcəm, 80-90 yaşımda. Mən koronavirusdan ölməyəcəm".

# Elnur Hüseynov da erməni vəhşiliyinə etiraz etdi

***Türkiyədə keçirilən "O ses Türkiye" yarışmasının qalibi, azərbaycanlı müğənni Elnur Hüseynov erməni vəhşiliyinə etiraz edib.***

"Unikal" ölkə.az-a istinadən bildirir ki, o, Türkiyənin İzmir şəhərində ermənilərə qarşı keçirilən aksiyada iştirak edib.

Aksiyada ifaçı "Stop armenian agression" (Erməni aqressiyasına son) sözləri yazılmış lövhəni qaldıraraq erməni vandalizminə qarşı etirazını bildirib.